AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

ADMİU
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT
VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

INTERNATIONAL UNION OF THEATRE CRITICS

TEATRO

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ



# "TEATR 2.0: RUH VƏ KOD"

mövzusunda
Beynəlxalq tələbə elmi
konfransının materialları

Bakı 2026

https://doi.org/10.52094/ZUTN8714

**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**
**TEATR SƏNƏTİ FAKÜLTƏSİ**
**TEATRŞÜNASLIQ KAFEDRASI**

**AZERBAIJAN STATE UNIVERSITY OF CULTURE AND ARTS**
**PERFORMING ARTS FACULTY**
**THEATRE STUDIES DEPARTMENT**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВ**
**ФАКУЛЬТЕТ ТЕАТРАЛЬНОГО ИСКУССТВО**
**КАФЕДРА ТЕАТРОВЕДЕНИЕ**

*10 Mart Milli Teatr Günü və 27 Mart Beynəlxalq Teatr Gününə həsr olunur*

*Dedicated to the National Theatre Day on March 10 and the International Theatre Day on March 27*

*Посвящается Национальному дню театра 10 марта и Международному дню театра 27 марта*

# “TEATR 2.0: RUH VƏ KOD”
**mövzusunda beynəlxalq tələbə elmi**
**konfransının materialları**
**12 mart 2026**

**Materials of the**
**International students’ scientific conference**
**“THEATRE 2.0: SOUL AND CODE”**
**March 12, 2026**

**Материалы международной**
**Студенческой научной конференции**
**“ТЕАТР 2.0: ДУХ И КОД”**
**12 марта 2026 года**

*Konfrans materialları Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının 12 fevral 2026-cı il tarixli (protokol № 5) qərarına əsasən çap edilir.*

**Bakı – 2026**

**Ekspert komissiyasının üzvləri**

| | |
|---|---|
| **Məryəm Əlizadə** | *Sənətşünaslıq doktoru, professor* |
| **İsrafil İsrafilov** | *Sənətşünaslıq doktoru, professor* |
| **Aydın Talıbzadə** | *Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor* |
| **Vidadi Qafarov** | *Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent* |
| **Fəridə Cəlilova** | *Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent* |
| **Elçin Cəfərov** | *Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent* |

**Texniki heyət**

| | |
|---|---|
| **Elçin Cəfərov** | *Redaktor* |
| **Aliyə Dadaşova** | *Məsul katib* |
| **Cavid Zeynalov** | *Texniki redaktor* |
| **Qönçə Firudinli** | *Texniki redaktor* |

**Teatr 2.0: Ruh və kod**, – Bakı: ADMİU-nun mətbəəsi, – 2026, – 129 s.

Ünvan: AZ – 1065, Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 39.
Адрес: AZ – 1065, Азербайджанская Республика, город Баку, пр. Строителей 39.
Address: 39, Inshaatchilar Avenue, Baku, Republic of Azerbaijan, AZ – 1065. Tel: (+994 12) 599-00-54

**© ADMİU, 2026**

# MƏRUZƏLƏR
# REPORTS
# ДОКЛАДЫ

**Teatr kodlaşmasında dövlət siyasəti..........7**
**Əhməd Mehtiyev** *(Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti)*
**State Policy in Theatre Coding**
**Ahmad Mehtiyev** *(Azerbaijan State University of Culture and Arts)*
**Государственная политика в кодировании театра**
**Ахмед Мехтиев** *(Азербайджанский государственный университет культуры и искусств)*

**Şekspir faciəsinin müasir interpretasiyası..........13**
**Ramazan Abeldaxan** (*T.Jurgenev adına Qazaxıstan Milli İncəsənət Akademiyası)*
**Contemporary Interpretation of Shakespeare's Tragedy**
**Ramazan Abeldakhan** *(Kazakh National Academy of Arts named after T.Jurgenev)*
**Современная интерпретация трагедии Шекспира**
**Рамазан Абельдахан** *(Казахская национальная академия искусств имени Т.Жургенова)*

**Məcruh və kod..........16**
**Raya Əli Şərif** *(Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti)*
**The Wounded and the Code**
**Raya Ali Sharif** *(Azerbaijan State University of Culture and Arts)*
**Раненый и код**
**Рая Али Шариф** *(Азербайджанский государственный университет культуры и искусств)*

**Sənətlərin sintezi: tamaşanın vizual həllində teatr rəssamının rolu..........21**
**Ülkər Ələkbərova** (*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*)
**Synthesis of the Arts: The Role of the Theatre Designer in the Visual Solution of the Performance**
**Ulker Alakbarova** *(Azerbaijan State University of Culture and Arts)*
**Синтез искусств: роль театрального художника в визуальном решении спектакля**
**Улькер Алекберова** *(Азербайджанский государственный университет культуры и искусств)*

**Çağdaş qazax rejissorluğunun inkişafı (Farhat Moldagalinin yaradıcılığı əsasında)..........27**
**Dinara Sagıngaliyeva** (*T.Jurgenev adına Qazaxıstan Milli İncəsənət Akademiyası)*
**The Development of Contemporary Kazakh Directing (Through the Case of Farhat Moldagali)**
**Dinara Sagingaliyeva** *(Kazakh National Academy of Arts named after T.Jurgenev)*
**Çağdaş Kazak Yönetmenliğinin Gelişimi (Farhat Moldagali Üzerinden)**
**Dinara Sagingaliyeva** *(T.Jurgenov Adına Kazak Ulusal Sanat Akademisi)*

**Canlı teatr və rəqəmsal texnologiya inteqrasiya müstəvisində..........31**
**Aytən Abdullayeva** (*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti)*
**Live Theatre and Digital Technology in the Context of Integration**
**Ayten Abdullayeva** *(Azerbaijan State University of Culture and Arts)*
**Живой театр и цифровые технологии в контексте интеграции**
**Айтен Абдуллаева** *(Азербайджанский государственный университет культуры и искусств)*

**Qazax ədəbi irsi və onun müasir səhnə interpretasiyası..........36**
**Narqız Orinbasar** *(T.Jurgenev adına Qazaxıstan Milli İncəsənət Akademiyası)*
**Kazakh Literary Heritage and Its Contemporary Stage Interpretation**

**Narqiz Orinbasar** *(Kazakh National Academy of Arts named after T.Jurgenev)*
**Казахское литературное наследие и её современная сценическая интерпретация**
**Наркиз Оринбасар** *(Казахская национальная академия искусств имени Т.Жургенова)*

**Teatr sənətinin yeni paradiqması: insan və maşın əməkdaşlığı..............................................40**
**Aynur Əskərli** *(Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti)*
**A New Paradigm of Theatre Art: Human and Machine Collaboration**
**Aynur Askerli** *(Azerbaijan State University of Culture and Arts)*
**Новая парадигма театрального искусства: сотрудничество человека и машины**
**Айнур Аскерли** *(Азербайджанский государственный университет культуры и искусств)*

**Qazax teatr sənəti: dünən və bu gün..........................................................................44**
**Şuqıla Dalibayeva** *(T.Jurgenev adına Qazaxıstan Milli İncəsənət Akademiyası)*
**Kazakh Theatre Art: Yesterday and Today**
**Shuqila Dalibayeva** *(Kazakh National Academy of Arts named after T.Jurgenev)*
**Казахское театральное искусство: вчера и сегодня**
**Шугыла Далибаева** *(Казахская национальная академия искусств имени Т.Жургенова)*

**Postdramatik teatr estetikası və hibrid səhnə modeli.......................................................48**
**Ramilə Abdullazadə** *(Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti)*
**The Aesthetics of Postdramatic Theatre and the Hybrid Stage Model**
**Ramila Abdullazade** *(Azerbaijan State University of Culture and Arts)*
**Эстетика постдраматического театра и гибридная модель сцены**
**Рамиля Абдуллазаде** *(Азербайджанский государственный университет культуры и искусств)*

**Çağdaş teatrda musiqi və səs dizaynının dramaturji funksiyası.......................................53**
**Gülbadam Bəşirova** *(Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti)*
**The Dramaturgical Function of Music and Sound Design in Contemporary Theatre**
**Gulbadam Bashirova** *(Azerbaijan State University of Culture and Arts)*
**Драматургическая функция музыки и звукового дизайна в современном театре**
**Гюльбадам Баширова** *(Азербайджанский государственный университет культуры и искусств)*

**Müasir teatr inteqrə olunmuş dillər sistemi kimi: III Riçard.............................................59**
**Aleksandrina Çorasku** (*Moldova Musiqi, Teatr və Rəssamlıq Akademiyası)*
**Contemporary Theatre as an Integrated System of Languages: Richard III**
**Aleksandrina Chorasku** *(Academy of Music, Theatre and Fine Arts of Moldova)*
**Современный театр как интегрированная система языков: сценография, свет и звук в постановке «Ричард III»**
**Александрина Чораску** *(Академия музыки, театра и изобразительных искусств Республики Молдова)*

**Hibrid teatr: müasir səhnə sənətində transformasiya və yeni estetik model........................65**
**Cəfər Rzayev** (*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti)*
**Hybrid Theatre: Transformation and a New Aesthetic Model in Contemporary Stage Art**
**Jafar Rzayev** *(Azerbaijan State University of Culture and Arts)*
**Гибридный театр: трансформация и новая эстетическая модель в современном сценическом искусстве**
**Джафар Рзаев** *(Азербайджанский государственный университет культуры и искусств)*

**Müasir Moldova teatrında interaktivlik: formalar və estetik funksiyalar.............................68**
**Iana Ciolpan** *(Moldova Musiqi, Teatr və Rəssamlıq Akademiyası)*
**Interactivity in Contemporary Theatre in the Republic of Moldova: Forms and Aesthetic Functions**
**Iana Ciolpan** *(Academy of Music, Theatre and Fine Arts of Moldova)*

**Интерактивность в современном театре в Республике Молдова: формы и эстетические функции**
**Иана Чолпан** *(Академия музыки, театра и изобразительных искусств Республики Молдова)*

**Rəqəmsal texnologiyalar cəmiyyətində teatr......73**
**Amin Əhmədzadə** (*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*)
**Theatre in a Society of Digital Technologies**
**Amin Ahmadzade** *(Azerbaijan State University of Culture and Arts)*
**Театр в обществе цифровых технологий**
**Амин Ахмедзаде** *(Азербайджанский государственный университет культуры и искусств)*

**Bertolt Brext pyeslərinin Qazaxıstan teatrlarında təcəssüm xüsusiyyətləri......78**
**Darya Qordiyenko** (*T.Jurgenev adına Qazaxıstan Milli İncəsənət Akademiyası)*
**Features of the Interpretation of Bertolt Brecht's Plays in the Theatres of Kazakhstan**
**Darya Qordiyenko** *(Kazakh National Academy of Arts named after T.Jurgenev)*
**Особенности интерпретации пьес Бертольта Брехта в театрах Казахстана**
**Дарья Гордиенко** *(Казахская национальная академия искусств имени Т.Жургенова )*

**Azərbaycan və Qazaxıstanın müasir teatr tamaşalarında innovativ səhnəqrafiyanın rolu......82**
**Elvin Abdullayev** *(Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, T.Jurgenev adına Qazaxıstan Milli İncəsənət Akademiyası)*
**The Role of Innovative Scenography in Contemporary Theatre Performances of Azerbaijan and Kazakhstan**
**Elvin Abdullayev** *(Azerbaijan State University of Culture and Arts, Kazakh National Academy of Arts named after T.Jurgenev)*
**Роль инновационной сценографии в современных театральных спектаклях Азербайджана и Казахстана**
**Эльвин Абдуллаев** *(Азербайджанский государственный университет культуры и искусств, Казахская национальная академия искусств имени Т.Жургенова)*

**Teatr və yeni media: müasir tamaşalar kontekstində mədəniyyətə çıxış......87**
**Rata Andreea-Emira** *(Moldova Musiqi, Teatr və Rəssamlıq Akademiyası)*
**Theatre and New Media: Access to Culture in the Context of Contemporary Performances**
**Rata Andreea-Emira** *(Academy of Music, Theatre and Fine Arts of Moldova)*
**Театр и новые медиа: доступ к культуре в контексте современных спектаклей**
**Рата Андрея-Эмира** *(Академия музыки, театра и изобразительных искусств Республики Молдова)*

**Aktyorların ifadə vasitələri sistemində antitetik qrim......91**
**Yelizaveta Ralitna** *(Xarkov Dövlət İncəsənət Akademiyası)*
**Antithetical Makeup in the System of Actors' Expressive Means**
**Yelizaveta Ralitna** *(Kharkiv State Academy of Arts)*
**Антитетический грим в системе выразительных средств актёра**
**Елизавета Ралитна** *(Харьковская государственная академия искусств)*

**Keçmişə doğru irəliləyiş: klassik dramaturgiyanin çağdaş səhnə həlləri......95**
**Zeynəb İsmayılova** *(Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti)*
**Moving Towards the Past: Contemporary Stage Interpretations of Classical Dramaturgy**
**Zeynab Ismayilova** *(Azerbaijan State University of Culture and Arts)*
**Движение в прошлое: современные сценические интерпретации классической драматургии**
**Зейнаб Исмайилова** *(Азербайджанский государственный университет культуры и искусств)*

**Rəqəmsal dövrdə teatr: süni intellekt və səhnə sənətinin transformasiyası............................98**
**Zəhra Fəttahova** *(Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti)*
**Theatre in the Digital Age: Artificial Intelligence and the Transformation of Performing Arts**
**Zahra Fattahova** *(Azerbaijan State University of Culture and Arts)*
**Театр в цифровую эпоху: искусственный интеллект и трансформация сценического искусства**
**Зехра Фаттахова** *(Азербайджанский государственный университет культуры и искусств)*

**Qazax teatrında qazax qadın obrazının müasir interpretasiyası...........................................103**
**Abzal Adina** *(T.Jurgenev adına Qazaxıstan Milli İncəsənət Akademiyası)*
**Contemporary Interpretation of the Image of the Kazakh Woman in Kazakh Theatre**
**Abzal Adina** *(Kazakh National Academy of Arts named after T.Jurgenev)*
**Современная интерпретация образа казахской женщины в казахском театре**
**Абзал Адина** *(Казахская национальная академия искусств имени Т.Жургенова)*

**Teatr və “Qaragöz” faciəsinin müasir interpretasiyası.........................................................107**
**Abiken Zeynep** (*T.Jurgenev adına Qazaxıstan Milli İncəsənət Akademiyası)*
**Theatre and the Contemporary Interpretation of the Tragedy “Karagoz”**
**Abiken Zeynep** *(Kazakh National Academy of Arts named after T.Jurgenev)*
**Театр и современная интерпретация трагедии «Қарагөз»**
**Абикен Зейнеп** *(Казахская национальная академия искусств имени Т.Жургенова)*

**Asxat Mayemirovun “Chanel No. 5” tamaşasında tarixi travmanın təmsili.......................111**
**Ayjan Kabildanova** (*T.Jurgenev adına Qazaxıstan Milli İncəsənət Akademiyası)*
**The Representation of Historical Trauma in the Performance “Chanel No. 5” by Askhat Mayemirov**
**Kuralay Asangyzy** *(Kazakh National Academy of Arts named after T.Jurgenev)*
**Репрезентация исторической травмы в спектакле «Chanel №5» Асхата Маемирова**
**Айжан Кабылданова** *(Казахской национальной академий имени Т.Жургенова)*

**“Qaragöz”: müasir səhnə interpretasiyası.........................................................................115**
**Yatay Bibigül** *(T.Jurgenev adına Qazaxıstan Milli İncəsənət Akademiyası)*
**“Karagoz”: Contemporary Stage Interpretation**
**Yatay Bibigul** *(Kazakh National Academy of Arts named after T.Jurgenev)*
**«Карагоз»: современная сценическая интерпретация**
**Ятай Бибигуль** *(Казахской национальной академий имени Т.Жургенова)*

**Səhnə sənətinin inkişaf tarixi...........................................................................................118**
**Əsmər Həbibli** (*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti)*
**The Relationship Between Theatre and Society in Azerbaijan: A Sociological Evaluation**
**Asmar Habibli** *(Azerbaijan State University of Culture and Arts)*
**Взаимосвязь театра и общества в Азербайджане: социологическая оценка**
**Эсмер Хабибли** *(Азербайджанский государственный университет культуры и искусств)*

**Azərbaycanda teatr və cəmiyyət münasibətləri: sosioloji təhlil............................................122**
**Həsən Səmədov** (*Anadolu Universiteti, Türkiyə*)
**The Relationship Between Theatre and Society in Azerbaijan: A Sociological Evaluation**
**Hasan Samadov** *(Anadolu University, Turkiye)*
**Azerbaycan’da Tiyatro ve Toplum İlişkisi: Sosyolojik Bir Değerlendirme**
**Hasan Samadov** *(Anadolu Üniversitesi, Türkiye)*

**Əhməd Mehtiyev**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,*
*Teatr tənqidi ixtisaslaşması, Magistrant*

# Teatr kodlaşmasında dövlət siyasəti

**Xülasə:** Bu məqalə teatr sənətinin və dövlət siyasətinin qarşılıqlı rolunu, tarixi, nəzəri və müqayisəli aspektlərdən təhlil edir. Teatrın yalnız estetik hadisə deyil, həm də ictimai institut kimi fəaliyyəti onu dövlət idarəçiliyinin təsir obyektinə çevirir. Bu məqalənin məqsədi, dövlət siyasətinin teatr sisteminə təsir mexanizmlərini institusional tənzimləmə, iqtisadi və repertuar siyasəti, teatrın həm hakimiyyətin legitimləşdirici alətinə, həm də tənqidi diskursun meydanına çevrilmə potensialını müxtəlif alimlərin nəzəriyyələrinin kontekstində təhlil etməkdir. Nəticə olaraq göstərilir ki, teatr və dövlət siyasətinin ikili münasibətlər əsasında həm təşviqedici, həm də məhdudlaşdırıcı müstəvidə olduğu lakin bu münasibətin heç vaxt birtərəfli olmadığı əks olunur.
***Açar sözlər:*** *teatr kodlaşması, dövlət siyasəti, mədəni siyasət, teatrın idarə olunması, siyasi teatr, institusional tənzimləmə.*

## State Policy in Theatre Coding

**Abstract:** This article analyzes the interrelated roles of theatre art and state policy from historical, theoretical, and comparative perspectives. Theatre, functioning not only as an aesthetic phenomenon but also as a social institution, becomes an object of influence within the sphere of state governance. The aim of this article is to examine the mechanisms through which state policy affects the theatre system—such as institutional regulation, economic and repertoire policy—as well as theatre's potential to function both as a tool for legitimizing authority and as a platform for critical discourse. These issues are analyzed within the context of various scholars' theoretical approaches. The study concludes that the relationship between theatre and state policy is dual in nature, operating on both supportive and restrictive levels; however, this relationship is never unilateral.
***Keywords:*** *Theatre codification, state policy, cultural policy, theatre management, political theatre, institutional regulation.*

## Государственная политика в кодировании театра

**Резюме:** В данной статье анализируется взаимосвязанная роль театрального искусства и государственной политики с исторической, теоретической и сравнительной точек зрения. Театр, выступая не только как эстетическое явление, но и как социальный институт, становится объектом воздействия системы государственного управления. Целью статьи является исследование механизмов влияния государственной политики на театральную систему — институционального регулирования, экономической и репертуарной политики, а также потенциала театра выступать как инструмент легитимации власти и как пространство критического дискурса. Эти вопросы рассматриваются в контексте теоретических подходов различных ученых. В результате показано, что отношения между театром и государственной политикой носят двойственный характер, проявляясь как в

стимулирующем, так и в ограничивающем измерении, однако эти отношения никогда не являются односторонними.

***Ключевые слова:*** *Кодификация театра, государственная политика, культурная политика, управление театром, политический театр, институциональное регулирование.*

## Giriş

Teatr və siyasət arasındakı əlaqə minilliklər boyu davam edən mürəkkəb və çoxşaxəli bir dialoqdur. Qədim Yunanıstanda Dionis şərəfinə keçirilən festivallardan tutmuş müasir dövrün dövlət tərəfindən maliyyələşdirilən milli teatrlarına qədər, səhnə sənəti həmişə cəmiyyətdəki güc münasibətlərinin, ideoloji mübarizələrin və kollektiv şüurun formalaşdığı məkan olmuşdur. Bu münasibətin ən bariz təzahürlərindən biri teatrın təşkilatlanması yəni yaradıcılıq prinsipləri, təşkilati strukturu, repertuar seçimi və tamaşaçı ilə əlaqəsinin müəyyən qayda və normalar çərçivəsinə salınması prosesidir. Bu təşkilatlanmada dövlət siyasətinin rolu isə müasir dövrdə getdikcə daha aktual tədqiqat mövzusuna çevrilir.

Dövlət siyasətinin yaranması qədim sivilizasiyalara, məsələn, Qədim Yunanıstan və Romaya gedib çıxır. Həmin dövrlərdə hökmdarlar cəmiyyəti tənzimləmək üçün fərmanlar və qanunlar qəbul edirdilər. Lakin dövlət siyasətinin müasir konteksdə elmi şəkildə öyrənilməsi XIX əsrin sonlarında başlamışdır. Bu dövrdə Vudro Vilson və Con Borces kimi amerikalı alimlər hökumət ilə cəmiyyət arasındakı münasibətləri araşdırmışdılar . İkinci Dünya müharibəsindən sonra isə ictimai siyasət sosial, iqtisadi və siyasi problemlərin həllinə yönəlmiş müstəqil bir elm sahəsi kimi formalaşmışdır. Dövlət siyasəti dedikdə, yalnız hökumətin qanunvericilik aktları və ya rəsmi sənədləri deyil, eyni zamanda mədəniyyət sahəsinə ayrılan maliyyə vəsaitlərinin bölüşdürülməsi, teatr şəbəkəsinin qurulması, milli kimliyin səhnədə təmsili və senzura mexanizmləri də daxil olmaqla geniş spektrli tənzimləmə formaları başa düşülür. Müasir dövrdə teatr, xüsusilə də repertuar teatrları, az sayda istisnalarla, bazar iqtisadiyyatı şəraitində öz hesabına yaşaya bilmədiyi üçün dövlət dəstəyinə ehtiyac duyur. Bu dəstək isə istər-istəməz müəyyən öhdəliklər və gözləntilərlə müşayiət olunur.

Teatr və siyasət arasındakı münasibət tarixi və nəzəri baxımdan ayrılmaz xarakter daşıyır. Minilliklər boyu siyasət, sosial həyatın digər sahələrindən – incəsənət, din, əxlaq və tarixdən təcrid olunmuş şəkildə dərk edilməmişdir. Əksinə, bu sahələr bir-birini qarşılıqlı şəkildə formalaşdıran və bütöv ictimai sistem yaradan elementlər kimi qəbul olunmuşdur. Qədim düşüncə ənənəsində siyasət yalnız hakimiyyət aləti kimi deyil, yaxşı və ədalətli həyatın təşkili haqqında elm sayılırdı. Ona görə də teatr kimi ictimai sənət forması siyasi reallığın xaricində mövcud ola bilməzdi. Teatr ictimai münasibətlərin səhnə üzərində modelləşdirilməsi, sosial güc münasibətlərinin simvolik ifadəsi və kollektiv şüurun formalaşdırılması məkanıdır. Dövlət siyasəti isə bu məkanın ideoloji istiqamətini müəyyən edən struktur gücdür.

Teatrın siyasətlə münasibətini yalnız antik dövrdən çıxış edərək izah etmək yetərli olmaz. Tarixi təcrübə göstərir ki, hər bir mədəniyyət özünəməxsus teatr formaları yaratmış və bu formalar konkret ictimai-siyasi şəraitə uyğun şəkildə fərqli funksiyalar yerinə yetirmişdir. Teatrın dəyişməyən xüsusiyyəti onun sosial mahiyyətidir. O, kollektiv təcrübənin estetik ifadəsi kimi çıxış edir, tamaşaçı təxəyyülünü işə salır və cəmiyyətdə mövcud olan münasibətləri səhnə üzərində modelləşdirir. Bununla yanaşı, teatr yalnız mövcud reallığın təkrarı deyil; o, hələ reallaşmamış imkanları, potensial dəyişiklikləri və alternativ sosial formaları da təsəvvür müstəvisində canlandırmaq gücünə malikdir. Bu baxımdan teatr həm refleksiya, həm də impuls yaradan

məkandır. Lakin müasir dövrün sosial strukturu antik cəmiyyət modelindən prinsipial şəkildə fərqlənir. Müasir siyasi reallıq "kütlə" anlayışının formalaşması ilə səciyyələnir. Bu anlayışın meydana çıxması ilə siyasət artıq yalnız hakim təbəqəyə aid fəaliyyət sahəsi deyil, geniş ictimai təbəqələrin iştirak etdiyi dinamik prosesə çevrilmişdir. Bunun nəticəsində marksizm, faşizm, kommunizm və liberalizm kimi ideoloji sistemlər meydana gəlmiş və siyasi təfəkkür yeni miqyas qazanmışdır. Belə şəraitdə teatrın funksiyası da transformasiyaya uğramışdır.

Müasir mərhələdə teatr yalnız dövlət ideologiyasının ötürücüsü kimi çıxış etmir. O, ictimai hərəkatların, inqilabi qrupların və siyasi təşkilatların istifadə etdiyi təsir vasitəsinə çevrilmişdir. Səhnə artıq yalnız mərkəzləşdirilmiş hakimiyyətin deyil, müxtəlif sosial qüvvələrin diskurs sahəsidir. Bu dəyişiklik vətəndaş tərbiyəsinin də xarakterini yenidən müəyyənləşdirmişdir: siyasi şüurun formalaşdırılması artıq yalnız dövlətin əlində deyil, alternativ mədəni platformalar vasitəsilə də həyata keçirilir. Müasir şərait teatrın siyasi funksiyasını genişləndirmiş və mürəkkəbləşdirmişdir. O, həm legitimləşdirici, həm də tənqidi rol oynaya bilir. Bu isə siyasətin təhlilində yeni metodoloji yanaşmalar tələb edir; çünki teatr artıq sadəcə mədəni hadisə deyil, siyasi dinamikanın formalaşmasında aktiv iştirak edən diskurs sahəsidir.

**Teatr və siyasət: nəzəri paradiqma**

Siyasət mahiyyət etibarilə sosial və siyasi gücə əsaslanan ümumi maraqların idarə olunması prosesidir. O, yalnız dövlət aparatında cəmlənmir, eyni zamanda təşkilatlararası münasibətlərdən başlayaraq ictimai dəyərlərə qədər uzanan geniş sahəni əhatə edir. Hakimiyyət uğrunda mübarizə və prosedurlar ətrafında konfliktlər, ictimai nizamın qurulması və qorunması siyasətin ayrılmaz xüsusiyyətləridir. Siyasət bir tərəfdən hökmranlıq vasitəsi kimi çıxış edir, digər tərəfdən isə cəmiyyət daxilində müəyyən inteqrasiya və nizam yaradır. Bu ikili xarakter teatrın da siyasi funksiyasını şərtləndirir, çünki səhnədə təqdim olunan hər bir konflikt, hər bir qəhrəman modeli və hər bir sonluq sosial harmoniyanın necə təsəvvür edildiyini göstərir.

İnstitusional baxımdan teatr, dövlət tərəfindən müəyyən edilmiş hüquqi və iqtisadi çərçivə daxilində fəaliyyət göstərir. Bu çərçivəyə teatrların təsis qaydaları, maliyyələşmə mənbələri, vergi güzəştləri, müqavilə hüququ və əmək münasibətləri daxildir. Dövlət, teatrı ya birbaşa özü təsis edib saxlaya, ya da özəl teatrlara qrant və subsidiyalar verə bilər. Bu maliyyə asılılığı teatrın fəaliyyət istiqamətlərini dolayısı yolla müəyyənləşdirən mühüm amildir.

İdeoloji səviyyədə isə teatr kodlaşması daha mürəkkəb xarakter daşıyır. Teatr tamaşaları vasitəsilə müəyyən dəyərlər, tarixi şərhlər və sosial modellər təqdim olunur. Dövlət siyasəti bu dəyərlərin formalaşmasına təsir göstərə bilər. Məsələn, milli teatrların yaradılması və onların repertuar siyasətinin dəstəklənməsi çox vaxt milli kimliyin qorunması və inkişaf etdirilməsi məqsədi daşıyır. Bu kontekstdə teatr milli birliyin simvolik təmsil məkanına çevrilir. Ümumiyyətlə, mövzuya daha geniş arealdan baxdığımız zaman teatr qədim ritual mərasimlərdən formalaşaraq ictimai institut halına gəlmişdir. O, müəyyən dövrdə və məkanda mövcud olan sosial və siyasi proseslərin güzgüsünə çevrilmişdir. Müharibələr, üsyanlar, inqilablar, sosial ziddiyyətlər və hakimiyyət mübarizələri teatrın əsas mövzuları sırasında olmuşdur. Bu fakt təsadüfi deyil. Çünki insan ictimai və siyasi varlıqdır; onun ehtiyacları, maraqları və davranış modelləri cəmiyyət daxilində formalaşır. Sosial struktur daxilində mövqelər, iyerarxiyalar və güc münasibətləri yaranır və bu münasibətlər səhnədə dramatik formaya salınır. Beləliklə, teatr reallığın passiv əksi deyil, onun yenidən qurulmuş estetik modelidir.

**Tarixdə siyasət və teatr kəsişməsi**

Dövlətin teatr həyatına sistemli şəkildə müdaxiləsinin ən önəmli nümunələrindən birini XIX əsr Fransasında müşahidə etmək olar. Napoleon Bonapartın 1806-1807-ci illərdə qəbul etdiyi dekretlərlə Fransada ilk dəfə olaraq vahid dövlət teatr şəbəkəsi yaradıldı . Bu sistem 1864-cü ilə qədər, demək olar ki, 60 ilə yaxın bir müddət ərzində fəaliyyət göstərdi və teatr prosesinin demək olar ki, bütün aspektlərini, repertuardan tutmuş direktor təyinatına qədər mərkəzləşdirilmiş şəkildə tənzimlədi. Napoleon islahatları 1791-ci il Le Şapelye qanunu ilə əldə edilmiş bədii və kommersiya azadlığını ləğv edərək, teatrları yenidən dövlət nəzarəti altına aldı. Bu yeni sistemdə vilayət teatrlarının direktorları nazirlik tərəfindən təyin olunur, səyyar truppalar isə yalnız müəyyən edilmiş rayonlarda fəaliyyət göstərmək üçün dövlət lisenziyası alırdılar. Teatrlar gəlirlərinin 5%-ni dövlətin kassalar üçün nəzərdə tutduğu xüsusi fonda ödəməli idilər. Bu islahat Fransanın teatr xəritəsini yenidən çəkdi, iki səviyyəli səyyar truppalar sistemi yaratdı və qadınların truppa rəhbəri olmasını qadağan etdi. Bu təcrübə göstərir ki, dövlət siyasəti təkcə teatrın məzmununa deyil, həm də onun coğrafi paylanmasına, işçi qüvvəsinin tərkibinə və iqtisadiyyatına birbaşa təsir göstərə bilir.

Sosialist düşərgəsinin dağılması və neoliberal iqtisadi siyasətlərin güclənməsi ilə 1990-cı illərdə Avropanın bir çox ölkəsində dövlət tərəfindən maliyyələşdirilən teatrlar ciddi problemlərlə üzləşdi. Bu baxımdan, ən dramatik nümunələrdən biri Berlinin "Dövlət Səhnələri Kompleksi"nin (Staatliche Schauspielbühnen Berlin) bağlanmasıdır. 1993-cü ilin iyununda Berlin Senatı böyük büdcə kəsiri səbəbindən Almaniyanın ən böyük və ən bahalı teatr kompleksini bağlamaq qərarına gəldi . Bu hadisə teatrın dövlət siyasəti ilə münasibətində yeni bir mərhələnin, iqtisadi səmərəlilik və büdcə qənaətçiliyi prinsiplərinin mədəniyyət siyasətinə tətbiqinin bariz nümunəsidir. Brandon Vulf bu prosesi "dövlət-səhnə kompleksinin tənəzzülü" kimi təhlil edir və qeyd edir ki, Berlin Divarının dağılmasından sonra birləşmiş Almaniya paytaxtında siyasi və iqtisadi gündəlik, dövlət subsidiyaları ilə yaşayan teatrların mövcudluğunu təhlükə altına atmışdır. Bu cür iqtisadi təzyiqlər müasir teatrların fəaliyyətində ikili öhdəliklər yaradır. Dövlət teatrları maliyyələşdirir, lakin eyni zamanda onlardan müəyyən sosial və mədəni funksiyaları yerinə yetirməyi gözləyir. Bu gözləntilər bəzən teatrın bədii muxtariyyəti ilə toqquşa bilər. Dövlət siyasətinin teatr kodlaşmasına təsiri təkcə maliyyə və ya təşkilati səviyyədə qalmır; o, teatrın estetik dilinə, janr seçiminə və hətta bədənin səhnədə təmsilinə qədər nüfuz edə bilər.

**Nəticə**

Dövlət siyasətinin teatr sferasındakı güclü rolu heç də o demək deyil ki, teatr yalnız hakimiyyətin passiv alətinə çevrilir. Əksinə, teatr tarixi eyni zamanda bu kodlaşmaya qarşı müqavimətin, alternativ modellerin və tənqidi yanaşmaların da tarixidir. XX əsr Avropa teatrında Bertolt Brextin epik teatrı, Ervin Piskatorun siyasi teatrı və onların davamçıları mövcud siyasi strukturların tənqidi üçün səhnəni platformaya çevirdilər. Brextin "yadlaşdırma effekti" tamaşaçını səhnədə gördüklərini təbii və dəyişməz qəbul etməkdən çıxararaq, onları tənqidi düşüncəyə təşviq edirdi. Bu yanaşmada məqsəd tamaşaçını emosional passivlikdən çıxarmaq və onu rasional mövqe tutmağa təşviq etməkdir. Yadlaşdırma effekti vasitəsilə tamaşaçı səhnədə gördüyünü adi və qaçılmaz reallıq kimi deyil, dəyişdirilə bilən sosial konstruksiya kimi qəbul edir. Bu modeldə teatr dövlətin qurduğu harmoniyanı təsdiqləmir, əksinə, onun mexanizmlərini ifşa edir. Tamaşaçı yalnız müşahidəçi deyil, ictimai proseslərin məsul iştirakçısı kimi təqdim olunur.

Bu ənənənin daha da radikal formasını Braziliyalı teatr xadimi Avqusto Boalın "Qanunverici Teatr" (Legislative Theatre) metodologiyasında görürük. Boalın yaratdığı bu model

tamaşaçıları passiv müşahidəçi mövqeyindən çıxararaq, onları ictimai müzakirələrin və hətta qanun yaradıcılığı prosesinin fəal iştirakçısına çevirməyi hədəfləyir.

Siyasi gücün mühüm komponentlərindən biri zor və ya zor tətbiqi potensialıdır. Müharibə, siyasi repressiya, üsyan kimi hadisələr teatrın dramaturji materialına çevrildikdə, səhnə siyasi travmanın kollektiv şüurda mənalandırılması məkanına çevrilir. Zorakılığın səhnələşdirilməsi iki fərqli nəticə doğura bilər: ya onu normallaşdıraraq gücün qaçılmazlığını qəbul etdirmək, ya da onu tənqid edərək empatiya və etiraz hissi oyatmaq. Teatrın bu funksiyası onun dövlət siyasəti ilə münasibətini daha da mürəkkəbləşdirir, çünki o, həm rəsmi ideologiyanın daşıyıcısı, həm də alternativ diskursun mənbəyi ola bilər.

Teatr semiotik sistem kimi də çoxqatlı mesajlar ötürür. Pərdə açıldığı andan etibarən səhnədəki hər bir detal jest, intonasiya, dekor, işıq  mənalandırma prosesində iştirak edir. Dövlət siyasəti bu mənalandırma çərçivəsini müəyyən ideoloji istiqamətə yönəldə bilər, lakin onu tam nəzarətdə saxlamaq mümkün deyil. Çünki tamaşaçı passiv obyekt deyil; o, öz sosial təcrübəsi və siyasi mövqeyi ilə səhnədə gördüyünü yenidən şərh edir. Beləliklə, teatr kodlaşması həmişə açıq və dinamik proses olaraq qalır. Bu müqavimət formaları göstərir ki, teatr kodlaşması heç vaxt tamamilə qapalı və biristiqamətli proses deyil. Dövlət siyasəti teatrın fəaliyyəti üçün çərçivə müəyyən etsə də, bu çərçivə daxilində yaradıcı şəxslər və qruplar öz alternativ kodlaşdırma strategiyalarını inkişaf etdirə bilirlər.

Siyasətin ekoloji konsepsiyası onu bütöv sosial sistemin tərkib hissəsi kimi nəzərdən keçirir. Bu baxımdan teatr mədəni alt-sistem kimi siyasətlə qarşılıqlı təsirdədir. O, nə siyasətdən tam müstəqildir, nə də yalnız onun alətidir. Dövlət siyasəti teatrın mövzu seçiminə, strukturuna və estetik dilinə təsir göstərsə də, teatrın daxili yaradıcılıq məntiqi və ictimai rezonansı onu həm də tənqidi və dəyişdirici gücə çevirə bilir.

Nəticə etibarilə, teatr kodlaşmasında dövlət siyasətinin rolu mürəkkəb, çoxqatlı və tarixən dəyişkən bir fenomendir. Napoleon dövrünün mərkəzləşdirilmiş nəzarət sistemlərindən tutmuş müasir dövrün neoliberal iqtisadi təzyiqlərinə qədər, dövlət teatrın təşkili, maliyyələşdirilməsi və məzmunu üzərində müxtəlif vasitələrlə təsir göstərməyə davam edir. Bu təsir həm institusional (teatr şəbəkəsinin qurulması, direktor təyinatı), həm iqtisadi (subsidiyalar, vergilər), həm də ideoloji (repertuar siyasəti, milli kimlik inşası) səviyyələrdə özünü göstərir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Augusto Boal, “Legislative Theatre Using performance to make politics” translated  by Adrian Jackson, Taylor & Francis e-Library, 2005. https://arditiesp.wordpress.com/wp-content/uploads/2014/08/boal_legislative_theatre.pdf
2. Brandon Wolf (2021) “Institutional Theatrics Performing Arts Policy in Post-Wall Berlin” (northwestern university press) https://dhjhkxawhe8q4.cloudfront.net/northwestern-uni-press-wp/wp-content/uploads/2021/05/26151131/Woolf-excerpt.pdf
3. Holderness, G. (1992). “Shaustück and Lehrstück: Erwin Piscator and the Politics of Theatre” https://link.springer.com/chapter/10.1007/978-1-349-21792-2_6
4. Katherine Astbury (May 1, 2014). “Napoleon’s theatre legislation of 1806 in the provinces. Napoleonic theatre”. (Hypotheses) https://doi.org/10.58079/ow5x
5. Konstantinidis, G. (2024). Dionyus the liberator https://www.researchgate.net/publication/378858315_Dionysus_the_Liberator
6. Marqo Morqon ( 2013) «Политика и театр в Европе XX века. Воображение и сопротивление» https://www.litres.ru/book/margo-morgan/politika-i-teatr-v-evrope-xx-veka-voobrazhenie-i-soprotivleni-70905469/chitat-onlayn/

7. Şupanitz, Endryu Pol (2020) “Revolutionary competition : coalitions, labor, and the birth of French antitrust”, 1791-1864 ( Stanford University Libraries) https://purl.stanford.edu/fb312yn8302
8. Verner Heçt, “The Development of Brecht's Theory of the Epic Theatre, 1918-1933”, Published online by Cambridge University Press,( 14 feburary 2022), https://www.cambridge.org/core/journals/tulane-drama-review/article/abs/development-of-brechts-theory-of-the-epic-theatre-19181933/02171F6A02AC1B1E72A2D5266CDFF57B
9. Woodrow, W. (1887). “Political science quarterly” https://faculty.fiu.edu/~revellk/pad3003/Wilson.pdf

**Рамазан Абелдахан**
*Казахская национальная академия искусств имени Темирбека Жургенова,*
*Специальность Театроведение, бакалавриат*

# Современная интерпретация трагедии Шекспира

**Резюме:** В статье анализируется современная интерпретация трагедии Уильяма Шекспира «Гамлет» на примере спектакля Дины Жумабаевой «Гамлеттің соңғы күндері…». Рассматривается взаимодействие классического текста с эстетикой постдраматического и цифрового театра. Особое внимание уделяется трактовке образа Гамлета, сценографии, символике цвета, а также визуальным и музыкальным кодам постановки. Делается вывод, что спектакль представляет собой новое художественное прочтение классики в контексте современных культурных и технологических процессов.
***Ключевые слова:*** *Гамлет, Шекспир, современный театр, постдраматический театр, интерпретация, сценография, режиссура, театральное искусство.*

## Contemporary Interpretation of Shakespeare's Tragedy

**Abstract:** The article analyzes a contemporary interpretation of William Shakespeare's tragedy Hamlet through Dina Zhumabayeva's production Hamlet's Last Days…. It examines the interaction between the classical text and the aesthetics of postdramatic and digital theatre. Particular attention is given to the interpretation of Hamlet's character, scenography, color symbolism, and the visual and musical codes of the performance. The study concludes that the production represents a new artistic reading of a classical work within the context of contemporary cultural and technological processes.
***Keywords:*** *Hamlet, Shakespeare, modern theatre, postdramatic theatre, interpretation, scenography, directing, performing arts.*

## Şekspir faciəsinin müasir interpretasiyası

**Xülasə:** Məqalədə Vilyam Şekspirin "Hamlet" faciəsinin müasir interpretasiyası Dina Jumabayevanın "Hamletin son günləri…" tamaşası əsasında təhlil olunur. Tədqiqatda klassik mətnin postdramatik və rəqəmsal teatr estetikas ilə qarşılıqlı əlaqəsi araşdırılır. Xüsusi diqqət Hamlet obrazının yozumuna, səhnəqrafiyaya, rəng simvolikasına, eləcə də tamaşanın vizual və musiqi kodlarına yönəldilir. Nəticədə belə qənaətə gəlinir ki, tamaşa klassikanın müasir mədəni və texnoloji proseslər kontekstində yeni bədii interpretasiyasını təqdim edir.
***Açar sözlər:*** *Hamlet, Şekspir, müasir teatr, postdramatik teatr, interpretasiya, səhnəqrafiya, rejissura, teatr sənəti.*

В начале XXI века театр оказался в пространстве активного диалога с цифровой культурой. Технологии, алгоритмическое мышление, визуальные коды массовой культуры всё активнее проникают в сценическое искусство, заставляя пересматривать классические театральные модели. Современный театр всё чаще существует на пересечении двух начал. С одной стороны, живое человеческое присутствие, эмоциональный резонанс, телесность

актёра, то, что можно обозначить как «дух». С другой стороны, структурированность сценического пространства, драматургическая композиция, визуальные и звуковые алгоритмы, работа с цитатами и цифровыми знаками, то есть «код». Взаимодействие этих двух категорий формирует новый театральный язык.

Спектакль Дины Жумабаевой «Гамлеттің соңғы күндері…» («Последние дни Гамлета...»), поставленный на сцене Государственного академического театра для детей и юношества имени Г. Мусрепова, представляет собой показательный пример подобного театрального мышления. Классическая трагедия Шекспира здесь становится основой для современного сценического эксперимента, в котором традиционный сюжет вступает в диалог с эстетикой постдраматического и визуально ориентированного театра.

Образ Гамлета в постановке Д. Жумабаевой далёк от традиционного романтического героя. Он представлен как человек, находящийся в состоянии внутреннего разрыва, одиночества и недоверия к окружающему миру. Такой Гамлет близок современному зрителю, особенно молодому поколению, для которого характерны сомнение, ощущение несправедливости и утрата устойчивых ценностных ориентиров.

Использование перевода Хамита Ергалиева сохраняет философскую глубину шекспировского текста, но в сочетании с современной сценической формой создаёт эффект контраста между словом и визуальным рядом. Текст здесь работает как носитель духа, в то время как сценическая форма – как код, который трансформирует его восприятие.

Спектакль отказывается от линейного и психологически «удобного» повествования. Вместо этого зрителю предлагается фрагментированная, динамичная структура, в которой смысл рождается не только из слов, но и из визуальных и телесных знаков.

Одним из ключевых элементов спектакля является сценография. Красные ковры, свисающие сверху, формируют замкнутое пространство, напоминающее стены крепости или лабиринт. Этот образ можно интерпретировать как символ социального и психологического алгоритма, в котором существуют персонажи. Ковры одновременно отсылают к традиции и выступают как знак ограничения свободы.

Красный цвет в спектакле приобретает многозначный характер. Он ассоциируется с кровью, насилием, страстью и внутренним напряжением. Таким образом, цвет становится частью кода, который постоянно воздействует на зрительское восприятие, усиливая эмоциональное напряжение.

Музыкальные и визуальные цитаты из массовой культуры, включая использование популярной музыки, создают эффект узнаваемости и вовлечённости. Это не просто стилистический приём, а элемент цифрового мышления, где разные культурные коды сосуществуют в одном пространстве.

Особое место в спектакле занимает образ Горацио. В классической трактовке он является верным другом Гамлета и свидетелем трагедии. В интерпретации Жумабаевой этот персонаж приобретает иную функцию. Он становится фигурой наблюдателя, «тихого игрока», чьё присутствие ощущается как скрытый механизм, влияющий на ход событий.

Горацио почти не проявляет эмоций, его действия минимальны, однако световые акценты и мизансцены постоянно возвращают внимание зрителя к его фигуре. Таким образом, персонаж превращается в своеобразный алгоритм трагедии – код, который не действует напрямую, но определяет структуру происходящего.

Финал спектакля, в котором Горацио остаётся в живых, усиливает ощущение тревоги. Его выживание воспринимается не как надежда, а как вопрос: кто на самом деле управляет трагедией — люди или безличные механизмы?

В спектакле Дины Жумабаевой «Гамлеттің соңғы күндері…» классический текст вступает в диалог с цифровой и постдраматической эстетикой. Технологические и визуальные решения не подменяют живую природу театра, а, напротив, подчёркивают её уязвимость и силу. Гамлет в этой постановке – не герой прошлого, а современный человек, оказавшийся внутри сложной системы знаков, правил и ожиданий.

## Список использованной литературы


1. William Shakespeare. *Hamlet*. — London: Arden Shakespeare, 2006.
2. Hans-Thies Lehmann. *Postdramatic Theatre*. — London: Routledge, 2006.
3. Patrice Pavis. *Analyzing Performance: Theater, Dance, and Film*. — Ann Arbor: University of Michigan Press, 2003.
4. Erika Fischer-Lichte. *The Transformative Power of Performance: A New Aesthetics*. — London: Routledge, 2008.
5. Хамит Ергалиев. *Гамлет* (перевод трагедии У. Шекспира на казахский язык). — Алматы: Жазушы, 1983.

**Raya Əli Şərif**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,*
*Teatr rejissoru ixtisası, Bakalavriat*

## Məcruh və kod

**Xülasə:** Bu məruzə müasir teatrda texnologiya və xüsusilə Web 2.0 düşüncə modelinin təsiri fonunda baş verən transformasiyaları tənqidi aspektdən təhlil edir. Teatr 2.0 anlayışı yalnız texnoloji yenilənmə kimi deyil, həm də sənətin mahiyyətinə mümkün müdaxilə kimi dəyərləndirilir. Məruzədə transformasiya ilə mutasiya arasındakı fərq qabardılaraq, texnologiyanın sənətə inteqrasiyasının onun daxili təkamülündən doğub-doğmadığı sualı qoyulur. Süni intellektin dramaturgiya, tamaşaçı davranışı və səhnə estetikası üzərində təsiri, Adornonun "mədəniyyət sənayesi" konsepsiyası çərçivəsində analiz edilir. Eyni zamanda, texnologiyanın marketinq və menecment sahəsindəki müsbət rolu qəbul edilərək, onun yaradıcı prosesdə dominant alətə çevrilməsinin riskləri vurğulanır. Məruzə nəticə olaraq teatrın etik və estetik prinsiplərinin qorunması şərti ilə texnologiyaya balanslı yanaşmanın vacibliyini irəli sürür.
***Açar sözlər:*** *Teatr 2.0, süni intellekt, mədəniyyət sənayesi, dramaturgiya, tamaşaçı davranışı, texnologiya və incəsənət, teatr etikası, rəqəmsal transformasiya.*

## The Wounded and the Code

**Abstract:** This paper critically examines the transformations in contemporary theatre under the influence of technology, particularly the Web 2.0 paradigm. Theatre 2.0 is approached not merely as technological innovation, but as a potential intervention in the essence of art. The study distinguishes between transformation and mutation, questioning whether technological integration emerges from the internal evolution of theatre or from external imposition. The impact of artificial intelligence on dramaturgy, audience behavior, and stage aesthetics is analyzed through the lens of Adorno's concept of the "culture industry." While acknowledging the constructive role of technology in marketing and management, the paper highlights the risks of its dominance in the creative process. It ultimately advocates for a balanced approach that preserves the ethical and aesthetic integrity of theatre.
***Keywords:*** *Theatre 2.0, artificial intelligence, culture industry, dramaturgy, audience behavior, technology and art, theatre ethics, digital transformation.*

## Раненый и код

**Резюме:** В данной работе проводится критический анализ трансформаций современного театра под влиянием технологий, в частности парадигмы Web 2.0. Театр 2.0 рассматривается не только как технологическое обновление, но и как возможное вмешательство в сущность искусства. Особое внимание уделяется различию между трансформацией и мутацией, а также вопросу о том, является ли интеграция технологий результатом внутренней эволюции театра или внешнего воздействия. Влияние искусственного интеллекта на драматургию, поведение зрителя и сценическую эстетику анализируется в контексте концепции «индустрии культуры» Адорно. Признавая положительную роль технологий в сфере маркетинга и менеджмента, автор подчеркивает

риски их доминирования в творческом процессе. В заключение выдвигается идея необходимости сбалансированного подхода при сохранении этических и эстетических принципов театра.
***Ключевые слова:*** *Театр 2.0, искусственный интеллект, индустрия культуры, драматургия, поведение зрителя, технологии и искусство, театральная этика, цифровая трансформация.*

Rəvayətə görə, antik bir imperiyada kartoqrafiya sənəti o dərəcə inkişaf edir ki, orada imperiyanın hüdudları ilə tamamilə eyni ölçüdə olan bir xəritə yaradılır. Gəl gör ki, zaman keçdikcə, xələf nəsillər dərk edirlər ki, bu xəritə tamamilə işləksizdir. Zira, bu halı ilə xəritə artıq nəinki yolu göstərmək üçün bir vasitə olmaqdan çıxıb, o öz əzəməti ilə mahiyyətin özünü gizlədən bir örtüyə çevrilib (Jorge Luis Borges, 1946; Lewis Carroll, 1870). Bu pritça müasir teatr müstəvisinə proyeksiya edilmək üçün olduqca əlverişlidir. Aşkardır ki, vətənimiz Teatr İmperiyası da əsla vaxt itirmədən, gərək zərurətdən, gərək rəqabətdən özünün 2.0 adlı nəhəng bir xəritəsinin quruculuğuna qədəm qoyub. Artıq bir sıra mülahizələrdə bu proses təşəkkül, innovasiya və ya modernləşmə kimi təqdim olunsa da, dərindən müşahidə etdikdə bu transformasiyanın məğzi ilə bağlı tərəddüdlər üzə çıxır. Transformasiya formanın təkamülüdür və öz daxilində mahiyyətin davamlılığını ehtiva edir. Bu halda Web 2.0 düşüncə modelinin teatr sənətindəki analoqunu həqiqətən transformasiya kimi qiymətləndirmək olar, yoxsa bu daha çox transformasiya libasına bürünmüş bir mutasiya örnəyidir? Teatr 2.0-ın dayanaq nöqtəsi sənətin mahiyyətcə təkamülüdür, yoxsa kənar texnoloji müdaxilədən doğan bir struktur dəyişikliyi? Bu sualların fonunda bu modelə münasibətimi nə hanısa doqmatik “yox”la, nə də heyranlıq ritorikasına, “yenilik naminə yenilik” eyforiyasına qapılmış şərtsiz “hə” ilə ifadə etməyin tərəfdarıyam. Web 2.0-ın teatr sahəsinə transferi mənim üçün nə qaladakı şahzadəni xilas etməyə gələn yaraşıqlı prinsdir, nə də ağzından od püskürüb, hər şeyi kül edəcək əjdaha, yəni nə mütləq xilaskar, nə mütləq qəsbkar. Şübhəsiz, biz yeniliyə yalnız müqavimət göstərərsək, aktuallılıq dalğamızdan uzaq düşürük, digər tərəfdən sırf təqdiranə mövqedə dayandıqda isə tənqidi təfəkkürümüzü iflic edirik. Təəssüflə qeyd etməliyəm ki, müasir mədəni diskursda orta yolu axtaran, riskləri analiz etməyə çalışan və açıq masa ətrafında rasional müzakirə tələb edən intellektual sayıqlıq da çox vaxt “mühafizəkarlıq” kimi qələmə verilir. Teatr haqqında çox məşhur iki aksiom var ki, artıq şablonlaşsa da, bugünkü mənzərəni anlamaq üçün bizə kifayət edəcək ən etibarlı və konseptual vasitələrdir: “Tamaşa ruhun qidasıdır” və “Teatr canlı orqanizmdir”. Əgər tamaşa ruhun qidasıdırsa, şübhəsiz bugün teatra təqdim olunan menyudakı təamlar teatra da yaddır. Əgər teatr da canlı bir orqanizmdirsə, normal şərtlərdə bütün digər bioloji sistemlərdə olduğu kimi, bu yad maddəni ya həzm etməli, yəni sənətin süzgəcindən keçirib özününküləşdirməli, ya da kənarlaşdırmalıdır. Hansı ki, tarix də bizə eynən bunu göstərir; sənət sahəsindəki ən sarsıdıcı böhranlar innovasiyanın özündən deyil, yaranması ilə tətbiqi arasındakı konseptual həzm prosesinin yoxluğundan doğub. Bəşər olaraq, əksərən geri qalmaq qorxusu ilə təklifləri qavramadan, yalnız mövcud tendensiyaları kor təbii təqlid etməklə “o əjdahadan bizdə də var” demək üçün meydana qaçırıq. Bu böyük oyunun sadəcə xırda piyonları olaraq, öncədən müəyyən olunmuş hərəkət trayektoriyamız üzrə irəliləyirik. Halbuki, üzərində dayanmalı olduğumuz ilk sual budur: bu proses nəyə və kimlərin marağına xidmət edir? Suala Adornonun “mədəniyyət sənayəsi” konsepsiyası kontekstində cavab versək sözsüz ki, texnoloji nəhənglərin kapital genişləndirmə cəhdləri bütün digər sahələrə olduğu kimi incəsənətə, bilavasitə teatra da təsirsiz ötüşməyəcəkdi. Biz kapitalizmin köləsinə bir anda və səbəbsiz çevrilmədik. Bu

proses ehtiyac ilə istək arasındakı incə tarazlığın pozulması ilə başladı. Məhz bu nöqtədə bazar mexanizmi öz satışı üçün insanın ən zəif düşüncələrinə nüfuz etmə bacarığını nəinki inkişaf etdirdi, hətta bu bacarığın özünü belə "bazar manipulyasiyası" başlığı altında yenə bizə satdı. Bizə necə köləyə çevrildiyimiz elə bir formada etiraf edildi ki, bu köləlikdən necə xilas olaq düşüncəsi gündəmə belə gəlmədi, əksinə bu formulu başqalarını da bizim bazarımıza kölə etmək yolunda sərf etdik. Bu manipulyasiyanın ən başlıca xüsusiyyətlərindən biri funksional olaraq məhsullar arası minimum fərqin belə, həyati dönüş nöqtəsi kimi nümayişidir. Vədlər şişirdilir və "yenilik" qaçılmazlıq kimi təqdim olunur. Hazırda teatr sahəsində də eyni gedişat müşahidə olunur. Süni intellektin alətləri "tamaşaçını passiv müşahidəçilikdən azad etmək", "tamaşaçı reaksiyasının proqnozlaşdırılması", "dramaturji mətnlərin ilkin analizi" başlıqları altında hətta süni intellekt tərəfindən yazılmış "pyes"lərin səhnələşdirilməsi səviyyəsinə qədər çatıb. Elə bu? Xeyr. Məsələnin bir qədər ironik tərəfi də öz mətbəximizdə gizlənib. Müasir teatr mütəxəssisi etiraf edə bilərmi ki, bugün texnologiyanın imkanlarını əsla sığınacaq kimi yox yalnız və yalnız seçim kimi istifadə edir? Çünki süni intellektin ifadə vasitələri, bacarıqsızlıq müqabilində ən mükəmməl gizlənmə yeri ola bilər. Aktyorla işləyə bilməyən, tamaşanın ağrısını ötürə bilməyən bir rejissor üçün, bütün vizual effektlər bir baxıma ən yaxşı kompensasiyadır. Aktyor həyatının özülü olan psixotexnikanın qəsdli və ya qəsdsiz şəkildə təhrif olunub tamaşada saxta temporitm yaradılması cəhdi, bilavasitə tamaşaçının intellektual qavrayışının belə xəfifə alınması fonunda bu yeniliyi sorğulamaq çox təbiidir. Bununla belə, texnologiya və süni intellektin marketinq, menecment və bu kimi sahələrdəki rolunu inkar etmək qeyri-mümkün olduğu kimi, bunun teatr üçün də labüd bir ehtiyac olduğunu etiraf etmək lazımdır. Biz smartfonlar dövründəyik və teatrın sosial platformalarda hədəf kütləni düzgün seçən alqoritmlərlə təmsil olunması sənət üçün mühüm bir addımdır. Təbii ki, burada da yaradıcıların yol verdiyi fundamental bir xəta var ki, bu da adətən reklamı özündən böyük tamaşalarla qarşılaşmağımıza yol açır. Artıq yaradıcı öz şah əsərinin auditoriya tərəfindən qiymətləndirilməsini zamanla formalaşan bir prosesə təslim etmir. Tamaşanın dəyərini özü əvvəlcədən təyin edir, bu dəyəri marketinq strategiyaları ilə "şedevr" kimi təqdim edir, yüksək təqdim edilmiş bir tamaşanın gözləntisi də auditoriya tərəfindən təbii olaraq yüksək olur. Bəlkə ilk baxışda çox məsum kimi görünən bu sistemin də riski ondan ibarətdir ki, tamaşanın həmin yüksək gözləntiləri ödəmədiyini hiss etdikdə, öz obyektiv qavrayışından əsassız olaraq şübhə duymağa başlayan tamaşaçı, qarşısına qoyulan görkəmli amma mənasız bir tamaşaya fikir bildirməyə çəkinir və yaradıcıların himayəsində təhlükəsiz axın zonasına doğru yönəlir. Unutmaq olmaz ki, teatr mövcudiyyətinin ali məqsədi insana insanlığı öyrətmək yolunda xidmət etməkdir. Bu həqiqət aşkar olduğu təqdirdə, günün sonunda tamaşaçı və teatr arasında qarşılıqlı inam və hörmətə xələl gətirmək belə olsa, kommersiya məqsədi ilə tamaşaçı hiss və düşüncələrini, gözlənti və qənaətlərini süni şəkildə formalaşdırmaq teatrın etik prinsiplərinə və sənət əxlaqına ziddir. Bu mövzuda qızıl ortanın vacibliyini vurğulayaraq daha bir ehtiyat tələb edən məsələyə nəzər yetirək. Hər halda, Karel Çapek təxminən 100 il əvvəl "R.U.R" pyesində "robot" anlayışını bizə qazandırdığı zaman, həmin robotun bir gün onun da əlindən qələmini alacağını təxmin etməliydik. Dramaturqun öz ilhamını həyatdan, süni intellektin isə digər hazır mətnlərdən aldığı düşünüldükdə, dramaturq sayəsində sənəti həyatın simulyasiyasına çevirən bu tamaşalar, süni intellekt sayəsində sənəti simulyasiyanın simulyasiyasına çevirir. Bodriyarsayağı bu qısa anons, rəqəmsal diktaturanın sənəti tədricən həyat həqiqətindən bir addım da uzaqlaşdırdığını qavramağa kifayət etsə də, müəllifi süni intellekt olan bu pyeslərin hazırda dünya teatr bazarında çox yüksək qiymətləndirilməklə bərabər, ABŞ, Böyük Britaniya, Çexiya və s. kimi ölkələrin müxtəlif

teatrlarında artıq öz səhnə həyatını tapmış olması da qəribə bir paradoksdur. (“AI: When a robot writes play” Svanda Theatre, 2021; “AI” Young Vic Theatre, 2021) Fikrimi tam lokallaşdırmadan, xüsusən bizim kimi tərcümə infrastrukturu zəif olan mühitlərdə bu məsələyə daha həssas yanaşılmasından yana olduğumu qeyd etməliyəm. Hələ də, dünya dramaturgiyasının əhəmiyyətli bir hissəsi dil bariyeri səbəbindən bizim səhnəyə çıxmamışkən, bu yaradıcı boşluğu süni alqoritmlərə həvalə etməyə qarşı bu böyük həvəs sual doğurur. Əgər məqsəd həqiqətən repertuar zənginliyidirsə, əvvəlcə prioritetlərin təyini istiqamətində addımlar atılmalıdır. Niyə texnologiya ilk növbədə tərcümə sistemlərini gücləndirməyə, dramaturq və tərcüməçilərin əməyini sürətləndirməyə və motivasiyalarını yüksəltməyə yönəlmir? Niyə bu alət insanın işini asanlaşdırmağa yox, mütləq insanın yerini almağa kodlanıb? “Tamaşaçı davranışının proqnozlaşdırılması” təklifinin irəli sürdüyü mətləblərlə də tanış olduğumuz zaman, tamaşaçı reaksiyasını statik modelə çevirən sistemlərin ilk baxışda idarəetmə rahatlığı və iqtisadi sabitlik vəd etdiyini görürük. Fəqət, bu yanaşma, xüsusilə mərkəzdən kənar, sosial və iqtisadi yükün daha ağır olduğu mühitlərdə də eyni nəticələri doğuracaqmı? Şübhəsiz, belə məkanlarda tamaşaçı çox zaman gündəlik həyatın təzyiqlərindən qısa müddətli qaçış axtarır və təbii olaraq nisbətən “yüngül” hesab olunan janrlara üstünlük verir. Bu seçim tamamilə anlaşılandır. Bəs əgər alqoritmlər uzun müddətdir mübarizə aparılan bu döngünü dəyişməz norma kimi qəbul edirsə, artıq süni intellekt teatrın janr müxtəlifliyinin genişlənməsinə yox, əksinə onun yaradıcı diapazonunun daralmasına, ən yaxşı ehtimalda mövcud sistemin olduğu kimi təkrarına xidmət edir ki, bu da həmin mühitlərdə risk etmək istəyən, nadirən estetik istiqaməti dəyişməyə cəhd göstərən bir rejissoru əvvəlcədən proqnozlaşdırılmış uğursuzluq etiketi ilə üzləşdirib, onun yaradıcı şövqünün sınmasını, kor-peşman texnoloji meyarlara boyun əyməsini şərtləndirir. Halbuki, sənət sahəsində universallıq iddiası yalnız o zaman qəbul edilə bilər ki, tətbiq olunan prinsip müxtəlif miqyaslı və müxtəlif kontekstli mühitlərdə eyni dərəcədə işləsin. Çağdaş teatr toplumunun ənənəyə istinad edən bu mövqeyə məhəl qoymaması artıq alışılmış haldır. Necə deyərlər, “Ənənəvi teatr və ya irəli-keçmişə doğru”. Hərçənd, mövcud panoramanı zərrəcə müşahidə, bu formulun tamamilə əks istiqamətdə oxunuşuna da imkan verir. Mümkündür ki, bir mədəni sistem uzun müddətli ardıcıl inkişaf trayektoriyası qurmayıbsa, o zaman irəliyə doğru hərəkət məhz itirilmiş mərhələlərin dirçəlməsindən başlasın. Belə çıxır ki, belə mühitlər üçün “keçmişə doğru irəli” ifadəsi heç də ironiya deyil, struktur reallığıdır. Biz hələ də rişxənd etsək də, bəlkə doğurdan iyirmi il irəli getmək üçün, bəzən iyirmi il geri getmək lazımdır? Bu mənada, bəlkə doğurdan “gələnək” və “gələcək” ifadələri arasındakı semantik oxşarlıq təsadüf deyil? Bir tək bu aydındır ki, haqqında danışdığımız bu qədər statistik fakt və ehtimalların sonunda belə, bu mərhələnin nəticələri haqqında qəti fikir bildirmək artıq bizim iradəmizdə deyil. Sadəcə yaşayıb görəcəyik ki, bizim sadəlövh ruhumuzun canlı orqanizmində koda təbii şəkildə yer tapılacaq, yoxsa, nəhayətdə ruhumuz özü bir alətə çevrilib həyatına kodun süni tənəffüs aparatı altında davam edəcək…?

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Adorno, T. W., & Horkheimer, M. (2002). Dialectic of Enlightenment. Stanford University Press.
2. Baudrillard, J. (1994). Simulacra and Simulation. University of Michigan Press.
3. Borges, J. L. (1946). On Exactitude in Science.
4. Broadhurst, S., & Machon, J. (Eds.). (2012). Performance and Technology: Practices of Virtual Embodiment and Interactivity. Palgrave Macmillan.
5. Čapek, K. (1920). R.U.R. (Rossum’s Universal Robots).

6. Carroll, L. (1870). Sylvie and Bruno.
7. Causey, M. (2016). Theatre and Performance in Digital Culture. Routledge.
8. Dixon, S. (2007). Digital Performance: A History of New Media in Theater, Dance, Performance Art, and Installation. MIT Press.
9. Švanda Theatre (2021). AI: When a Robot Writes a Play.
10. Young Vic Theatre (2021). AI.

**Ülkər Ələkbərova**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,*
*Teatr tarixi və nəzəriyyəsi ixtisaslaşması, Magistrant*

## Sənətlərin sintezi: tamaşanın vizual həllində teatr rəssamının rolu

**Xülasə:** Bu məruzədə teatr sənətində rejissor və səhnə rəssamı əməkdaşlığının tarixi inkişafı araşdırılır. XVIII-XIX əsrlərdən başlayaraq, Mayninqen Teatrı kimi nümunələrlə professional tandem formalaşması təhlil olunur. XX əsrdə avanqard cərəyanların təsiri vurğulanır: Kazimir Maleviçin "Günəş üzərində qələbə" operası üçün suprematist dekorasiyaları, Vladimir Tatlinin konstruktivist eskizləri ("Zangezi", "İvan Susanin"), italyan futuristlərin (Cakomo Balla, E. Prampolini) dinamik işıq və forma təcrübələri, Bauhaus məktəbinin (Lotar Şreyer) mistik və funksional modelləri ("Ay oyunu") incələnir. Rəssam Teatrı kontekstində Tadeuş Kantorun psixoloji simvolik tərtibatları ("Odisseyin qayıdışı", "Vyelopole") əks etdirilir. Məruzə rəssamların səhnəni vizual estetik harmoniya kimi yenidən qurduğunu, klassik ənənələri inkar edərək yeni ifadə formaları yaratdığını nəzərdən keçirir. Mövzunun aktuallığı teatr sənətində tətbiq olunan innovativ yanaşmalar və yeni səhnə texnologiyalarının təhlili ilə şərtlənir.
***Açar sözlər:*** *Suprematizm, konstruktivizm, futurizm, rejissor-rəssam əməkdaşlığı, avanqard cərəyanlar.*

### Синтез искусств: роль театрального художника в визуальном решении спектакля

**Резюме:** В данном докладе исследуется историческое развитие сотрудничества режиссёра и сценографа в театральном искусстве. Начиная с XVIII–XIX веков анализируется формирование профессионального тандема на примере Майнингенского театра. В XX веке подчёркивается влияние авангардных течений: супрематические декорации Казимира Малевича к опере «Победа над солнцем», конструктивистские эскизы Владимира Татлина («Зангези», «Иван Сусанин»), динамические эксперименты со светом и формой итальянских футуристов — Джакомо Балла и Энрико Прамполини, мистико-функциональные модели школы Баухаус (Лотар Шрейер, «Лунная игра»). В контексте Театра Художника рассматриваются психологически символические постановки Тадеуша Кантора («Возвращение Одиссея», «Велёполе, Велёполе»). В докладе показано, как художники переосмыслили сценическое пространство в качестве целостной визуально-эстетической гармонии, отказавшись от классических традиций и создав новые формы художественного выражения. Актуальность темы обусловлена анализом инновационных подходов и новых сценических технологий, применяемых в театральном искусстве.
***Ключевые слова:*** *супрематизм, конструктивизм, футуризм, сотрудничество режиссёра и художника, авангардные течения.*

### Synthesis of the Arts: The Role of the Theatre Designer in the Visual Solution of the Performance

**Abstract:** This paper explores the historical development of collaboration between the director and the stage designer in theatrical art. Beginning with the 18th–19th centuries, it analyzes the

formation of the professional tandem through examples such as the Meininger Court Theatre. The influence of avant-garde movements in the 20th century is emphasized: the Suprematist set designs by Kazimir Malevich for the opera Victory over the Sun; the Constructivist sketches by Vladimir Tatlin ("Zangezi," "Ivan Susanin"); the dynamic experiments with light and form by Italian Futurists Giacomo Balla and Enrico Prampolini; and the mystical and functional models of the Bauhaus school (Lothar Schreyer, "Moon Play"). Within the context of the Artist's Theatre, the psychologically symbolic stage designs of Tadeusz Kantor ("The Return of Odysseus," "Wielopole, Wielopole") are examined. The paper considers how artists reconstructed the stage as a space of visual and aesthetic harmony, rejecting classical traditions and creating new forms of expression. The relevance of the topic is determined by the analysis of the innovative approaches and new stage technologies applied in the theatre.
***Keywords:*** *Suprematism, Constructivism, Futurism, director–designer collaboration, avant-garde movements.*

Teatrda uğurlu bir tamaşanın ərsəyə gəlməsi üçün rejissorla səhnə rəssamı arasında qarşılıqlı və məhsuldar əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır. Bu münasibətin tarixi inkişafına nəzər yetirdikdə aydın olur ki, artıq XVIII əsrdə teatr sənətində rəssam əsas aparıcı fiqurlardan biri kimi çıxış etmiş və eyni zamanda səhnə maşinisti funksiyasını da yerinə yetirmişdir: "Orada aparıcı sima olan rəssam həm də səhnə maşinisti idi" [N.Bəykişiyev., 2010, s. 161]. XIX əsrə gəldikdə isə rejissor və rəssam arasında professional əməkdaşlıq münasibətlərinin formalaşmağa başladığını müşahidə edirik. Məhz bu dövrdə Qərbi Avropa teatrında rejissor-rəssam tandemi ilk dəfə real şəkildə təşəkkül tapmışdır. Saks-Mayninqen hersoqu II Corc ilk müasir rejissor kimi tarixə düşmüş, o, teatr fəaliyyətində rəssamlarla sıx əməkdaşlıq etmiş və "Mayninqen Teatr Ansamblı" adlı saray teatr qrupunu təsis etmişdir. Onun rəhbərliyi altında fəaliyyət göstərən teatr kollektivi bir sıra Avropa ölkələrinə qastrol səfərləri etmiş, səhnə əsərlərində isə realizm prinsiplərinə və detallı dəqiqliyə xüsusi önəm verilmişdir. Beləliklə, XIX əsr teatrında rejissor fiqurunun meydana çıxması ilə paralel olaraq, onun teatr sənətində aparıcı və istiqamətverici rolu da tədricən formalaşmağa başlamışdır. Xüsusilə XX əsrdə rejissor–rəssam əməkdaşlığı daha da inkişaf etmiş və teatr sənətində yeni estetik meyillərin formalaşmasında mühüm rol oynamışdır. Bu dövrdə rus avanqard sənətkarlarının təqdim etdiyi səhnə dekorasiyaları xüsusi maraq doğurur. Avanqard rəssamların həm təsviri sənətdə, həm də teatr səhnəsində əsas hədəflərindən biri klassik və köhnə estetik ənənələrin inkarı, onların yerinə yeni formaların və ifadə vasitələrinin tətbiqi olmuşdur. Bu sənətkarlar arasında Kazimir Maleviç (1879–1935) rus avanqardizminin aparıcı nümayəndələrindən biri kimi seçilir. Onun həm rəngkarlığında, həm də teatr səhnəsinə verdiyi tərtibatlarda fərdi üslubu və bədii-estetik baxışları ön plana çıxır. Maleviçin ən məşhur səhnəqrafik işlərindən biri olan "Günəş üzərində qələbə" adlı futurist opera üçün yaratdığı səhnə dekorasiyası və kostyum eskizləridir. Bu opera 1913-cü ildə Rusiyada nümayiş etdirilmişdir. Maleviç bu operanın səhnə dekorasiyası və kostyum eskizlərini işləyərkən özünün "suprematizm" üslubuna xas formalardan və rəng duyumundan istifadə etmişdir. Eyni zamanda, sənətkarın bu operaya verdiyi eskizlər arasında məşhur "Qara kvadrat" əsərinin prototipi olan bir görüntü də yer almaqdadır. Həmin eskizdə arxa fon üçün nəzərdə tutulan kompozisiyada kvadratın yarısı əks olunmuşdur. Bu fakt, Maleviçin məşhur "Qara kvadrat" əsərinin ideya-estetik mənşəyinin məhz teatr sənəti ilə bağlı olduğunu da göstərir: "Maleviçin rəsmində məşhur qara kvadrat görünməzdən

iki il əvvəl onun prototipi “Günəş üzərində qələbə” operasının teatr dekorasiyasında göründü” (Realbasik, 2009).

Məşhur konstruktivistlərdən biri olan Vladimir Tatlinin yalnız rəngkarlıq sahəsindəki fəaliyyəti deyil, həm də teatr sənəti üçün hazırladığı səhnə dekorasiyaları və kostyum eskizləri xüsusilə maraq doğurur. Tatlinin teatrla bağlı əsas işləri sırasında “Çar Maksimilyan” (1911), “İmperator” və “İvan Susanin” (1913), “Xanım Lenin” (1917) və “Zangezi” (1923) tamaşaları qeyd oluna bilər. “Onun 1913-cü ildəki “İmperator” və “İvan Susanin” tamaşaları üçün hazırladığı kostyumlar hərəkətdə olan üçölçülü bir konstruksiya (insan bədəni) üçün nəzərdə tutulmuşdu, statik bir səth üçün deyil” [J.E.Bowlt., 1977, s. 67]. Bu fakt Tatlinin teatr üçün yaratdığı vizual tərtibatlarda bədənin hərəkətini nəzərə alaraq formaların funksional uyğunluğuna xüsusi önəm verdiyini göstərir. Xüsusilə, “İvan Susanin” tamaşası üçün hazırladığı döyüşçü geyimlərinin eskizlərinə nəzər yetirdikdə, bu elementlər daha aydın görünür. Döyüşçülərin pozasında bədən dili və duruşla yanaşı, qərb geyim mədəniyyətinə uyğun döyüş geyimlərinin təsviri də diqqət çəkir. 1923-cü ildə Tatlin futurist şair Velimir Xlebnikovun “Zangezi” adlı pyesinə quruluş vermişdir. “Xlebnikovun əsas qurucu elementi səs olan söz konstruktoruna cavab olaraq Tatlin müxtəlif materiallarla, müxtəlif səth və formalarda toxunulan bir konstruksiya qurmağa çalışdı” (Denner.n.d). Bu tamaşa üçün hazırladığı səhnə dekorasiyası və eskizlərdə konstruktivist üslubun əsas prinsipləri – həndəsi formalar, funksionallıq və texnoloji estetikaya yönəlik yanaşma öz əksini tapmışdır. Tatlin burada səhnə tərtibatında simvolika və estetikadan daha çox formanın funksionallığına və konstruktiv quruluşa üstünlük vermiş, məzmundan çox forma üzərində durmuşdur.

İtalyan futuristlərinin teatr sahəsindəki fəaliyyəti onların yeni vizual ifadə formaları axtarışları ilə sıx bağlı idi. Bu sənətkarlar səhnə məkanında ənənəvi teatr prinsiplərindən imtina edərək, modern və eksperimental yönümlü estetik dəyərlər üzərində qurulan yeni bir vizual dil formalaşdırmağa çalışırdılar. Onların səhnə tərtibatlarında əsasən hərəkətli platformalar, kəskin işıqlandırma effektləri, səsləndirmə vasitələri, eləcə də abstrakt və simvolik məna daşıyan geometrik formalar ön planda yer alırdı. Futurist rəssamların təsviri sənətdəki yenilikçi meylləri və ənənəni inkar edən münasibətləri teatr estetikası kontekstində də əks olunurdu. Bu baxımdan, İtalyan futurizminin öncül nümayəndələrindən olan Cakomo Balla yalnız təsviri sənətdə deyil, eyni zamanda teatr sənətindəki axtarışları ilə də diqqət çəkmişdir. Onun teatr sahəsindəki ən mühüm işlərindən biri 1916–1917-ci illərdə hazırlanan “Atəşfəşanlıq” adlı futurist balet layihəsidir. Əsərin premyerası 1917-ci ildə baş tutmuşdur və musiqisi tanınmış bəstəkar İqor Stravinski tərəfindən bəstələnmişdir. Balla bu səhnə işi vasitəsilə öz rəngkarlığında tətbiq etdiyi əsas vizual elementləri – xüsusilə mexaniki qurğular və abstrakt geometrik strukturları – teatr səhnəsinə köçürmüşdür. Baletin vizual quruluşunda müxtəlifbucaqlı formalardan və dinamik işıq effektlərindən istifadə edilərək tamaşaçının vizual qavrayışına güclü təsir göstərən bir səhnə mühiti yaradılmışdır. Qeyd etmək lazımdır ki, tamaşada ənənəvi anlamda iştirak edən rəqqaslar mövcud deyil və hərəkətlərin yerini işıq, forma və rənglərin dinamikası alır. Səhnədə təqdim olunan fiqurlar isə əsasən qırmızı, yaşıl, bənövşəyi, sarı və göy rəng tonlarında təsvir edilmişdir. E.Prampolininin yaradıcılığına gəldikdə, “O, “səhnəqrafiya” və “teatr bəzək tərtibatı” kimi anlayışlardan imtina etməyə qərar verdi və hər ikisini “səhnə tərtibatı və texnologiyası” ifadəsi ilə əvəz etdi. Bu termin isə rəssamlıqdan daha çox memarlıq və texniki konstruksiyalarla bağlı idi və səhnə məkanını yenilikçi, müasir bir yanaşma ilə təqdim edirdi” [Strożek, P., 2017, s. 13]. Buradan belə nəticəyə gəlmək olar ki, futurist sənətkar E. Prampolini səhnə məkanını sadəcə

dekorativ elementlərlə bəzəməkdən ibarət saymır, onu texniki, funksional və memarlıq baxımından düşünülməsi zəruri olan bütöv bir struktur kimi qəbul edirdi. Onun teatr sənətinə yanaşması yenilikçi, dinamik və konseptual xarakter daşıyırdı. Prampolininin teatr sahəsindəki ən mühüm işlərindən biri Alban Berqin "Tragik Simfoniya" (1944) əsəri üçün hazırladığı səhnə tərtibatıdır. Bu layihədə sənətçi reallıqdan uzaq, abstrakt və simvolik formalarla işləyərək tamaşanın mahiyyətini vizual olaraq ifadə etməyə çalışmışdır. O, kompozisiyada qara üçbucaq və qara bulud təsvirləri vasitəsilə əsərin adında əks olunan "tragiklik" hissini çatdırmağa nail olmuşdur. Tamaşa eskizlərindən birinin aşağı sağ küncündə yerləşdirilən qırmızı ulduz formasındakı fiqur isə "əzilmə" və "ümidsizlik" kimi emosional yüklü məna qatlarını simvollaşdırır. Kompozisiyanın üzərindəki dəmir konstruksiya elementləri isə Prampolininin texnoloji və memarlıq yönümlü yanaşmasının bariz nümunəsi kimi qiymətləndirilə bilər.

Bauhaus məktəbinin əsas xüsusiyyətləri və onun teatr sənətinə dair yanaşmaları nəzərdən keçirildikdə, bu cərəyanın məqsədlərinin səhnə sənətinə inteqrasiyasının nə qədər məntiqli və məqsədyönlü olduğu aydın şəkildə görünür. "Bauhaus məqsədlərinin – yaradıcı elementləri dərindən araşdıraraq bədii-ideal ilə sənətkarcasına-praktiki olanı birləşdirmək, həmçinin "der Bau"un mahiyyətini bütün yönləri ilə dərk etmək – teatr sahəsinə tətbiq olunmasının təbii olduğu aydındır" [W.Gropius., 1924, s. 82]. Bu konseptual yanaşma Bauhaus sənətkarlarının teatrda həm estetik, həm də texnoloji prinsiplərə əsaslanan kompleks bir ifadə forması yaratmaq cəhdlərini əks etdirir. Məktəbin nümayəndələri insan bədəninin hərəkət imkanlarını araşdırmaq və səhnə məkanında bu hərəkətləri stilizə edilmiş, sistemli bir formaya salmaq üçün geometrik formaların vizual gücündən geniş şəkildə istifadə etmişlər. Onlar üçün teatr yalnız emosional təsir vasitəsi deyil, eyni zamanda bədənin, məkanın və obyektlərin qarşılıqlı münasibətinin təcrübə sahəsi idi. Bu baxımdan, mexaniki və texnoloji elementlərin tətbiqi vasitəsilə insan hərəkətini funksional və ritmik bir quruluşa salmaq, Bauhaus teatr konsepsiyasının əsas istiqamətlərindən birinə çevrilmişdir. Beləliklə, bu cərəyanın teatr sahəsindəki fəaliyyəti, formanın məzmunla uzlaşdırıldığı, funksionallığın estetikaya xidmət etdiyi eksperimental bir platforma kimi çıxış etmişdir. "Bauhaus səhnə emalatxanası riyazi dəqiqliklə həyata keçirilən ezoterik (sirli və simvolik məzmunlu) bir proqram ilə səciyyələnirdi. 1921-1923-cü illər arasında bu emalatxanaya rəhbərlik etmiş Lotar Şreyer isə əsasən ruhi və mistik qüvvələrin fiziki formalar vasitəsilə simvolik şəkildə təqdim olunması ilə maraqlanırdı" (Getty Research Institute, 2019). Məlum olduğu kimi, məşhur alman Bauhaus məktəbinin nümayəndələrindən biri olan Lotar Şreyer teatr sənətinə dair baxışlarında səhnənin yalnız vizual forma (dekorasiya) baxımından deyil, eyni zamanda fiziki hərəkət (aktyor oyunu) vasitəsilə mistik qüvvələrin təcəssümünə xidmət etməli olduğunu önə çəkirdi. Bauhaus sənətkarlarının yaradıcılığına xas olan estetik yenilik axtarışları, rənglərin ekspressiv vurğulanması, səhnə quruluşunun dinamik və funksional mahiyyət daşıması bu məktəbin əsas prinsipləri sırasında yer alırdı. Lotar Şreyer də bu bədii-estetik meyarlara əsaslanaraq öz eksperimental teatr modelini formalaşdırmışdır. Onun ezoterik yönümlü teatr layihələrindən biri olan "Ay oyunu" (1923) mistik atmosferin yaradılması baxımından xüsusilə diqqətəlayiqdir. Səhnə eskizində mərkəzi fiqur ay forması daxilində təsvir olunmuş və bu fiqurun Məryəm Ana obrazını simvolizə etdiyi ehtimal edilir. Kompozisiyada həmçinin xaç, göz və müxtəlif geometrik formalar kimi simvolik elementlərə də yer verilmişdir. Rəssamın digər əhəmiyyətli işlərindən biri sayılan "Çarmıxa çəkilmə" (1920) səhnə tərtibatında da oxşar mistik və ruhani mühitin yaradılmasına səy göstərildiyi aydın görünür. Bu eskizdə qara, qırmızı, ağ və yaşıl rənglərdə olan dairəvi və düzbucaqlı formalarla yanaşı, mərkəzdə xaç təsvirinə yer verilməsi

onun simvolizminə xas bir yanaşmanı ortaya qoyur. Ümumilikdə, Şreyerin teatr estetikası simvolik təsvirlərə və ezoterik məna qatlarına əsaslanırdı. Bundan əlavə, Lotar Şreyer səhnə quruluşunda maska istifadəsinə xüsusi önəm vermiş, həm musiqi, həm də ritmin dramaturji quruluşdakı funksional rolunu vurğulamışdır.

XX əsrin ikinci yarısında meydana çıxan "Rəssam Teatrı" konsepsiyası teatr sənətinə və ümumilikdə mədəni həyatın inkişafına mühüm töhfələr vermişdir. Bu teatr anlayışının görkəmli nümayəndələrindən biri polyak sənətkar Tadeuş Kantor (1915-1990) olmuşdur. O, həm təsviri sənət sahəsində, həm də teatr rejissoru kimi sanballı fəaliyyəti ilə yadda qalmışdır. Kantorun teatrla bağlı işlərində məkanın təkcə dekorativ deyil, eyni zamanda simvolik və psixoloji mənalar daşıması diqqət çəkir. Onun tamaşalarında istifadə etdiyi vizual elementlər – "Stulların oturacaqları köhnəlib və sallanır, divarlar dəliklərə doludur, masanın üzəri tozla örtülüb, yaxud ərp bağlayıb, köhnə alətləri pas atıb, hər şey ağarmış, sürtülmüş, çürük, yaxud çirklənmişdir. Məhz bu vəziyyətdə onlar öz kövrəkliyini və zəifliyini, deməli, həm də öz həyatını hansısa yeni intensivliklə aça bilir" [H.T.Leman., 2022, s. 119] – onun səhnə quruluşlarında əsas estetik və fəlsəfi çalar kimi çıxış edir. Kantorun 1944-cü ildə yaratdığı "Odisseyin qayıdışı" adlı səhnə eskizi bu baxımdan diqqətəlayiqdir. Səhnədə İkinci Dünya müharibəsinin yaratdığı sosial-mədəni çöküşü və ruhi boşluğu əks etdirən bir atmosfer yaradılmışdır. Odissey obrazı burada klassik mifik qəhrəman kimi deyil, müharibənin təsirinə məruz qalmış bir alman əsgəri obrazında təqdim olunur. Eskizdə iki insan fiquru təsvir olunmuşdur: biri oturmuş vəziyyətdə, digəri isə ayaq üstə və şlyapalı halda dayanır. Dekor elementlərinə ikinci dərəcəli yer verilmiş, əvəzində dövrün ruhunu və duyğusal yüklənməsini ön plana çəkmişdir. Digər nümunə isə Kantorun rejissorluğunu etdiyi və 23 iyun 1980-ci ildə premyerası baş tutmuş "Vyelopole, Vyelopole" tamaşasına aid eskizlərdir. Bu vizual eskizlərdə əsasən araba təsviri, otaq daxilində çarmıxa çəkilmiş oğlan əsgər, yarıçılpaq qadın fiquru, köhnə stul və kəllə sümüyü kimi simvolik obrazlara yer verilmişdir. Xüsusilə yarıçılpaq qadın burada kamera qarşısında təsvir olunmuşdur. Bu eskizlər Kantorun uşaqlıq xatirələri və nostalji duyğuları ilə zəngin olan rəssamlıq üslubunu xatırladır və onun teatr sənətinə fərdi, avtobioqrafik bir qat gətirdiyini göstərir.

Avanqard rəssamlar arasında yalnız Kazimir Maleviç deyil, eyni zamanda Vasili Kandinski də mühüm yer tutur. Konstruktivizm cərəyanının nümayəndələrindən El Lissitszki, italyan futuristlərdən Fortunato Depero, Bauhaus məktəbinin təmsilçilərindən Oskar Şlemmer və Lazlo Moqoli-Nad da səhnəqrafiya sənətinin inkişafına əhəmiyyətli töhfələr vermişlər. Bundan əlavə, Rəssam Teatrı istiqamətində fəaliyyət göstərən Yozef Şayna, Piter Şuman, Achim Frayer, Robert Uilson və Leszek Mondzik kimi sənətkarlar da səhnəqrafiyanın konseptual və vizual imkanlarını genişləndirmişlər. Ümumilikdə belə nəticəyə gəlmək mümkündür ki, "Rəssam teatrı" cərəyanının nümayəndələrinin, eləcə də rus avanqardı, italyan futuristləri və alman Bauhaus məktəbinə mənsub sənətkarların rəssamlıq fəaliyyətinin onların teatr sahəsindəki işlərinə dərin təsir göstərdiyi müşahidə edilir. Bu sənətkarlar səhnəni təkcə dramatik məkan kimi deyil, eyni zamanda rəng, forma və plastikanın estetik harmoniyası kimi düşünərək teatr məkanını vizual cəhətdən də yenidən qurmuşlar.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Bowlt, John E. (1977). Constructivism and Russian stage design 1880-1930. Performing Arts Journal, 1, 3, 62-84.

2. Denner, M. (n.d.). Zangezi: Introduction and Tatlin's Stage Design. URL: https://max.mmlc.northwestern.edu/mdenner/Drama/plays/zangezi/TMP965235067.htm (Müraciət tarixi: 15.02.2026)
3. Getty Research Institute, 2019. URL: https://www.getty.edu/research/exhibitions_events/exhibitions/bauhaus/new_artist/body_spirit/theater (Müraciət tarixi: 15.02.2026)
4. Gropius, W. (Red.). (1961). The theater of the Bauhaus. Tərcümə: Arthur S. Wensinger. Middletown: Wesleyan University Press. (Orijinal əsər 1924-cü ildə nəşr olunub).
5. Hans-tis Leman. Postdramatik teatr kitabı.Tərcümə: Fəridə Cəlilova. Bakı: ADMİU-nun Nəşriyyatı, 2022
6. Nazim Bəykişiyev.Rəssamın rejissorla iş birliyi.// Musiqi dünyası. № 1-2.- 2010.- S.161.
7. Realbasik. (2009). Опера "Победа над солнцем" и прообраз "Черного квадрата" Казимира Малевича. URL: https://realbasik.livejournal.com/37424.html (Müraciət tarixi: 15.02.2026)
8. Strożek, P. (2017). Enrico Prampolini: Futurism, Stage Design and the Polish Avant-Garde Theatre. URL: https://msl.org.pl/sites/msl/files/prodykty/PRAMPOLINI_an.pdf (Müraciət tarixi: 15.02.2026).

**Dinara Sagıngaliyeva**
*Temirbek Jurgenov Adına Kazak Ulusal Sanat Akademisi,*
*Tiyatro Eleştirmenliği Bölümü, Lisans*

# Çağdaş Kazak Yönetmenliğinin Gelişimi (Farhat Moldagali Üzerinden)

**Özet:** Bu makalede çağdaş Kazak tiyatro rejisörlüğünün gelişimi Moldağali Farhat Erlanulı'nın yaratıcı faaliyetleri üzerinden incelenmektedir. Çalışmanın amacı, genç rejisörün sanatsal arayışlarını ve Kazak tiyatro sanatına katkısını analiz etmektir. Araştırmada tarihsel-karşılaştırmalı ve teorik analiz yöntemleri kullanılmıştır. Makalede rejisörlüğün sanatsal doğası, ulusal tiyatrodaki gelişim süreci ve Farhat Moldağali'nin sahneleme özellikleri ele alınmaktadır. Sonuç olarak, rejisörün eserlerinde klasik ile çağdaş estetiğin sentezi, müziksel uyum ve sahne dili bütünlüğünün önemli yer alacağı belirlendi. Bu bağlamda, F. Moldağali'nin eserleri çağdaş Kazak tiyatrosunun gelişiminde önemli bir yer tutmaktadır.
***Anahtar kelimeler**: tiyatro estetiği, saundrama, müziksel uyum, sahne dili, karakter psikolojisi, ulusal tiyatro, rejisörlük sanatı.*

## Çağdaş qazax rejissorluğunun inkişafı (Farhat Moldagalinin yaradcılığı əsasında)

**Xülasə:** Bu məqalədə çağdaş Qazax teatr rejissorluğunun inkişafı Moldagali Farhat Erlanulının yaradıcılıq fəaliyyəti üzərindən incələnir. Tədqiqatın məqsədi gənc rejissorun bədii axtarışlarını və Qazax teatr sənətinə töhfəsini təhlil etməkdir. Araşdırmada tarixi-müqayisəli və nəzəri analiz metodlarından istifadə olunmuşdur. Məqalədə rejissorluğun bədii təbiəti, milli teatrda inkişaf prosesi və Farhat Moldagalinin səhnələşdirmə xüsusiyyətləri nəzərdən keçirilir. Nəticə olaraq, rejissorun əsərlərində klassik ilə çağdaş estetikanın sintezi, musiqili uyğunluq və səhnə dili bütövlüyünün mühüm yer tutduğu müəyyən edilmişdir. Bu kontekstdə, F. Moldagalinin əsərləri çağdaş Qazax teatrının inkişafında mühüm yer tutur.
***Açar sözlər**: teatr estetikası, saundrama, musiqili uyğunluq, səhnə dili, xarakter psixologiyası, milli teatr, rejissorluq sənəti.*

## The Development of Contemporary Kazakh Directing (Through the Case of Farhat Moldagali)

**Resume:** This article examines the development of contemporary Kazakh theatre directing through the creative work of Moldagali Farhat Erlanuly. The aim of the study is to analyze the artistic approaches of the young director and his contribution to Kazakh theatre. Historical-comparative and theoretical analysis methods are employed in the research. The article explores the nature of directing as an art form, the development of national theatre, and the staging features of Farhat Moldagali's productions. As a result, it is determined that the director's works are characterized by the synthesis of classical and contemporary aesthetics, musical harmony, and the integrity of stage language. In this context, F. Moldagali's plays a significant role in the development of contemporary Kazakh theatre.
***Keywords:** theatrical aesthetics, sound drama, musical harmony, stage language, character psychology, national theater, art of directing.*

Genel olarak rejisörlük sanatı yalnızca estetik, eğitsel ve duygusal işlevleri yerine getirmekle kalmayıp, halkın kaderiyle birlikte bireyin yaşam etkinliğini de ustalıkla tasvir eder.

Eski dönemlerde bu görevin şairlerin, ozanların ve hatiplerin elinde olduğu bilinmektedir. Demek ki günümüzde rejisörün çok yönlü olması zamanın gereğidir. Bir yapımı yalnızca sahneye koymak yeterli değildir; rejisör, iç sezgisinde bulunan düşünceyi duygu aracılığıyla sanatsal imgeye dönüştürerek onu sahne diliyle etkileyici biçimde aktarabilmelidir. Karp'ın "Yönetmenliğin Temelleri" kitabında şöyle deniyor: «Yönetmen, filmi( teatro eseri) yaratan kişi, yani düşüncelerini samimiyetle paylaşmaya çalışan insandır.»[1]. Yani, bu bağlamda yönetmen, kendi düşüncesini sahnede estetik bir şekilde gösteren bir kişi olarak tanımlansa yanlış olmaz.

Ülkemize Avrupa sanatı temelinde gelen rejisörlük bugün çok yönlü olarak gelişmektedir. "Zamanına göre insanı" ilkesini esas alarak her dönemin kendi rejisörlerinin bulunduğunu söylemek mümkündür. Her devrin sanatçıları kendi zamanlarının güncel meselelerini gündeme getirerek bunu tiyatro seyircisine ulaştırmayı başarmıştır. Ulusal tiyatro sanatına sadakatle hizmet eden A. Tokpanov, Ä. Mämbetov, B. Omarov, M. Bayserkenov, Q. Jetpisbayev gibi rejisörlerin yaratıcılığı ulusal rejisörlüğün profesyonel düzeyini yükseltmiş ve yeni yönelimlere yönelmesine etki etmiştir.

Tiyatro sürekli hareket hâlinde olan kültürel bir mekândır. Bu sürecin kesintisiz devam etmesi, tiyatro sanatı yolundaki uzmanların mesleki sorumluluğuyla yakından bağlantılıdır. Tiyatroyu dünya düzeyine yükseltmek yalnızca bir misyon değil, manevi bir görev olarak kabul edilmelidir. Çünkü seyirciye düşündürücü sanatsal eserler sunmak rejisör yaratıcılığının temel amaçlarından biridir.

M. Äuezov adını taşıyan Edebiyat ve Sanat Enstitüsünün "Tiyatro ve Sinema" bölüm başkanı, tanınmış tiyatrobilimci Amangeldi Mukan rejisörlüğün doğası hakkında şöyle belirtmektedir: "Rejisörlük, kaba güç ve azme boyun eğmeyen ince ve narin bir maddedir. O, bilgi ve yetkinliğe, keskin hayal gücüne dayanan sanatçının entelektüel düzeyini gösterir" [2]. Gerçekten de rejisörlük için bilgi ve kesintisiz arayış son derece önemlidir. Bu alan, felsefi derinlikle düşünmeyi gerektiren karmaşık bir yaratıcı mekândır.

Tiyatronun sanatsal yönünü belirleyen rejisörlük kurumunun oluşmasının üzerinden yaklaşık yüz yıl geçmiştir. Bu dönemde sahne sanatının gelişimine önemli katkı sağlayan rejisörler ulusal tiyatro tarihinde silinmez iz bırakmıştır. Günümüzde bu sentez sanatını sürdüren tiyatro insanları yeniliğe yönelerek seyirciye yeni bir soluk getirmeyi amaçlamaktadır. Rejisörlük kalitesinin artması tiyatro sürecinin kesintisiz gelişiminin göstergesidir. Demek ki ülkemizin tiyatro rejisörlüğü gelecekte de yeni zirveleri fethetmeye devam edecektir.

Çağdaş Kazak tiyatro sanatındaki genç rejisörler arasında Moldağali Farhad Erlanulı özellikle anılabilir. O, 1993 yılında Semey bölgesinin Abıralı yöresindeki Kaynar köyünde doğmuştur. Tanınmış tiyatro rejisörü ve pedagog Maman Bayserkenov'un öğrencisi olan Farhad, 2011–2016 yılları arasında T. Jürgenov adını taşıyan Kazak Ulusal Sanat Akademisinde mesleki eğitim almıştır. Babasının sanata olan ilgisi genç adayın yaratıcı yola gelmesine etki etmiştir. Çocukluğundan itibaren şarkı söylemekle, dombra ve piyano çalmakla meşgul olan o, akademi duvarları içinde tiyatro sanatıyla derin biçimde tanışmıştır.

Genç rejisör yaratıcı yoluna Kuzey Kazakistan'daki S. Mukanov adını taşıyan Kazak müzikli-drama tiyatrosunda sahneleyici rejisör olarak başlamıştır. Daha sonra Almatı şehrine gelerek yaratıcı imkânlarını genişletmiştir. Bugüne kadar sahnelediği спектакller arasında "Allo, mama...", "Jan dauısı", "Jılımıq", "Qorğansızdıñ küni", "Altaydan auğan el", "Qaragöz", "Qulager", "Bolmağan balalıq şağ", "Apalı-siñili üşeü", "№37" ve diğer eserler bulunmaktadır.

Yaratıcı yolunun başlangıç döneminde rejisörün başlıca hayallerinden biri dünya klasiğini sahnelemek olmuştur. Son sınıfta Tacik rejisör Barzu Abdurazzakov ile yapılan uygulamalı dersler onun rejisörlük düşünce sisteminin oluşmasına etki etmiştir. Diploma çalışması olarak sunulan "Allo, mama..." yapımında çağdaş toplumdaki anne ile çocuk arasındaki ilişki teması sanatsal açıdan açımlanmıştır.

2017 yılında genç rejisör "StarTDrama" laboratuvarını kurarak "Burqasıñ 86" спектаклini sahneye çıkarmıştır. Yapımda Aralık olayını gündeme getirerek tarihsel hafıza meselesi ele alınmış ve seyirciye derin düşünce sunulmuştur. Hocası Maman Bayserkenov'dan aldığı yurttaşlık pozisyonu anlayışı onun yaratıcı yönünün oluşmasına etki etmiştir.

Günümüzde F. Moldağali özgün imzasını oluşturmuş olup yeni projeler üzerinde çalışmaktadır. Eserleri "Daryn" Devlet Gençlik Ödülü ve Birinci Cumhurbaşkanı Vakfı ödülüyle değerlendirilmiştir. Saundrama türünde sahnelenen "Qulager" спектаклi rejisörün yaratıcı arayışının sonucu olarak özellikle belirtilmelidir. Bu yapım A. Çehov adını taşıyan uluslararası festivale katılmış ve yüksek değerlendirme almıştır.

F. Moldağali'nin rejisörlük özelliklerinden biri saundrama türünde müzikal uyuma özel önem vermesidir. "Qaragöz" ve "Qulager" yapımlarında eylem ile müziğin armonisi sanatsal çözümün temel eksenine dönüşmüştür. Rejisör tiyatroyu insanı tanıma mekânı olarak değerlendirerek karakterin varlığını yeni bir yönden açmaya çabalamaktadır. Onun görüşüne göre günümüz seyircisinin estetik beğenisi yüksektir, bu nedenle tiyatro ile seyirci düzeyi birlikte gelişmelidir.

Oyuncularla çalışma sürecinde rejisör eserin içeriğine derinlemesine nüfuz etmeye özel dikkat göstermektedir. Rejisörün kendisi esere ilgi duymadığı takdirde oyuncuyu da yaratıcı arayışa yöneltemeyeceğini temel ilke olarak benimsemektedir. İç duygu ve samimi ilgiden doğan yapım ancak seyirciye etkileyici olacaktır. Genç rejisörün yaratıcı gelişim yolunda yeni zirvelere ulaşacağına güven tamdır.

Kazak opera sanatının altın fonuna giren "Abay" operası ulusal müzik ile dramaturjinin birleşiminin yüksek bir örneğidir. Farhat Moldağali tarafından sahnelenen versiyon klasik mirasa çağdaş bakışın bir göstergesi olarak değerlendirilmektedir. Yapımın prömiyeri Abay adını taşıyan Kazak Ulusal Opera ve Bale Tiyatrosunun sahnesinde gerçekleşmiştir. Spektakl geleneksel klasik modelden bütünüyle uzaklaşmadan, A. Jübanov ve L. Hamidi yazarlığındaki libretonun ideolojik içeriğini koruyarak gerçekleştirilmiştir.

Rejisör Abay imgesini yalnızca tarihî bir şahsiyet olarak değil, toplumsal çelişkilerle yüz yüze gelen bir düşünür, manevi yalnızlığı yaşayan bir şahsiyet olarak göstermeye çabalamaktadır. Sahnede adaletsizliğe karşı duran, toplumla mücadelede yalnızlık duygusunu yaşayan Abay imgesi görülmektedir. Ancak yapımda temel dikkat yalnızca şair şahsiyetine yoğunlaşmamaktadır. Rejisör yorumunda şair imgesi sahne hareketi, ışık çözümleri ve sembolik mizansenler aracılığıyla derinleştirilmektedir. Abay partisini Kazakistan'ın halk sanatçısı Talgat Küzembayev icra etmiştir. Sonuç olarak seyirci yalnızca tarihî dönemi değil, günümüzle örtüşen manevi meseleleri de hissedebilmiştir. F. Moldağali etnografik dekorasyon unsurlarını mümkün olduğunca sadeleştirerek spektakli tarihsel nitelikten ziyade felsefi içerikte sunmaya yönelmiştir. Dekorasyondan çok oyunculuk oyununa ve müzikal ekspresyona üstünlük verilmiştir. Işık ile gölgenin uyumlu kullanımı karakterlerin psikolojik durumunu belirginleştirmiştir.

Farhat Moldağali çağdaş Kazak rejisörlüğünde özgün imzası açık biçimde oluşmuş yaratıcı şahsiyetlerden biridir. Onun yapımları ulusal klasiği çağdaş estetikle birleştirerek müzikal uyum

ile sahne eyleminin bütünlüğüne dayanmaktadır. Rejisör tiyatroyu insan varlığını tanıma mekânı olarak değerlendirerek karakter psikolojisini derinlemesine açmaya çabalamaktadır.

Bu bakımdan F. Moldağali'nin eserleri Kazak tiyatro sanatının çağdaş gelişim sürecini belirleyen önemli bir olgu olarak değerlendirilebilir. Onun rejisörlük yaklaşımı ulusal sahne kültürünün profesyonel düzeyinin yükselmesine ve sanatsal ufkunun genişlemesine etki etmektedir.

## Kaynakça

1. Amangeldi Mukan'ın yönetmenlik üzerine referansı
2. Karp, "Yönetmenliğin Temelleri"

**Aytən Abdullayeva**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,*
*Teatrşünaslıq ixtisası, Bakalavriat*

# Canlı teatr və rəqəmsal texnologiya inteqrasiya müstəvisində

**Xülasə:** Məqalədə canlı teatrın rəqəmsal texnologiyalarla inteqrasiyası və bu prosesin teatrın ontoloji mahiyyətinə təsiri araşdırılır. Teatrın əsas xüsusiyyəti olan canlı performans və aktyor-tamaşaçı ünsiyyəti Valter Benyaminin "aura" anlayışı kontekstində təhlil edilir. Rəqəmsal texnologiyaların yaratdığı yeni estetik və institusional imkanlar göstərilsə də, onların teatrın canlılıq prinsipini qorumaq şərti ilə istifadə olunmasının zəruriliyi vurğulanır.
***Açar sözlər:*** *teatr sənəti, rəqəmsal texnologiya, mexaniki reproduksiya, canlı performans, aura anlayışı, interaktiv teatr, virtual reallıq, teatrın rəqəmsallaşması.*

## Live Theatre and Digital Technology in the Context of Integration

**Abstract**: This article examines the integration of live theatre with digital technologies and the impact of this process on the ontological essence of theatre. The fundamental characteristic of theatre—live performance and actor–audience interaction—is analyzed within the context of Walter Benjamin's concept of "aura." Although the new aesthetic and institutional possibilities created by digital technologies are highlighted, the article emphasizes the necessity of using these technologies in a way that preserves the principle of liveness in theatre.
***Keywords:*** *Theatre art, digital technology, mechanical reproduction, live performance, the concept of aura, interactive theatre, virtual reality, digitalization of theatre.*

## Живой театр и цифровые технологии в контексте интеграции

**Резюме:** В статье исследуется интеграция живого театра с цифровыми технологиями и влияние этого процесса на онтологическую сущность театра. Основная особенность театра — живое исполнение и взаимодействие актёра со зрителем — рассматривается в контексте концепции «ауры» Вальтера Беньямина. Несмотря на новые эстетические и институциональные возможности, создаваемые цифровыми технологиями, подчеркивается необходимость их использования при условии сохранения принципа живости театра.
***Ключевые слова:*** *Театральное искусство, цифровые технологии, механическая репродукция, живое исполнение, концепция ауры, интерактивный театр, виртуальная реальность, цифровизация театра.*

XXI əsr rəqəmsal transformasiya dövrü kimi səciyyələnir. Teatr sənəti də bu prosesdən kənarda qalmamış, səhnə məkanına proyeksiya sistemləri, interaktiv vizual platformalar, canlı yayım texnologiyaları və süni intellekt elementləri daxil olmuşdur. Məqalədə bu tendensiya "Teatr 2.0" anlayışı çərçivəsində şərh edilir. Lakin məsələ texnoloji yenilənmənin mövcudluğu deyil. Problem teatrın ontoloji mahiyyəti ilə bağlıdır. Əgər teatr canlı insan ünsiyyətinə əsaslanan sənət formasıdırsa, rəqəmsal inteqrasiya teatrın özünəməxsus fərqliliyinə necə təsir edir? Teatr öz mahiyyətini dəyişirmi, yoxsa texnologiyanı yalnız vasitə kimi inteqrasiya edə bilir? Rəqəmsal

doymuşluq şəraitində tamaşaçının hələ də fiziki teatr məkanına üz tutması faktı göstərir ki, canlı ünsiyyət ehtiyacı aktual olaraq qalır. Bu baxımdan mövzu həm də antropoloji baxımdan əhəmiyyətlidir. Belə ki, teatr sənətinin digər audiovizual sənətlərdən əsas fərqi onun canlı hadisə xarakteridir. Kino, televiziya və rəqəmsal media əvvəlcədən qeydə alınır və texniki alətlər vasitəsilə təqdim olunur. Teatr isə real zaman içində baş verən performativ hadisədir. Bu hadisə aktyor və tamaşaçı arasında eyni məkan və zaman çərçivəsində yaranan qarşılıqlı təsirə əsaslanır.

Teatrın ontoloji xüsusiyyəti məhz bu canlı qarşılaşmada təzahür edir. Səhnə hadisəsi əvvəlcədən hazırlanmış dramaturji və rejissor planına əsaslansa da, onun konkret reallaşması hər dəfə fərqli olur. Aktyorun performansı, tamaşaçının reaksiyası və səhnədə yaranan emosional mühit hər nümayişdə dəyişir. Bu səbəbdən teatr hadisəsi tam şəkildə təkrarlana bilən struktur deyil. Bu təkrarolunmazlıq teatrın canlılıq prinsipi ilə birbaşa əlaqəlidir. Hər tamaşa eyni dramaturji materiala əsaslansa belə, konkret performans eyni şəkildə yenidən yaradıla bilmir. Bu xüsusiyyət teatrın digər sənət formalarından fərqlənməsinə səbəb olur.

Bəhs etdiyimiz məsələ sənət fəlsəfəsində də müzakirə predmetlərindəndir. Bu baxımdan, istinad etdiyim əsas mənbələrdən biri alman filosofu Valter Benyaminin “Mexaniki reproduksiya dövründə sənət əsəri” (1935) [2] adlı essesidir. Benyaminə görə, klassik bir sənət əsərinin “aura”sı var. Burada söhbət onun zaman və məkan daxilindəki unikal mövcudluğundan və orijinallığından gedir. Lakin sənət əsəri mexaniki yolla (fotoqrafiya, kino) çoxaldıqda, bu unikal “aura” yox olur. Çünki artıq əsərin “orijinalı” ilə “surəti” arasındakı fərq itir. Əvvəllər sənət ritual və dinlə bağlı idi, məsələn, mağara rəsmləri, dini ikonalar və s. Onların əsas dəyəri sirrli və sakral olmalarında idi. O yazır: “Biz bilirik ki, ən qədim sənət əsərləri əvvəl magik, sonra isə dini ritualın əsasında yaranmışdır. Sənət əsərinin aurası ilə bağlı mövcudluğu heç vaxt onun ritual funksiyasından tam şəkildə ayrılmamışdır. Başqa sözlə desək, ‘autentik’ sənət əsərinin unikal dəyəri onun ritual köklərinə, ilkin istifadə kontekstinə bağlıdır” [2, s. 6]. Benyamin mexaniki reproduksiyanın sənəti ritual mənşəyindən qismən azad etdiyini düşünürdü. Bununla belə, o “sənət sənət üçündür”(l’art pour l’art) prinsipinin tərəfdarı deyildi və sosial məsuliyyətdən imtina edən sənətkarları da tənqid edirdi. Onun narahatlığı tamamilə autentiklik və özünəməxsusluq anlayışlarının zəifləməsi ilə bağlı idi. Benyaminin irəli sürdüyü əsas suallardan biri belədir: əgər sənət əsəri texniki üsullarla sonsuz sayda çoxaldıla bilirsə, onda orijinal nümunənin əhəmiyyəti nədədir? Bu sual müasir teatrın rəqəmsal texnologiya ilə inteqrasiya halına da tətbiq oluna bilər. Benyamin həmçinin qeyd edirdi ki, mexaniki reproduksiya dövründə incəsənətin dəyəri getdikcə onun neçə nəfər tərəfindən görülməsi ilə ölçülməyə başlayır. Onun yaşadığı dövrdə incəsənət tez-tez siyasi məqsədlər üçün istifadə olunurdu. Müasir rəqəmsal mediada isə kütləvi yayım imkanlarının genişlənməsi bu tendensiyanı daha da gücləndirmişdir.

Bu kontekstdə Benyaminin “aura” anlayışı rəqəmsal inteqrasiya şəraitində teatrın qarşılaşa biləcəyi əsas problemlərdən biri kimi şərh edilə bilər. Teatr aktyoru tamaşaçı qarşısında fiziki olaraq mövcuddur və performans məhz bu birbaşa qarşılaşma üzərində qurulur. Lakin texnoloji vasitələr — kamera və ya rəqəmsal ekran — bu performansı tam və vahid hadisə kimi təqdim etmir; onu kadrlar, rakurslar və fraqmentlər şəklində yenidən qurur. Məsələn, aktyorun səhnədə yaratdığı obraz (tutaq ki, Maqbet rolunda) onun fiziki mövcudluğu və canlı performansı ilə ayrılmaz şəkildə bağlıdır. Rəqəmsal çəkilişdə isə aktyor ilə tamaşaçı arasındakı birbaşa əlaqə zəifləyir. Benyamin kino sənətinin reallığı çoxsaylı fraqmentlər vasitəsilə qurduğunu qeyd edirdi. Teatr isə daha çox bütöv və fasiləsiz performans hadisəsinə əsaslanır. Müasir teatr səhnəsində böyük ekranların istifadəsi və ya aktyorun hərəkətlərinin eyni anda müxtəlif rakurslardan

proyeksiya edilməsi bu iki prinsipin toqquşmasına səbəb ola bilər. Benyamin həmçinin qeyd edirdi ki, müasir kütlə incəsənəti çox vaxt "diqqəti dağınıq" vəziyyətdə qəbul edir. Ev şəraitində kompüter və ya smartfon vasitəsilə izlənilən rəqəmsal teatr bu tip qavrayışın ən aydın nümunələrindən biri hesab oluna bilər. Bu kontekstdə maraqlı paradoks VR (virtual reallıq) teatrında ortaya çıxır. Benyaminə görə auranın zəifləməsi qismən kütlənin hər şeyi "yaxınlaşdırmaq" istəyindən irəli gəlir. Virtual reallıq texnologiyası bu istəyin radikal formasına çevrilir.

Bu gün dünya teatr praktikasında tamaşaların canlı yayımı geniş yayılmışdır. Bu format çox vaxt "evdən çıxmadan tamaşa izlə" kimi reklam edilir. Belə hallarda aktyor səhnədə canlı şəkildə oynamağa davam edir, lakin kamera obyektivi onunla tamaşaçı arasında baryer yaradır. Bəzi müasir rəqəmsal teatr layihələrində texnoloji effektlər aktyorun təbii emosional ifadəsini kölgədə qoyaraq səhnədə süni vizual dominantlıq yaradır. Bu isə teatrın əsasını təşkil edən canlı insan ünsiyyətinin zəifləməsi riskini ortaya çıxarır. Nəticə etibarilə əsas sual yaranır: texnologiya ilə intensiv inteqrasiya şəraitində canlı ünsiyyət üzərində qurulan teatrın özünəməxsusluğu qorunub saxlanıla biləcəkmi? Kino mexaniki reproduksiya vasitəsilə teatrın aurasını müəyyən dərəcədə sarsıtmışdısa, teatrın rəqəmsallaşması bu prosesi daha da dərinləşdirə bilər. Bu isə teatrın passiv istehlak olunan əyləncə formasına çevrilməsi riskini də gündəmə gətirir.

Müasir nəzəriyyəçilər canlılıq anlayışını yenidən nəzərdən keçirirlər. Filip Auslanderin fikrincə, müasir mədəniyyət şəraitində canlı performans da media ilə qarşılıqlı əlaqə içində formalaşır [1]. Bu yanaşma canlılığın yalnız texniki fərqlə müəyyən olunmadığını göstərir.

Bununla belə, problem tam şəkildə aradan qalxmır. Canlı teatr hadisəsi real zaman daxilində baş verən insan qarşılaşmasına əsaslanır və bu qarşılaşma texniki vasitələrlə tam şəkildə əvəz edilə bilmir. Teatrın gücü məhz bu qarşılaşmanın yaratdığı emosional intensivlikdə və qeyri-müəyyənlikdə təzahür edir. Rəqəmsal texnologiyalarla bağlı müzakirələrdə teatrın mahiyyətinin qorunması məsələsi tez-tez ön plana çıxsa da, teatrın texnologiyadan tam şəkildə uzaq qalması da real görünmür. Müasir cəmiyyət artıq rəqəmsal kommunikasiya strukturları üzərində qurulmuşdur və mədəni istehsal formaları bu transformasiyadan kənarda mövcud ola bilmir. Bu baxımdan teatrın texnologiyaya müqavimət göstərərək tam arxaik formada qalması mümkün deyil.

Tarixi baxımdan teatr daim sosial və texnoloji dəyişikliklərlə birlikdə transformasiya olunmuşdur. Antik ritual tamaşalarından orta əsr dini teatrına, oradan isə müasir səhnə estetikasına qədər teatr hər dövrdə mövcud mədəni mühitlə qarşılıqlı əlaqə daxilində inkişaf etmişdir. Bu səbəbdən rəqəmsal texnologiyaların səhnə sənətinə daxil olması teatr tarixində baş verən digər transformasiya mərhələlərinin davamı kimi də qiymətləndirilə bilər. Belə ki, teatrın rəqəmsal texnologiyalarla qarşılıqlı əlaqəsi eyni zamanda yeni yaradıcı və institusional imkanlar da yaradır. Bu inteqrasiya teatrın auditoriya ilə münasibətlərini, səhnə estetikasını və incəsənətin əlçatanlıq imkanlarını əhəmiyyətli dərəcədə genişləndirə bilər. İlk növbədə, rəqəmsal texnologiyalar teatrın auditoriya miqyasını genişləndirir. Canlı yayım və onlayn platformalar vasitəsilə tamaşalar yalnız konkret şəhərdə yerləşən tamaşaçılar üçün yox, müxtəlif ölkələrdə yaşayan izləyicilər üçün də əlçatan olur. Tənqidçilər üçün dünya teatrını izləmək və qiymətləndirmək imkanı yaradır. Eyni şəkildə, bu baxımdan rəqəmsal yayım teatrın coğrafi məhdudiyyətlərini qismən aradan qaldırır və onun qlobal auditoriya ilə əlaqəsini gücləndirir. Bu model xüsusilə pandemiya dövründə geniş yayılmış və bir çox teatr qurumları üçün alternativ fəaliyyət forması kimi formalaşmışdır.

İkinci mühüm aspekt teatrın arxivləşdirilməsi və sənədləşdirilməsi ilə bağlıdır. Ənənəvi teatr təcrübəsi efemer xarakter daşıdığı üçün tamaşa yalnız baş verdiyi anda mövcud olur və sonra

yoxa çıxır. Rəqəmsal qeyd texnologiyaları isə teatr tarixinin sənədləşdirilməsinə imkan yaradır. Bu materiallar tədqiqat, tədris və teatr tarixinin öyrənilməsi üçün mühüm mənbəyə çevrilmək imkanı qazanır.

Rəqəmsal texnologiyalar həmçinin səhnə estetikasının genişlənməsinə şərait yaradır. Video proyeksiyalar, interaktiv vizual sistemlər və rəqəmsal səhnə dizaynı teatrın vizual imkanlarını əhəmiyyətli dərəcədə artırır. Müasir səhnə praktikasında virtual məkanların yaradılması, real və rəqəmsal obrazların eyni səhnə məkanında qarşılıqlı əlaqəsi kimi estetik eksperimentlər müşahidə olunur. Bu yanaşma teatrı vizual olaraq zənginləşdirir və yeni ifadə formalarının yaranmasına imkan yaradır. Bundan əlavə, rəqəmsal texnologiyalar tamaşaçı iştirakının yeni modellərini meydana çıxarır. İnteraktiv performanslar, mobil tətbiqlər və virtual platformalar tamaşaçını performans prosesinin aktiv iştirakçısına çevirə bilir. Əslində tamaşaçının aktiv iştirakçıya çevrilməsi ideyası teatr tarixində yeni fenomen deyil. XX əsrdə bir sıra rejissor və teatr nəzəriyyəçiləri səhnə ilə zal arasındakı sərhədləri zəiflətməyə çalışmışlar. Məsələn, Yeji Qrotovski və Piter Bruk kimi rejissorlar tamaşaçı ilə aktyor arasında birbaşa və intensiv əlaqə yaratmağa yönəlmiş teatr formaları üzərində işləyirdilər. Onların məqsədi tamaşaçını passiv müşahidəçi statusundan çıxararaq səhnə hadisəsinin canlı iştirakçısına çevirmək idi. Bu tendensiya teatrın daha qədim mərhələləri ilə də əlaqələndirilə bilər. Teatrın ritual mənşəyi nəzərə alındıqda, ilkin performativ formaların kollektiv iştirak prinsipi üzərində qurulduğu məlum olur. Antik mərasimlərdə icraçı ilə müşahidəçi arasında sərt ayrım mövcud deyildi; performans bütöv bir icmanın iştirak etdiyi kollektiv hadisə xarakteri daşıyırdı. Bu baxımdan müasir rəqəmsal texnologiyalar vasitəsilə yaranan interaktiv teatr formalarını müəyyən mənada həmin kollektiv performans modelinin yeni texnoloji mühitdə yenidən ortaya çıxması kimi də şərh etmək mümkündür. Tamaşaçının performans prosesinə daha aktiv şəkildə daxil edilməsi isə teatrın sosial və kommunikativ funksiyasını gücləndirən amillərdən biri kimi çox əhəmiyyətlidir.

Rəqəmsal inteqrasiyanın başqa bir mühüm nəticəsi inklüzivlik imkanlarının genişlənməsidir. Onlayn yayımlar və rəqəmsal platformalar fiziki olaraq teatr məkanına gəlmək imkanı olmayan insanlar üçün alternativ iştirak forması yaradır. Bu, xüsusilə müxtəlif fiziki məhdudiyyətləri olan tamaşaçılar üçün teatrı daha əlçatan edir. Nəhayət, rəqəmsal texnologiyalar teatrın digər incəsənət formaları ilə dialoqunu da gücləndirir. Kino, video-art, rəqəmsal dizayn və kompüter qrafikası kimi sahələrlə qarşılıqlı əlaqə teatrın funksionallığını artırır. Bu proses nəticəsində teatr müxtəlif media formalarının sintezində inkişaf edə bilər. Həmin kontekstdə əsas məsələ texnologiyanın mövcudluğu yox, onun teatrın prinsipləri ilə necə uzlaşdırılmasıdır. Teatrın canlılıq, real zamanlı qarşılaşma və performativ təkrarolunmazlıq kimi əsas xüsusiyyətləri qorunmaq şərti ilə rəqəmsal texnologiyalar səhnə estetikasına xidmət edən vasitə kimi istifadə oluna bilər.

**Nəticə**

Nəticədə, teatrın rəqəmsal dövrdə mövcudluğunu davam etdirməsi üçün texnologiya ilə müəyyən səviyyədə inteqrasiyası qaçılmazdır. Lakin bu inteqrasiya teatrın mahiyyətini əvəz edən struktur yox, onun ifadə imkanlarını genişləndirən köməkçi sistem kimi həyata keçirilməlidir. Bu halda texnologiya teatrın mahiyyətini zəiflətmək əvəzinə, onun müasir mədəni mühitdə davamlılığını təmin edən vasitə olmalıdır.

Beləliklə, müasir teatrın qarşısında duran əsas vəzifə rəqəmsal texnologiyalardan imtina etmək deyil, onları teatrın canlı performativ təbiəti ilə balanslaşdırılmış şəkildə istifadə etməkdir.

Bu balansın qorunması teatrın həm tarixi davamlılığını saxlamasına, həm də müasir mədəni mühitdə aktuallığını itirməməsinə imkan yaradar.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Auslander Philip. Liveness: Performance in a mediatized culture, London, Routledge, 2022, 230 p.
2. Benjamin Walter. The Work of Art in the Age of Mechanical Reproduction, New York: Shocken Books, 1969, 12 p.
3. The future of the post-pandemic virtual theatre https://zip-scene.com/2022/01/24/the-future-of-the-post-pandemic-virtual-theatre/
4. The theatre effect: Benefits of live performances https://performingarts.nd.edu/news-announcements/theater-effect-benefits-live-performances/
5. What (good) examples of digital technology in theatre do you know? https://thetheatretimes.com/what-good-examples-of-digital-technology-in-theatre-do-you-know/

**Наркыз Орынбасар**
*Казахская национальная академия искусств имени Темирбека Жургенова,*
*Специальность Театроведение, бакалавриат*

## Казахское литературное наследие и её современная сценическая интерпретация

**Резюме:** В статье рассматривается взаимосвязь казахской литературы и театрального искусства в контексте развития национальной театральной культуры. Анализируется роль литературного наследия в становлении театра, включая сценические адаптации фольклора, драматургии, исторических и лиро-эпических произведений. Особое внимание уделяется современным режиссёрским интерпретациям и особенностям сценической адаптации прозы и эпоса. Отмечается влияние современных театральных тенденций, способствующих обновлению национального наследия и привлечению молодой аудитории.
***Ключевые слова:*** *казахская литература, театральное искусство, авторская режиссура, интерпретация, национальная культура, современная режиссура.*

### Qazax ədəbi irsi və onun müasir səhnə interpretasiyası

**Xülasə:** Məqalədə milli teatr mədəniyyətinin inkişafında Qazax ədəbiyyatı ilə teatr sənəti arasındakı qarşılıqlı əlaqə araşdırılır. Teatrın formalaşmasında ədəbi irsin rolu, o cümlədən folklorun, dramaturgiyanın, tarixi və lirik-epik əsərlərin səhnə uyğunlaşdırmaları təhlil edilir. Xüsusi diqqət müasir rejissor interpretasiyalarına və nəsr və epik mətnlərin səhnələşdirilməsinin xüsusiyyətlərinə yönəldilir. Tədqiqatda milli irsin yenilənməsinə və gənc auditoriyanın cəlb olunmasına töhfə verən müasir teatr meyllərinin təsiri vurğulanır.
***Açar sözlər:*** *Qazax ədəbiyyatı, teatr sənəti, müəllif rejissorluğu, interpretasiya, milli mədəniyyət, müasir rejissorluq.*

### Kazakh Literary Heritage and Its Contemporary Stage Interpretation

**Abstract:** The article examines the relationship between Kazakh literature and theatrical art in the development of national theatrical culture. It analyzes the role of literary heritage in the emergence of theatre, including stage adaptations of folklore, drama, and historical and lyric-epic works. Particular attention is given to contemporary directorial interpretations and the features of stage adaptation of prose and epic narratives. The study highlights the influence of modern theatrical trends that contribute to renewing national heritage and engaging younger audiences.
***Keywords:*** *Kazakh literature, theatrical art, auteur directing, interpretation, national culture, contemporary directing.*

Казахская литература – это драгоценное наследие, отражающее мировоззрение народа, его традиции и ценности, историческую судьбу от глубокой древности до наших дней. В неисчерпаемом пространстве словесного искусства находят отражение исторические события, общественно-политические противоречия и психологическая память народа.

Через литературное наследие мы познаём национальное мировоззрение, историю, устремления, традиции и характер народа. Народное искусство берёт начало в духовной сущности, быте и культурных основаниях этноса. Казахская литература отличается глубокими историческими корнями, национальным сознанием и древними культурными традициями.

Известно, что одна из первых постановок в период становления казахского театра была создана на основе национального культурного наследия. Великий просветитель, писатель, поэт Жүсипбек Аймауытов как режиссёр адаптировал айтыс «Биржан и Сара» к сцене и впервые представил его как театральную постановку в городе Семей [1, 293 с.]. По данным доктора искусствоведения Б.Кундакбайулы, 13 февраля 1915 года в клубе приказчиков Семея спектакль «Биржан – Сара», поставленный Ж. Аймауытовым, стал предвестником зарождения национального театра на казахской земле.

Театровед А. Еркебай в своём докладе на XIV Международной научно-практической конференции «Ауэзовские чтения» также отмечает режиссёрскую и драматургическую деятельность Ж. Аймауытова. [2, 113 с.].

Первые режиссёрские поиски и сценические эксперименты в казахском театре заложили основу дальнейшего формирования драматургической традиции. Этот процесс углубился с появлением пьес на историческую тематику. Театральная сцена стала не только художественным пространством, но и духовно-идеологической площадкой осмысления национальной истории.

Историческая интерпретация драматургических произведений тесно связана с сохранением национальных ценностей и идеологическим влиянием эпохи. Драматургия как вид искусства способна передавать политическую, социальную и культурную реальность определённого исторического периода через сценический образ, воздействуя на общественное сознание, историческую память и национальное мировосприятие. Отображение конкретной личности или события на сцене – это не только художественное решение, но и способ формирования отношения нации к собственной истории.

В этом контексте пьеса написанная в 1928 году Мухтара Ауэзова «Хан Кене» считается одной из первых исторических трагедий в казахской драматургии. В произведении художественно осмыслено национально-освободительное движение под предводительством Кенесары Касымулы. Однако в советский период пьеса была снята со сцены по идеологическим причинам, что наглядно демонстрирует зависимость исторической интерпретации драматургии от государственной идеологии. В годы независимости возвращение к исторической тематике способствовало возрождению национального самосознания.

Наряду с историческими драмами объектом современной интерпретации на театральной сцене стали лиро-эпические поэмы и прозаические произведения. Лиро-эпосы, воспевающие любовь, героизм, верность и нравственные ценности, до сих пор сохраняют свою жизнеспособность на сцене. «Козы Корпеш – Баян сулу» и «Кыз Жибек» продолжают активно ставиться в театрах.

Режиссёры, обращаясь к этим произведениям, предлагают их в современной форме, порой используя авангардные или постдраматические приёмы, стремясь привлечь молодое поколение к национальному наследию. Это художественные решения, возникающие на стыке традиции и новаторства.

Адаптация классических романов и повестей к языку сцены – процесс превращения литературного наследия в визуально-художественное искусство. Например, фрагменты романа-эпопеи «Путь Абая» активно используются в театральных постановках. Такие спектакли позволяют зрителю ощутить атмосферу исторической эпохи и прикоснуться к глубине национального духовного мира.

Современная режиссура рассматривает лиро-эпические и прозаические произведения не только как текст, но и как духовный опыт, подчёркивая воспитательную и познавательную функцию театра.

Если обратиться к постановке драматической оперы «Кыз Жибек» режиссёра Алибека Умирбекулы, то следует отметить, что в основу драматургии были положены вариант эпоса Ж. Шайкысламулы, а также либретто Габита Мусрепова и Евгения Брусиловского. Новаторство режиссёра проявилось не в отказе от традиции, а в её переосмыслении посредством современного сценического языка. Вместе с тем подобный подход потребовал значительной творческой свободы и ответственности за сохранение авторской идеи и исторического контекста.

В репертуаре казахских театров на протяжении многих лет остаются произведения Г. Мусрепова «Кыз Жибек», «Козы Корпеш – Баян сулу», а также пьесы М. Ауэзова «Қарагоз», «Еңлик-Кебек». В разные периоды они получали новые режиссёрские интерпретации.

Одним из представителей новой волны в режиссуре является Гүлназ Балпеисова. В Казахском Национальном музыкально-драматическом театре имени Калибека Куанышбаева режиссер интерпретировала пьесу Г. Мусрепова «Козы Корпеш – Баян Сулу» как музыкальную драму. Постановка отличалась метафоричностью и символизмом, масштабной творческой командой и использованием оркестрового сопровождения, усиливающего эмоциональное воздействие.

Г. Балпеисова является выпускницей мастерской известного режиссёра Римаса Туминаса, поэтому в её работах внимании к паузе, внутреннему темпу, глубокой проработке монологов и психологической пластике актёров. Музыка и вокальные номера в спектакле раскрывают не только сюжет, но и внутреннее состояние персонажей. Режиссёр стремится представить героев не только как представителей фольклорного прошлого, но и как носителей универсальных человеческих ценностей.

В последние годы в казахском театре активно используются постдраматические элементы, минималистичные сценические решения и мультимедийные технологии, что свидетельствует о его диалоге с мировыми театральными тенденциями.

Адаптация прозы к сцене – сложный творческий процесс, в котором решающую роль играет авторская интерпретация режиссёра. Одним из представителей новой волны является режиссёр Мейрам Хабибуллин, поставивший роман Оралхана Бокея «Не погаси свой огонь» в молодёжном театре «Дарига-ай» города Семей. В прозе характер героя раскрывается преимущественно через авторское повествование, тогда как на сцене эта функция переходит к актёрской игре, мизансцене, пластике и интонации.

Таким образом, взаимосвязь казахской литературы и театрального искусства является важным направлением развития национальной культуры. Современная интерпретация литературного наследия на сцене соединяет прошлое и настоящее, способствуя обновлению национального сознания.

Современные режиссёрские поиски направлены на достижение гармонии между традицией и новаторством. Этот процесс укрепляет художественный уровень казахского театра и его позиции в культурном пространстве.

## Список использованной литературы

1. XIV Ауэзовские чтения: материалы XIV Международной научно-практической конференции. – Алматы: «Әдебиет әлемі», 2016. – 228 с.
2. Время и театр (Исследования и статьи). – Алматы: издательство «Өнер», 1981. – 328 с.
3. Сборник материалов Международной научно-теоретической конференции «Трансформация национальных ценностей в современном сценическом и экранном искусстве». – Алматы: издательство Print Express, 2021. – 424 с.

**Aynur Əskərli**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,*
*Teatr tarixi və nəzəriyyəsi ixtisaslaşması, Magistrant*

# Teatr sənətinin yeni paradiqması: insan və maşın əməkdaşlığı

**Xülasə:** Bu məqalə teatr sənətində texnologiyaların rolunu tarixi və müasir kontekstdə araşdırır. Müasir dövrdə teatr sənəti süni intellekt və rəqəmsal texnologiyaların təsiri ilə yeni mərhələyə qədəm qoymuşdur. Bu texnologiyalar yalnız səhnə obrazlarını yaratmaqla kifayətlənmir, həm də performansın ontoloji qatını formalaşdırır. Məqalədə qədim dövrün mexaniki qurğuları ilə müasir Sİ və rəqəmsal sistemlərin müqayisəsi aparılır, teatrın texnoloji inkişaf xətti və yaradıcı potensialının davamlı transformasiyası vurğulanır.
***Açar sözlər**: Süni intellekt, texnologiya, performans, rəqəmsallaşma, interaktivlik.*

## A New Paradigm of Theatre Art: Human and Machine Collaboration

**Abstract:** This article examines the role of technology in theatrical art from both historical and contemporary perspectives. In the modern era, theatre has entered a new stage of development under the influence of artificial intelligence and digital technologies. These technologies not only contribute to the creation of stage imagery but also shape the ontological dimension of performance. The article compares the mechanical devices of ancient periods with contemporary AI and digital systems, emphasizing the trajectory of technological development in theatre and the continuous transformation of its creative potential.
***Keywords**: Artificial intelligence, technology, performance, digitalization, interactivity.*

## Новая парадигма театрального искусства: сотрудничество человека и машины

**Резюме:** Данная статья рассматривает роль технологий в театральном искусстве в историческом и современном контекстах. В современную эпоху театральное искусство вступило в новый этап развития под влиянием искусственного интеллекта и цифровых технологий. Эти технологии не только способствуют созданию сценических образов, но и формируют онтологическое измерение перформанса. В статье проводится сравнительный анализ механических устройств древних эпох и современных систем искусственного интеллекта и цифровых технологий, подчеркивается линия технологического развития театра и непрерывная трансформация его творческого потенциала.
***Ключевые слова:** Искусственный интеллект, технологии, перформанс, цифровизация, интерактивность.*

İnsanlıq tarix boyu fasiləsiz inkişaf və dəyişiklik ilə ilə üz-üzə qalmışdır. Bu dəyişikliklər yalnız texnoloji sahələrlə məhdudlaşmır; eyni zamanda düşüncə tərzimizin, dəyərlər sistemimizin və həyat fəlsəfəmizin dərin qatlarında da özünü göstərir. Məhz bu transformasiyalar insanın özünü dərk etmə prosesini sürətləndirir. Dünyanın ritmi sürətlənərkən insan təkcə xarici reallıqlarla deyil, həm də daxili düşüncəsi, varlığının mahiyyəti ilə qarşı-qarşıya qalır. Beləliklə, dəyişən dünya sadəcə struktur dəyişimi deyil; o, insan təcrübəsi və şüurunun bir növ laboratoriyasına çevrilir –

burada hər fikir və hər qərar kiçik bir eksperiment xarakteri daşıyır. Süni intellekt (AI) bu prosesin ən sürətli katalizatorlarından biridir. O, yalnız maşınların "ağıllanması" deyil, eyni zamanda insan düşüncəsini formalaşdırmaq üçün yeni imkanlar yaradır.

Sİ-nin, rəqəmsal texnologiyaların inkişafı iqtisadiyyat, səhiyyə, təhsil, sənaye kimi müxtəlif sahələrdə köklü dəyişikliklərə səbəb olmaqla yanaşı, incəsənətə, o cümlədən teatra da öz təsirini göstərməkdədir. Onu da qeyd etməliyik ki, teatr sənəti tarix boyu elmi və texnoloji nailiyyətlərin imkanlarından istifadə edərək performansın ifadə imkanlarını genişləndirmişdir. Hələ Qədim Yunanıstanda tamaşaların vizual və dramatik təsirini gücləndirmək məqsədilə müxtəlif texnoloji qurğulardan istifadə edilirdi. Məsələn, e.ə. V əsrdə vinçlər vasitəsilə tanrı obrazları səhnəyə endirilmiş, e.ə. IV əsrdə isə Heron tərəfindən hərəkət edən dörd təkərli platformalar hazırlanmışdır. Zaman keçdikcə teatr texnologiyaları daha mürəkkəb formalar aldı. XIX–XX əsrlərdə karbon qövs lampalarının səhnə texnologiyasına daxil edilməsi teatr məkanında işıqlandırma imkanlarını genişləndirmiş, vizual plastikanı gücləndirmişdir.

Beləliklə, zaman-zaman texnologiyanın statusu transformasiya olunmuşdur: o, yardımçı mexaniki vasitə olmaqdan çıxaraq, performansın semantik və ontoloji qatına daxil olmuşdur. Mexaniki avtomatlaşdırmadan rəqəmsal və alqoritmik sistemlərə keçid teatrın ifadə imkanlarını təkcə genişləndirməmiş, həm də "teatr" anlayışının sərhədlərini yenidən müəyyənləşdirmişdir. Beləliklə, qədim teatr maşınlarından müasir rəqəmsal interfeyslərə qədər uzanan inkişaf xətti texnologiyanın səhnə sənətində periferik element deyil, performativ reallığın formalaşdırıcı komponenti olduğunu göstərir və post-insan teatr modelinin meydana çıxmasını tarixi təkamülün məntiqi nəticəsi kimi əsaslandırır.

"Süni intellektin (Sİ) meydana gəlməsi müxtəlif sənaye sahələrində transformativ bir dövrə qədəm qoymuş və ifaçılıq sənəti də daxil olmaqla yaradıcı sahələrə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Səhnə əsərlərinin istehsalı sahəsində Sİ-nin rolu texnoloji yenilikdən əsaslı yaradıcı qüvvəyə çevrilmişdir."[1]

Teatr sənətində süni intellektdən istifadə insan amilinin tamamilə aradan qalxması demək deyil. Əksinə, bu proses insan və maşın arasında yeni yaradıcı əməkdaşlıq formalarının meydana gəlməsinə şərait yaradır. Məhz bu kontekstdə müasir mədəni diskursda post-insan teatrı anlayışı meydana çıxır. Post-insan teatrı texnologiya, incəsənət və fəlsəfənin kəsişdiyi maraqlı bir sahədir; burada dramaturqlar, aktyorlar və rejissorlar rəqəmsal həmkarlarla birgə yaradıcılıq prosesinə daxil olurlar.

Post-insan teatrı ənənəvi teatr anlayışını aşaraq insan, texnologiya, süni intellekt, rəqəmsal obyektlər və virtual varlıqlar arasında yeni münasibətlər sistemi formalaşdıran çağdaş performans modelidir. Bu teatr yanaşması bir neçə əsas istiqaməti əhatə edir. İlk növbədə, rəqəmsal tamaşalar post-insan teatrının əsas komponentlərindən biridir. Burada klassik səhnə quruluşu rəqəmsal texnologiyalar vasitəsilə zənginləşdirilir. Holoqramlar, proyeksiyalar, alqoritmik vizual effektlər və süni intellekt tərəfindən yaradılan mətnlər səhnə hadisəsinin aktiv iştirakçısına çevrilir.

Digər mühüm istiqamət virtual reallıq (VR) texnologiyalarının tətbiqidir. "Virtual reallıq texnologiyaları ənənəvi səhnədə yaradıla bilməyən heyrətamiz mənzərələr yaratmağa kömək edir. Belə ki, tamaşaçılar kosmosdan dənizin dərinliklərinə qədər fantastik dünyaya qərq olurlar. Dünyanın istənilən yerində tamaşaçılara teatr aləminin qapılarını açır, teatr sənətinin sərhədlərini genişləndirir" [2].

Nəhayət, süni intellekt və rəqəmsal texnologiyalar post-insan teatrının əsas yaradıcı alətlərindən biri kimi çıxış edir. Süni intellekt pyeslərin analizi, personajların formalaşdırılması və

hətta improvizasiya proseslərində iştirak edə bilir. Bu isə yaradıcılıq anlayışını yalnız insana məxsus fəaliyyət kimi deyil, insan–maşın əməkdaşlığının nəticəsi kimi yenidən dəyərləndirməyə imkan verir. Beləliklə, post-insan teatrı teatr sənətini texnoloji transformasiya kontekstində yenidən şərh edir və insan mərkəzli estetikadan daha çox hibrid və çoxsubyektli performans modelini ön plana çıxarır.

Məhz bu baxımdan THEaiTRE layihəsinin ilk mərhələsini təşkil edən "Sİ: Robot pyes yazanda" tamaşası post-insan teatrının həm praktik, həm də nəzəri imkanlarını aydın şəkildə nümayiş etdirən mühüm nümunə hesab olunur. 2019-cu ildə novator Tomas Studenik Karel Çapekin məşhur "R.U.R." pyesinin ilk səhnələşdirilməsinin yüzilliyini qeyri-ənənəvi formada qeyd etməyi təklif etdi. Onun ideyası sadə, lakin iddialı idi: bu dəfə pyesi insan deyil, süni intellekt yazacaq. Bu məqsədlə Çarlz Universitetinin Riyaziyyat və Fizika Fakültəsinin kompüter alimləri, Praqadakı Švanda Teatrının yaradıcı heyəti və Səhnə Sənətləri Akademiyasının tələbələri bir araya gələrək komanda formalaşdırdılar. Layihənin əsas sualı isə belə idi: süni intellekt dramaturji mətn yarada bilərmi və bu prosesdə insanın rolu hansı səviyyədədir? İşin ilkin mərhələsində klassik dramaturgiyanın əsas prinsipləri süni intellekt üçün alqoritmik qaydalara çevrildi. Teatr xadimləri dramaturji tələbləri kompüter alimlərinə izah edir, texniki komanda isə bu tələbləri proqramlaşdırma mühitinə uyğunlaşdırırdı. Nəticədə süni intellektə çoxsaylı teatr mətnləri öyrədildi və sistem tədricən öz daxili məntiqini formalaşdırdı. İnsan müdaxiləsi, əsasən, başlanğıc mərhələsi ilə məhdudlaşdırıldı ki, bu da layihənin post-insan yanaşmasını daha da gücləndirdi.

Post-insan teatrının maraqlı və müzakirəyə açıq istiqamətlərindən biri də robot aktyor fenomenidir. Əgər virtual reallıq və rəqəmsal mühit insanın səhnə təcrübəsini transformasiya edirsə, robot aktyorlar insan bədəninin özünü texnoloji obyektlə əvəz etməklə bizi performansın ontoloji əsasları barədə yenidən düşünməyə vadar edir. Təsadüf deyil ki, qədim dövrlərdən bəri bəşəriyyət istehsal və yaradıcılıq fəaliyyətini asanlaşdıracaq, insan imkanlarını genişləndirəcək süni varlıqlar haqqında düşünmüşdür. Bu ideyanın mifoloji köklərindən biri  Qolemdir. Əfsanəyə görə, Qolem  gildən yaradılmış və insanlar üçün çətin olan işləri yerinə yetirmək məqsədilə "proqramlaşdırılmışdır". Qolem obrazı insanın öz əli ilə yaratdığı, lakin müəyyən mənada, ondan asılı olan ilk süni varlıq modeli kimi interpretasiya oluna bilər. Bu mif sonrakı dövrlərdə mexaniki insan, avtomat və nəhayət, robot anlayışlarının mədəni-ideoloji zəminini formalaşdırmışdır. Robot aktyor fenomeni Qolem mifinin müasir texnoloji təcəssümü kimi də dəyərləndirilə bilər. Hər iki halda insan öz yaratdığı varlıq vasitəsilə həm gücünü, həm də sərhədlərini sınayır. Əgər Qolem insan iradəsinin maddiləşmiş forması idisə, robot aktyor alqoritmik şüurun səhnə üzərində təzahürüdür. Bu isə teatrın ontoloji qatını dəyişdirərək onu insan, maşın və rəqəmsal sistemlərin qarşılıqlı təsir məkanına çevirir. Texnologiyanın inkişafı ilə bu mifoloji təsəvvür post-insan düşüncə çərçivəsində yeni məna qazanır. Post-insan teatrı  insanı mərkəzdən uzaqlaşdıraraq onu texnologiya, maşın və süni intellektlə hibrid münasibətdə nəzərdən keçirir.

Bu istiqamətdə mühüm nümunələrdən biri 2014-cü ildə britaniyalı robototexnika mütəxəssisi Will Jackson tərəfindən rəhbərlik olunan Engineered Arts şirkətinin yaratdığı RoboThespian humanoid robotudur. RoboThespian sələflərindən bir neçə mühüm xüsusiyyətinə görə fərqlənirdi. İlk növbədə, sensor sistemləri və animatronikanın kombinasiyası robotun ətraf mühiti analiz etməsinə imkan verirdi. O, kameralar və hərəkət sensorları vasitəsilə tamaşaçıların bədən dilini, təxmini yaş göstəricilərini və emosional vəziyyətini skan edə, proqramlaşdırılmış alqoritmlər əsasında uyğun reaksiyalar formalaşdıra bilirdi. Bu isə robotu sadəcə mexaniki icraçı deyil, interaktiv performans subyektinə çevirirdi. Bundan əlavə, RoboThespian nitq sintezi,

mimika mexanizmləri və jest sistemləri ilə təchiz olunmuşdu. Üz hissəsində yerləşdirilən mexaniki aktuatorlar sayəsində müxtəlif emosional ifadələri (məsələn, təəccüb, sevinc, narahatlıq) imitasiya edə bilirdi. Beləliklə, robot aktyor yalnız mətn səsləndirməklə kifayətlənmir, həm də vizual-emosional təsir yaradırdı. Bu mərhələ robot teatrının inkişafında mühüm dönüş nöqtəsi hesab oluna bilər. Əgər əvvəlki mexanikləşdirilmiş aktyorlar, əsasən, əvvəlcədən proqramlaşdırılmış hərəkətləri icra edirdilərsə, RoboThespian interaktivlik və uygun reaksiya qabiliyyəti ilə performansın dinamikasını dəyişdirdi.

Nəticə etibarilə, süni intellekt və post-insan teatrı yalnız texnoloji yenilik kimi deyil, yaradıcılığın mahiyyətinə yönəlmiş dərin fəlsəfi çağırış kimi çıxış edir. Süni intellektin gələcəkdə dramaturji strukturları daha müstəqil şəkildə formalaşdırması teatrda müəlliflik anlayışının yenidən müəyyənləşdirilməsinə səbəb ola bilər. Bu proses insan yaradıcılığını arxa plana keçirməkdən çox, onu yeni əməkdaşlıq modelləri ilə zənginləşdirir. Post-insan teatrı göstərir ki, gələcəyin səhnəsi insan və maşın arasında qarşıdurma məkanı deyil, birgə düşüncə və yaradıcılıq sahəsidir. Məhz bu sintez teatr sənətini XXI əsrdə yeni estetik və intellektual mərhələyə daşıyır.

### İstifadə olunmuş ədəbiyyat siyahısı

1. G, Hoffman. On stage: Robots and Performers.
2. Xalq qəzeti-2025 21 noyabr N247, S-10 [2]
3. Pike, S. AI, AR, and VR in theatre and performance,2026
4. Ren, Z. The role of AI in theatre: Exploring the creation of AI-generated stage plays. [1]
5. Smith, E. A posthuman performance.

**Шугыла Далибаева**
*Казахская национальная академия искусств имени Темирбека Жургенова,*
*Специальность Театроведение, бакалавриат*

## Казахское театральное искусство: вчера и сегодня

**Резюме:** В данной работе анализируется состояние казахского театрального искусства в контексте его исторического развития и современных интерпретаций классических произведений. В центре исследования — спектакли «Кулагер» и «Улпан», поставленные на сцене Государственного театра для детей и юношества имени Г. Мусрепова. Рассматриваются режиссёрские решения Ф. Молдагали и Г. Балпейисовой, особенности актерской игры, сценография, символика и музыкальное оформление постановок. Особое внимание уделяется синтезу национальной классики с элементами мировой музыкальной культуры, включая использование произведений группы Pink Floyd и песен Michael Jackson. Работа направлена на выявление художественных особенностей современной казахской режиссуры и степени сохранения национальной идентичности в театральном пространстве.
***Ключевые слова:*** *Казахский театр, национальная идентичность, классическая литература, театральное представление, сценическая режиссура.*

## Kazakh Theatre Art: Yesterday and Today

**Abstract:** This paper examines the development of Kazakh theatrical art from its historical origins to its contemporary stage interpretations. The study focuses on the performances “Kulager” and “Ulpan” staged at the State Academic Theatre for Children and Youth named after G. Musrepov. The research analyzes the directing approaches of F. Moldagali and G. Balpeisova, acting techniques, scenography, symbolism, and musical solutions. Particular attention is paid to the integration of national classical heritage with elements of global musical culture, including the use of works by Pink Floyd and songs by Michael Jackson. The purpose of the study is to assess the artistic level of contemporary Kazakh theatre and to explore how national identity is preserved and reinterpreted on the modern stage.
***Keywords:*** *Kazakh theatre, national identity, classical literature, theatrical performance, stage directing.*

## Qazax teatr sənəti: dünən və bu gün

**Xülasə:** Bu məqalədə qazax teatr sənətinin tarixi köklərindən müasir səhnə interpretasiyalarına qədər inkişafı araşdırılır. Tədqiqat G. Musrepov adına Dövlət Uşaq və Gənclik Akademik Teatrında səhnələşdirilən “Külager” və “Ulpan” tamaşalarına diqqət yetirir. Araşdırmada F. Moldagali və G. Balpeisova’nın rejissorluq yanaşmaları, aktyor texnikası, səhnə tərtibatı, simvolika və musiqi həlləri təhlil olunur. Xüsusi diqqət milli klassik irsin qlobal musiqi mədəniyyəti elementləri ilə inteqrasiyasına yönəldilir, o cümlədən Pink Floyd əsərləri və Maykl Ceksonun mahnılarının istifadəsi. Tədqiqatın məqsədi müasir qazax teatrının bədii səviyyəsini qiymətləndirmək və milli kimliyin müasir səhnədə necə qorunub və yenidən şərh edildiyini araşdırmaqdır.
***Açar sözlər:*** *Qazax teatrı, milli kimlik, klassik ədəbiyyat, teatr tamaşası, səhnə rejissorluğu.*

Театр — живой организм. Время продолжает течь, век сменяет век, историю продолжает новая история. В этом году исполняется век со дня формирования понятия театра на казахской земле. Начавшееся с 1926 года, это искусство обязано своими истоками «самородкам»-соколам, чьи имена имеют неизгладимое значение в истории национального искусства. Известные нам «Аркалык батыр» Ж. Шанина, «Красные соколы» С. Сейфуллина, все произведения М. Ауэзова, написанные с целью прославления национальных интересов, несомненно, произвели впечатление на вдумчивого читателя. Поставленные в 1930-е годы «Жалбыр», «Айман-Шолпан», а также трагедии «Абай», «Енлик-Кебек», инсценированные режиссером А. Токпановым, дарили зрителю процесс духовного очищения и способствовали пробуждению национального сознания. А теперь попробуем проанализировать, на каком уровне сегодня находится состояние казахского театра и драматургии.

В казахских театрах достаточно спектаклей, пропагандирующих национальную самобытность зрителю. Например, в Государственном театре для детей и юношества имени Г. Мусрепова идет спектакль «Кулагер» в режиссуре Ф. Молдагали. Всем нам по литературе известен Кулагер — верный скакун Акана-сери. Поэма Ильяса Жансугурова «Кулагер» занимает особое место в казахской литературе, а спектакль «Кулагер» в инсценировке Фархада Молдагали занял собственную позицию на казахской театральной сцене. Поставленный в жанре саундрамы, этот спектакль опирается на живую музыку и шумовые эффекты, выстроен без лишних декораций. Видно, что режиссер Ф. Молдагали, работая индивидуально с каждым актером, точно определил глубинную цель образа и приложил все усилия для формирования художественной целостности постановки. Актерское мастерство Г. Байбосыновой, исполнившей образ Крылатого, в этом спектакле особенно выделяется. Она не просто играет ворона на сцене, а, используя различные голосовые резонаторы и соотнося широту своего диапазона с природой персонажа, демонстрирует подлинное мастерство.

Главного героя произведения — Кулагера — исполняет актер Максат Сабитов. Можно сказать, что этот образ он вынес на себе благодаря своей статной фигуре и гордому нраву. С момента первого выхода на сцену Кулагер привлекает внимание зрителя, а его мощное телосложение, соответствующее скакуну, и то, как он закручивает вокруг себя конюшего С. Карабалина, остаются в памяти. Песни Акана-сери «Маңмаңгер» в исполнении Е. Жаксыбека в живом сопровождении и «Шырмауык», исполненная в массовой сцене, соединившись с образом Кулагера, образуют гармоничный тандем. Такая мелодия, волнующая душу и будто придающая крылья, в данном спектакле является не только плачем Акана по утраченному Кулагеру, но и криком души на пути сохранения национальной идентичности. В этой постановке национальный код, духовное сознание веют из каждой сцены, словно ветер. От оформления сцены до каждого использованного предмета, национального инструмента — домбры, костюмов актеров, их речевых интонаций, хореографических движений в массовых сценах — всё углубляет общую сущность спектакля.

Режиссер отошел от одностороннего изображения Кулагера лишь как животного и наделил образ дикого скакуна честью и мужеством алашцев. Стихи алашцев словно даруют язык погибшему от вражеского коварства скакуну. «Треск выстрела и дождь ярко-красных подков, сыплющихся сверху, — символическое решение режиссера. Он через расстрел

Кулагера передал оборванную жизнь, пролитую кровь и прерванную песню деятелей Алаша, так и не получивших свою долю в аламан-байге» [1].

Одним из спектаклей, вынесших на сцену национальный колорит и принесших новое звучание, является «Улпан». Режиссер постановки — Г. Балпейисова. Сегодня в театрах Казахстана Г. Балпейисова ставит спектакли со своим почерком, являясь ищущим и талантливым режиссером. Роман Г. Мусрепова «Улпан» занимает особое место в казахской литературе и глубоко исследован литературоведами. Изображенная писателем Улпан — не просто невестка, подающая чай в одной семье, а мать целого народа, лидер, продолжившая путь Есеней. Чтобы вывести такой масштабный образ на сцену, режиссеру необходимы мужество и профессионализм. Ведь, как сказал А. Рахимов: «Режиссура — очень сложная профессия, требующая большой ответственности» [2, 141], — и поставить на высоком уровне произведение, имеющее значительное место в казахской классике, под силу не каждому.

Улпан — исторический персонаж. Образ воплощает актриса Толкын Нурбекова. В анализируемой нами постановке образ Улпан играют две актрисы. Молодость героини исполняет Рабина Бельгибаева, передавая эстафету Т. Нурбековой, когда героиня становится супругой Есеней. Образ взрослой Улпан насыщен психологизмом и эмоциональным интеллектом. Кажется, актриса Т. Нурбекова создана именно для этой роли. Каждое ее действие на сцене производит впечатление свободного полета, словно она парит в небе, расправив крылья. То есть на сцене она действует свободно.

Результат совместной работы режиссера и художника по костюмам отчетливо виден в спектакле. Расшитое платье и камзол Улпан, чапан и меховая шапка Есеней отражают аристократичность той эпохи. Выступление Улпан перед волостными после смерти Есеней — результат большой подготовки между персонажами. В спектакле есть слова Улпан: «Есеней, ты — байтерек, чья тень падает на дневной путь, а я — жаворонок, щебечущий в твоей тени». На это Есеней отвечает: «Нет, ты — Есеней. В этом народе, когда говорят Есеней, имеют в виду не меня, а тебя». Так наша героиня, получившая имя «Акнар», продолжает прерванный путь мужа и, выйдя к волостным в многослойной юбке с массивным поясом и в большом чапане, словно завещанном Есеней, произносит примиряющее слово в обществе, готовом к расколу. Режиссер Г. Балпейисова наполнила эту сцену такой эстетикой, что знакомый нам нежный образ Улпан на глазах превращается в великую, влиятельную женщину, несущую ответственность за целый народ. «Она не просто надевает чапан, через него она принимает судьбу народа. Есеней, как новый лидер народа, признает Улпан и передает ей семиотический ключ власти» [3].

В этом спектакле, поставленном Г. Балпейисовой, казахская самобытность и менталитет не акцентированы явно. Национальный колорит проявляется в специально заказанных дизайнерских костюмах в национальном стиле. Наблюдая постановку, приходим к выводу, что основная тема — не только замужество Улпан за Есеней и ее становление матерью народа, но и защита судьбы женщин, подавленных общественным давлением, их интересов со стороны Улпан и Есеней. Доказательство тому — сцена, где Улпан, выйдя к волостным и сказав «Так сказал Есеней», вырывает корни левирата и отстаивает права вдовы.

Кроме того, в спектакле мы стали свидетелями того, как режиссер сумела соединить казахскую классику с зарубежным рок-жанром. Мелодия «Time» группы Pink

Floyd звучит в нескольких эпизодах спектакля, а песня Майкла Джексона «Earth Song» точно сопровождает сцену злодеяния Еменалы, подчеркивая характер происходящего словами «это настоящая трагедия — невосполнимая». Следует отметить, что в спектакле «Улпан» режиссер очень удачно использовала свет и различные эффекты. Например, в сцене поджога, устроенного Еменалы, красно-желтые искры, подобные летящим углям, не только создают атмосферу, но и производят сильное впечатление на зрителя.

Указанные постановки призывают зрителя быть не просто пассивным наблюдателем, а соучастником событий. После просмотра «Кулагера» в крови каждого зрителя играет казахский дух, а спектакль «Улпан», установив тесный контакт со зрителем, разрушает стену между сценой и залом. В данной работе мы попытались проанализировать, в какой интерпретации сегодня ставятся произведения казахской классики. Как говорил К. С. Станиславский: «Нет никакой системы. Есть только природа». Несомненно, искусственный интеллект, заменяющий сегодня человека, не сможет тронуть струны души так, как эти спектакли. Мы уверены, что в будущем эти постановки войдут в золотой фонд казахского искусства. Поэтому в дальнейшем несомненно будут проводиться еще более системные аналитические исследования.

## Список использованной литературы

1. Рахимов А.С. -«Мастерство режиссера», 2015. 277 с.
2. Сарыбай М. Е.*, Еркебай А. С., Ахмет А. К. - «Керуен» | №4, том 89, 2025.
3. Турмаганбет Ж.Е. статья - «„Кулагер“ - не плакатная постановка».

**Ramilə Abdullazadə**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,*
*Teatrşünaslıq ixtisası, Bakalavriat*

# Postdramatik teatr estetikası və hibrid səhnə modeli

**Xülasə:** Məqalədə posdramatik teatr estetikası və hibrid səhnə modeli anlayışlarının ortaq və fərqli cəhətləri araşdırılır. Bu zaman posdramatik teatr estetikasının və hibrid səhnə modelinin ayrı ayrılıqda özünəməxsus xüsusiyyətləri və dünya teatrında necə həyata keçirildiyi təhlil olunur. Həmçinin dünya teatrında mühüm yer tutan sənətlə bağlı fikirlər kontekstində müasir teatr üslubu haqqında təsvir yaradılır.
***Açar sözlər:*** *teatr sənəti, sənət rejimi, performans, ritual tamaşalar, kollektiv təcrübə, enerji.*

## The Aesthetics of Postdramatic Theatre and the Hybrid Stage Model

**Abstract:** This article explores the common and distinctive features of postdramatic theatre aesthetics and the concept of the hybrid stage model. In this context, the specific characteristics of postdramatic theatre aesthetics and the hybrid stage model are analyzed separately, as well as the ways in which they are implemented in world theatre. In addition, a description of contemporary theatrical style is developed within the context of ideas related to art that hold an important place in world theatre.
***Keywords:*** *Theatre art, art regime, performance, ritual performances, collective experience, energy.*

## Эстетика постдраматического театра и гибридная модель сцены

**Резюме:** В статье исследуются общие и отличительные особенности эстетики постдраматического театра и концепции гибридной сценической модели. При этом отдельно анализируются специфические характеристики эстетики постдраматического театра и гибридной сценической модели, а также способы их реализации в мировом театре. Кроме того, в контексте идей о искусстве, занимающих важное место в мировом театре, формируется представление о современном театральном стиле.
***Ключевые слова:*** *Театральное искусство, художественный режим, перформанс, ритуальные представления, коллективный опыт, энергия.*

Fransız filosofu Jak Ransier iddia edir ki, əgər sənət tək başına mövcud ola bilirsə bunun üçün hər hansı bir şeyin ona daxil ola bilmə qabiliyyətinə borcludur. Bununla Ransier məşhur "sənət rejimi" anlayışını beynimizə diktə edir. "Sənət rejimi" sənətə kimlik verən bir tərifdir. Sənətin sözü gedən hər hansı bir şeyi səxavətlə qəbul etməsi məqamında rejim meydana çıxır. Ransier Qərb tarixində üç əsas sənət rejiminin mövcudluğunu təyin etmişdir: etik, poetik və estetik rejimlər. Etik rejim iki xüsusiyyət əsasında formalaşır. Birinci xüsusiyyətə görə, sənət nümunəsi ontoloji həqiqəti, yəni ideal bir modeli tam və doğru olaraq yansıdıb yansıtmadığına görə dəyərləndirilir. İkincisində isə sənət yansıtdığı ontoloji həqiqət ilə deyil, etik və siyasi dəyəri ilə ön plana çıxır. (Yalçın, 2019) XX əsr dünya teatrı məhz Ransierin etik sənət rejiminin ikinci

bəndini sübut edən dövr kimi inkşaf etmişdir. Bu mərhələdə yaranmış teatr formaları sənəti siyasi, sosial, ictimai məqsədlər daşıyan vasitəyə çevirmişdir.

Səhnədə mətnin müqəddəsliyini və tamaşaçının passiv mövqesini dəyişməyə çalışan alternativ təfəkkür sahibləri Qərb teatrını geri dönüşü olmayan bir yola başlatdı. 1960-cı illərdən etibarən dağıdıcı, anarxist ruhlu, mövcud institutlara, dəyər sistemlərinə və ictimai diskurslara qarşı çıxan avanqardlar şəhər meydanları və ictimai məkanları karnavalesk ovqatla işğal edərək, mövcud olana müdaxilə etdi və onun yenidən formalaşdırılması üçün təhrikedici addımlar atdı. Məhz bu axın özü ilə dünya teatrında məşhurlaşmış bir çox teatr formalarını gətirdi ki, onlardan biri də postdramatik teatr adlanır. Postdramatik ifadəsi hərfi mənada "dramdan sonra" kimi anlaşılır. Bu forma üsyankar bir dövrün nəticəsi olmasına baxmayaraq anti-dram kimi anlaşılmamalıdır. Hans-Tis Leman belə yazır: "Postdramatik sifət – teatrda dramaturgiya paradiqmasının qəbul olunmuş nüfuzundan - sonra gələn dövrdə özünü dramaturgiyadan kənar fəaliyyət göstərmək səlahiyyətinə sahib bilən teatra tətbiq olunur. Bu, əsla mücərrəd inkar, dramaturji ənənədən sadəcə üz döndərmək istəyi kimi qəbul olunmamalıdır. Dramdan sonra o deməkdir ki, normal teatrın strukturu kimi, lakin zəifləmiş və etimadını itirmiş struktur kimi dramaturgiya qalmaqdadır". (Leman, 2022)

Posdramatik teatrın ifadə vasitəsi bədən dilidir. Bədən dili insanlar arası ünsiyyətin ilkin qatını təşkil edir. Dil meydana gəlməzdən əvvəl insan jest və hərəkət vasitəsi ilə qorxunu, sevinci ifadə edirdi. Dillər yarandı və insanları bir-birindən ayırdı. Çünki heç bir dil universal deyil. Amma bədən dili universaldır. İnsan anadangəlmə öz dili ilə doğulur - bədən dili ilə. Bu, insanın genetik kodunda belə qurulub. Heyvanların bir situasiya halında etdikləri hər hansı bir hərəkəti instinktlə əlaqələndiririk. Amma insanın bədən dilində instinktlə hərəkətə keçən çox az şey var ki, bunlar da instinkdən daha çox refleksdir. Yəni bədən dilinin ifadə etdiyi məna düşünülmüş və məntiqli hərəkətin təzahürüdür.

Teatrda isə bu məqam tam sistemləşdirilir. İnsan bədəni hisslərin, ifadələrin tərcüməçisinə çevrilir. Çünki oynamaq istedadı hər kəsdən öncə insana məxsusdur. Oynamaq hiss və ağılın balanslaşdırılmış nümunəsidir. Burada istər söz olsun, istər olmasın. Lakin posdramatik teatrın nümayəndələri belə düşünür ki, bədən dili özünüifadə üçün daha əlverişlidir. Ənənəvi teatrda tamaşanın mərkəzində dram dayanır. Burada artıq hər şey planlaşdırılıb. Posdramatik teatr bu strukturun çox sabit və sərt olduğunu düşünür. Müasir səhnə sənəti isə daha sərbəst və çoxşaxəli ifadə formaları tələb edir.

Posdramatik teatr klassik teatrda dramaturgiyanın qurduğu iyerarxiyanı dağıdır. Bu teatrın tamaşası fraqmentar və qeyri-xətti zaman quruluşuna malikdir. Bu quruluş hibrid səhnə performansının nümunəsi kimi meydana çıxır. Çünki tamaşa bir çox elementin səhnədə birbaşa və real sintezi nəticəsində yaranır. Hibrid səhnə modelində struktur elastikdir. Baş verən hadisə zaman, məkan və ya yansıtdığı həqiqət baxımından qaydalara, formaya tabe olmur. Məhz bu fakt etik sənət rejimini sübut edir. Sənət nümunəsi ontoloji həqiqəti düzgün yansıtmasına görə yox, etik və ya siyasi dəyəri ilə qiymətləndirilir.

Teatrın yarandığı ilk zamanlardan indiyə qədər Şərq mədəniyyətində oynanılan ritual tamaşaları xatırlayın. Həmin tamaşalar miflər əsasında qurulurdu. Adı üzərində, bu, mifdir. Yəni ontoloji həqiqəti düzgün yansıtmır, ritual tamaşası daşıdığı etik və ilahi dəyər ilə qiymətləndirilir. Posdramatik teatrın bir çox elementləri onu ritual tamaşalarına yaxınlaşdırır. Məsələn, kollektiv performans, ritmik və repetitiv hərəkətlər, bədənin əsas ifadə vasitəsinə çevrilməsi, məkan və zaman dəyişkənliyi və sairə.

Posdramatik teatrda tamaşanın əsas məqsədi hekayə danışmaqdan çox, tamaşaçı ilə canlı təcrübə yaratmaqdır. Ritual tamaşalarının əsas xüsusiyyətlərindən biri isə tamaşaçı ilə iştirakçı arasında sərhədin itirilməsidir. Bu tamaşalarda mətn və ya süjet əsas rol oynamır, əksinə performativ aktın özü estetik və sosial məna yaradır. Leman isə qeyd edir ki, posdramatik teatr tamaşası dramaturji süjetə əsaslanan strukturdan uzaqlaşaraq səhnəni performativ hadisə kimi təqdim edir. Hibrid səhnə modeli isə bu performativ yanaşmanı daha da genişləndirərək müxtəlif incəsənət formalarının və müasir texnologiyaların səhnə quruluşunda sintezini təmin edir. Bu modeldə teatr, performans sənəti, rəqs, musiqi və multimedia elementləri paralel şəkildə fəaliyyət göstərir. Belə struktur müəyyən mənada ritual tamaşalarının çoxkomponentli quruluşunu xatırladır. Həmçinin, XX əsrdə yaşamış Antonen Arto, Yeji Qrotovski kimi teatr reformatorları yaratdıqları teatr formalarının əsasını Şərqin bənzərsiz ritual tamaşalarından almışlar. Bu tendensiya teatrın yalnız dramaturji mətnə əsaslanan strukturdan çıxaraq performativ və kollektiv təcrübə forması kimi inkşaf etməsinə səbəb olmuşdur.

Posdramatik teatrın ən məşhur nümunələrindən olan “Eynşteyn sahildə” tamaşasına nəzər yetirək. Tamaşa 1976-cı ildə posdramatik teatrın nümayəndəsi rejissor Robert Vilson və məşhur bəstəkar Filip Qlass tərəfindən hazırlanmışdır. Bu tamaşanın müddəti beş saatdır və fasiləsiz davam edir. Tamaşaçıların bu müddət ərzində tamaşa zalına istədikləri vaxt daxil olub çıxmasına icazə verilir. Tamaşa məşhur fizik Albert Eynşteyn obrazının skripkada ifa etdiyi sakit və ritmik musiqi ilə başlayır. Bəstəkar Filip Qlass tərəfindən yaradılmış musiqi təkrarlanan melodik motivləri və ritmik strukturu ilə tamaşaçını cəlb edir.

Tamaşa ardıcıl baş verən hadisələrdən yox, ayrı-ayrı epizodlardan ibarətdir. Lakin bu epizodların hər biri ayrı-ayrılıqda simvolik məna daşıyıcısıdır. Məsələn, qatar səhnəsi texnoloji inkşaf və zamanın sürətlənməsi, məhkəmə səhnəsi rasional düşüncə və sosial nizam, kosmik səhnələr isə kainat və zaman anlayışının genişlənməsi kimi anlaşılır. (Perron, 2012) “Eynşteyn sahildə” tamaşası səhnəni kompleks performativ məkan kimi təqdim edir. Bu teatr modelində məkan dəyişməz struktur kimi təqdim olunmur. Performans prosesində işıq, səs, texnologiya və bədən hərəkətləri ilə vasitəsi ilə məkanın atmosferi və semantik yükü dəyişir. Məkanın bu dinamizmi ənənəvi teatrın illüziya prinsipini pozur. Leman yazır ki: “Posdramatik teatrda səhnə məkanı dramatik hadisənin təsviri olmaqdan daha çox performansın baş verdiyi enerji sahəsinə çevrilir.” (Leman, 2022) Alman teatr nəzəriyyəçisi Erika Fişer Lixte isə belə qeyd edir: “Performansın estetikası tamaşaçı ilə səhnə arasında yaranan qarşılıqlı enerji dövranı ilə müəyyən olunur.” (Lichte, 2008) Ənənvi teatrın illüziyasını pozan, tamaşaçını aktivləşdirən məhz enerjidir. Posdramatik teatr konteksində enerji aktyor, tamaşaçı və məkan arasında yaranan qarşılıqlı təsirin yaratdığı estetik və emosional instensivliyi ifadə edən metaforik kateqoriyadır.

Posdramatik teatrda enerji dedikdə əsasən üç komponent arasında yaranan dinamik qarşılıqlı təsiri nəzərdə tutmaq olar: aktyorun fiziki və emosional ekspresiyyası, tamaşaçının reaksiyası, məkanın yaratdığı atmosfer və sensor mühit. Erika Fişer Lixtenin fikrincə, aktyor və tamaşaçı arasında baş verən qarşılıqlı reaksiya prosesi performansın canlı “enerji dövranını” yaradır. Bu dövrədə aktyorun hərəkəti tamaşaçıda reaksiya doğurur, tamaşaçının reaksiyası isə aktyorun performansını dəyişdirir. Tamaşaçını baxan və düşünən subyekt adlandıran Jak Ransier, onun gördüyünü öz təcrübəsi ilə əlaqələndirərək yeni mənalar yaratdığını deyir. (Ranciere, 2008) Qədim hind teatrında belə bir anlayış var: “Ananda”. Tamaşaçı tamaşada təqdim olunmuş emosional vəziyyəti-rasanı estetik təcrübə kimi yaşayır və bu təcrübə ilə ruhani bir hiss yaşayır ki,

bu ananda vəziyyəti adlanır. (Talıbzadə, 2019) Doğrudur , qədim hind tamaşaları ilahi konteksdə anlaşıldığından dolayı müqayisə bir qədər düzgün deyil. Amma hər halda bənzətmək mümkündür.

Nəticə etibari ilə, enerji mübadiləsini yaradan birinci şərt posdramatik teatrın məkan sərhədlərinin, səhnə məhrəmiyyətinin tamaşaçı tərəfindən pozulmasıdır. Bizim pozulma və ya dağılma kimi mənfi alt mənalı feillərlə ifadə etdiyimiz bu hallar tamaşaçı və tamaşa arasında real ünsiyyəti yaradan faktorlardır. Ənənəvi teatrın ulduzlar sistemi bu mübadilənin qarşısını alır. Tamaşaçı üçün səhnə məkanı və aktyorlar toxunulmaz hesab olunur. Bu halda tamaşaçı ilə münasibətə daxil olmaq şansı sıfıra bərabərdir.

Sözü gedən məkan modelini çağdaş teatrda hibrid səhnə modeli adlandırırıq. Hibrid səhnə modeli XX əsrdə interaktiv və eksperimental teatrların fəaliyyəti sayəsində formalaşmışdır. Bu prosesə ən çox təsir göstərənlərdən biri braziliyalı rejissor və nəzəriyyəçi Augusto Boal olmuşdur. Boal teatrda yaradılan sərhədləri yıxıb və yeni yaradıcılıq imkanları üçün geniş üfüqlər açmışdır. Boalın yaradıcılığı sözün əsl mənasında inqilabdır. Boalın yaratdığı model istənilən səhnə performansı üçün başlanğıc rolu oynaya bilər.

Çağdaş teatrda hibrid səhnə geniş olaraq yayılmışdır. Çünki müasir texnologiyaların geniş istifadə imkanları bu modelin qurulması üçün şərait yaradır. Həm teatr dünyasında, həm də tamaşaçı kütləsində yaranan ehtiyac da modeli dəstəkləyir. Necə ki, XX əsrin sonlarına qədər tamaşalar nümayiş etdirdiyi siyasi ideologiyalarla rəqabət aparırdısa, çağdaş teatr dünyasında rəqabət fərqli və ən fərqli arasındadır. Bu rəqabətə qoşulmaq üçün klassik teatrın imkanları məhduddur. Məhz bu məqamda hibrid səhnə modeli adlı kompleks bir anlayış ortaya çıxır. Bu, tamaşanı ərsəyə gətirən rejissora heç bir qayda-qanun olmayan yaradıcılıq mühiti bəxş edir. Rejissor teatrı üçün bu qaçılmaz fürsətdir. Ənənəvi dramatik teatrda dramaturji mətn əsas struktur elementdir və səhnə quruluşunun bütün komponentləri mətnin interpretasiyasına xidmət edir. Hibrid səhnə modelində mətn dominant rolunu itirir və səhnə quruluşunun digər komponentləri ilə bərabər səviyyədə fəaliyyət göstərir. Bu səbəbdən tamaşada hadisə müxtəlif elementlərin qarşılıqlı təsiri nəticəsində formalaşır.

Nəticədə, adətən posdramatik teatrın tamaşasını hibrid səhnə modeli adlandıra bilərik. Amma hibrid səhnə modelində qurulmuş hər tamaşa posdramatik teatr nümunəsi demək deyil. Posdramatik teatr öz estetik prinsipləri olan teatr növüdür. Hibrid səhnə modeli isə istənilən teatr növündə qurulmuş kompleks tamaşalara verilən addır. Həmçinin, posdramatik teatr növünün öz həqiqəti var: söz artıq qüdrətini itirib, həm də yalnız teatrda yox, dünyamızda.

Şah İsmayıl Xətai belə yazırdı: “Söz vardır kəsdirər başı, söz vardır kəsər savaşı”. Müasir dünyamızda heç bir söz nə başı nə savaşı kəsmir. Çünki, informasiya ilə dolub daşan bir dünyada yaşayırıq. Belə olduqda həqiqətə çatmaq imkansızlaşır. İfrat dərəcəsinə gəlib çıxmış məlumat bolluğuna görə gerçək və yalanı bir birindən ayırd etmək mümkünsüzləşir. Həmçinin, istənilən məlumatın əlçatanlığı onu dəyərsizləşdirir. Bu həm də məlumatı verənin kimliyindən asılıdır. Məsələn, qədim zamanlarda hökmdara yaxın olan kimsənin cəmiyyətlə bağlı verdiyi məlumat dəyərli və doğru hesab olunardı. Bu dəyəri və həqiqiliyi məlumatın özü yox, onu verən şəxsin kimliyi dəyərləndirirdi. Həmçinin, həmin şəxsin təkrarsız olması məsələsi də var. Müasir dünyamızda məlumat da, bu məlumatı verən mənbə də dəyərsizdir. Çünki bir çox təkrarı mövcuddur. Məlumatı əldə edənin seçim haqqı var və mənbə çoxaldıqca seçim haqqı da artır. Seçim haqqı çoxaldıqca insan gerçəklikdən uzaqlaşır. Bu hal cəmiyyətdə kollektiv delüziya yaradır. Əgər gerçək yoxdursa, mütləq şəkildə onu əvəz edəcək yalana ehtiyac var. Kütlə həmişə

vədlə, yəni yalanla idarə olunur. Belə bir cəmiyyətdə söz nəyi dəyişə bilər? Öz xəyali gerçəkliyi ilə yaşayan cəmiyyəti yalnız başqa bir yalana inandırmaq olar.

Posdramatik teatr isə yalan danışmaqdan imtina edir. Yalan danışmaq əvəzinə danışmamağı seçir. Martin Haydeggere görə insan "dasein"dir, yəni dünyada var olan öz varlığını dərk edən varlıq. Dil yəni danışmaq vasitəsi ilə insan öz varlığına yer açır. Çünki, Haydeggere görə insan dünyaya atılan və varlığını yaradan varlıqdır. (Haydegger, 2018) İnsanlığın ən böyük problemi var oluş böhranını bitirə bilməməkdir. Amma bu böhran da insanın gerçəkliyə çata bilməməsindən yaranır. Mən həqiqətən indi buradayam? Mən indi burada olmalıyam? Bəs siz necə, buradasınız? Kim bilir? Mən bilmirəm, siz bilmirsiniz, onlar heç bilmək də istəmir. Bax belə bir dünyada söz kəsməz başı, kəsər aşı, yaşı, yaşamı. Belə bir dünyada söz kəsməz savaşı, kəsər yazı, qışı, payızı. Məhz elə bu dünyada "danışmaq gümüşdürsə, susmaq qızıldır".

**Nəticə**

Nəticə etibarı ilə, posdramatik teatr çağdaş teatr dünyasının ən çox müraciət olunan formalarından birinə çevrilmişdir. Hibrid səhnə isə eksperimental teatrlar üçün ən əhəmiyyətli modeldir. Həmçinin hibrid səhnə modeli bir çox teatr növlərində istifadə üçün səmərəlidir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Haydegger, M. (2018). Varlık ve zaman. istanbul: alfa.
2. Leman, H. T. (2022). Posdramatik teatr. Bakı: Admiu nəşriyyatı.
3. Lichte, E. F. (2008). The tranformative power of performance:a new aesthetics. new york: digital printing.
4. Perron, W. (2012). Einstein on the Beach: Less Eccentricity But Still Transporting. dance magazine.
5. Ranciere, J. (2008). The emancipated spectator. new york: verso.
6. Talıbzadə, A. (2019). Şərq teatr tarixi. Bakı: şərq qərb.
7. Yalçın, E. (2019). Postdramatik ve Çağdaş Alman Tiyatrosu.

**Gülbadam Bəşirova**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,*
*Mədəniyyətin tarixi və nəzəriyyəsi ixtisaslaşması, Magistrant*

# Çağdaş teatrda musiqi və səs dizaynının dramaturji funksiyası

**Xülasə:** Bu məqalə, müasir teatrda musiqi və səs dizaynının dramaturji funksiyalarını araşdırır. Musiqi və səs, təkcə fon elementləri deyil, daha çox tamaşanın ritmini, emosional tonu və quruluşunu formalaşdıran əsas vasitədir. Məqalədə klassik və müasir teatr ənənələri müqayisəli şəkildə təhlil edilir. Müasir nümunələr, o cümlədən "Döyüş atı" və "İtin gecə vaxtı maraqlı hadisəsi" tamaşalarında dramaturji məqsədlər üçün səs, texnologiyadan necə istifadə olunduğunu göstərir. Məkan, zaman və personajın daxili dünyasının ifadəsində səsin rolu izah edilir, qarşılıqlı və immersiv texnologiyaların tamaşaçı ilə əlaqəni necə gücləndirdiyi müzakirə edilir. Məqalədə dramaturji funksiyanı dəstəkləyən innovativ yanaşmalar kimi süni intellektin və elektron musiqi alətlərinin tətbiqinə də toxunulur. Nəhayət, musiqi və səs dizaynı müasir teatrda emosional, struktur və simvolik enerji təmin edən mühüm dramaturji elementlər kimi təqdim olunur.
***Açar sözlər:*** *musiqi, səs dizaynı, dramaturgiya, struktur, emosional əlaqə, texnologiya.*

## The Dramaturgical Function of Music and Sound Design in Contemporary Theatre

**Abstract:** This article examines the dramaturgical function of music and sound design in contemporary theatre. The author emphasizes that sound and music are not just background elements, but also key tools that shape the rhythm, emotional tone and structure of a performance. Studies such as "War Horse" and "The Curious Incident of the Dog in the Night-Time" shows how sound and technology are used for dramaturgical purposes. The role of sound in conveying the inner world of a character, space and time, as well as the use of interactive and immersive technologies to enhance audience engagement, are discussed. Innovative approaches using electronic and artificial intelligence-supported music as dramaturgical support are also considered. Finally, music and sound design are presented as essential elements that provide emotional, structural and symbolic energy to contemporary theatre.
***Keywords***: *music, sound design, dramaturgy, structure, emotional connection, technology.*

## Драматургическая функция музыки и звукового дизайна в современном театре

**Резюме:** В данной статье рассматривается драматическая функция музыки и звукового оформления в современном театре. Подчеркивается, что звук и музыка являются не просто фоновыми элементами, а основными средствами формирования ритма, эмоционального настроя и структуры спектакля. Примеры пьес «Боевой конь» и «Загадочное происшествие с собакой в ночное время» демонстрируют использование звука и технологий в драматических целях. Рассматриваются функции звука в передаче внутреннего мира персонажей, пространства и времени, а также использование интерактивных и иммерсивных технологий. Обсуждаются инновационные подходы, использующие электронные технологии и технологию искусственного интеллекта для поддержки драматической функции. Музыка и звук рассматриваются как ключевые элементы, обеспечивающие эмоциональную, структурную и символическую энергию.

***Ключевые слова:*** *музыка, звуковое оформление, драматургия, тишина, структурный элемент.*

**Giriş**

Teatrın inkişafı ilə musiqi və səs tərtibatı tamaşaların yalnız dekorativ elementi olmaqdan çıxıb, onların dramaturji quruluşunda mərkəzi rol oynamağa başlayıb. Müasir tamaşalarda səs və musiqi tamaşanın ritmini, emosional tonu, məkan-zaman kontekstini formalaşdıran əsas vasitələrə çevrilir. Texnologiyanın teatr proseslərinə inteqrasiyası musiqi və səs dizaynı üçün yeni imkanlar açır, tamaşaçıların səhnə ilə daha qarşılıqlı, immersiv münasibət qurmasına şərait yaradır. Bu məqalənin məqsədi müasir teatrda musiqi və səs tərtibatının dramaturji funksiyalarını araşdırmaq, onların tamaşaçı ilə emosional-mənəvi əlaqəni necə gücləndirdiyini təhlil etməkdir. Tədqiqat zamanı analitik və müqayisəli üsullardan istifadə etməklə klassik və müasir teatr ənənələrində musiqi və səsin funksional rolu, konkret ifaçılıq nümunələri araşdırılacaq. Müasir teatr sahəsində musiqi və səs tərtibatı fon yaratmaq vasitəsi olmaqla yanaşı, tamaşanın dramaturji quruluşunu formalaşdıran, onun emosional ritmini müəyyən edən, tamaşaçı ilə mənəvi əlaqə yaradan əsas elementlərdən birinə çevrilib. Texnologiyanın sürətli inkişafı və interaktiv teatr yanaşmaları musiqi və səslərin dramaturji funksiyalarını daha da vurğulayır, onları tamaşanın məzmunu və ideyası ilə sıx inteqrasiya edir. Bu səbəbdən müasir teatrda musiqi və səs dizaynının rolu və istifadəsi aktualdır və öyrənilməyə layiqdir. Müasir teatr sahəsində musiqi və səs tərtibatı fon yaratmaq vasitəsi olmaqla yanaşı, tamaşanın dramaturji quruluşunu formalaşdıran, onun emosional ritmini müəyyən edən, tamaşaçı ilə mənəvi əlaqə yaradan əsas elementlərdən birinə çevrilib. Texnologiyanın sürətli inkişafı və interaktiv teatr yanaşmaları bu funksiyaları daha da vurğulayaraq, səs və musiqi vasitələrini tamaşanın məzmunu və ideyası ilə sıx inteqrasiya etməyə imkan verir. Bu baxımdan müasir teatrda musiqi və səs tərtibatının rolu nəzəri, təcrübi cəhətdən aktualdır, öyrənilməyə layiqdir.

Tədqiqatın nəticələri musiqi və səs tərtibatının dramaturji funksiyalarını daha yaxşı anlamağa, tamaşa yaradıcıları, səs tərtibatçıları üçün metodiki tövsiyələr formalaşdırmağa, müasir teatrın inkişaf perspektivlərinə yeni yanaşmalar təqdim etməyə imkan verəcək. Beləliklə, bu mövzu təkcə teatr nəzəriyyəsi üçün deyil, tamaşa yaradıcıları üçün mühüm rəhbər və stimul mənbəyi rolunu oynayır.

**Çağdaş teatr kontekstində musiqi və səs dizaynı**

Müasir teatrda səs tərtibatı səhnədə səslənən fon və musiqi deyil, dramaturji məna daşıyan, tamaşa ilə emosional əlaqə yaradan elementdir. Səs tərtibatçısı tamaşanın ritminə, abu-havasına və gərginliyinə nəzarət etməklə tamaşaçıların diqqətini yönəldir. Müasir prinsip kimi, səs dizaynı interaktiv və adaptiv olmalıdır. Yəni tamaşadakı hər bir səhnə və hər bir personaj üçün fərqli təcrübə təmin etməlidir. Eyni zamanda, səsin dramaturji funksiyasının əsasında emosional və struktur inteqrasiya dayanır - səs sadəcə bəzək elementi olmamalı, dramaturgiyanın tərkib hissəsi olmalıdır. Teatrda səsin və musiqinin funksiyaları tarix boyu inkişaf etmişdir. Klassik inkişaf ritmik və melodik fon kimi musiqi üzərində qurulmuş, onun dramaturji istifadəsini məhdudlaşdırmışdır. XIX-XX əsrlərdə personajların daxili aləmini əks etdirmək, güc və tamaşanın strukturunu yaratmaq üçün səsdən istifadə olunmağa başlandı. Müasir teatrın inkişafı texnologiyanı daha dinamik elementə çevirib, tamaşaçılarla səs-küylü emosional əlaqə yaratmaq imkanlarını artırıb.

Müasir teatrda səs tərtibatı dramaturgiyanın mərkəzinə keçir: səhnə keçidləri, kulminasiya məqamları, personajın daxili psixoloji vəziyyəti səslə vurğulanır.

Hətta, keçmişə gedib, türk teatr düşüncəsinin köklərinə nəzər salsaq, qədim quruluşlarda və ritual-mifoloji strukturlarda musiqinin mühüm rol oynadığı aydın olur. Mifoloji simvollarla dolu rituallarda bir neçə sözdən ibarət olanlar da xüsusi simvolik məna daşıyırdı. "Türk bədii təfəkkürünün parlaq nümunəsi olan yuğ mərasimlərində Oğuznamə və dastanların səhnələşdirilməsində də musiqidən geniş istifadə olunur. Qədim insanlar inanırdılar ki, musiqi səsləri və qədim musiqi alətlərinin özünəməxsus tembri ifaçıları, eləcə də dinləyiciləri zaman-məkan hüdudlarından uzaqlaşdırır, onları ifaların, bədii obrazların sehrli dünyasına aparır" [Əfəndiyev, T., 2014, s.6].

Musiqi və səs tamaşada gərginlik, həyəcan, sakitlik, rahatlıq yaratmaqla personajların daxili aləminin dramatik təzahürünü tamaşaçılara çatdırır. Bu funksiyada musiqi tamaşanın emosional tonunu müəyyən edir və tamaşaçının hisslərinə istiqamət verir. Musiqi və səs mənalı daşıyıcı funksiyasını yerinə yetirir. Bu funksiyada onlar dramaturji mesajın, tamaşanın əsas ideya və mövzularının tamaşaçılara çatdırılmasında vasitəçi kimi çıxış edirlər. Mövzular və motivlər simvolik olaraq leytmotivləri, personajları yaxud vəziyyətləri təmsil edən musiqi vasitəsilə kodlaşdırılır.

Struktur funksiyası səhnə keçidlərini, dramatik kulminasiyaları və gərginlik nöqtələrini vurğulamaqda musiqinin rolunu əhatə edir. Musiqi və səs tamaşanın ritmini və tempini idarə edir, bölmələr arasında harmonik, emosional uyğunluğu təmin edir. Bu, tamaşanın dramaturji düzənini qorumağa, səhnələrin axıcılığını təmin etməyə xidmət edir. Nəhayət, simvolik və estetik funksiyalar musiqi , səs vasitəsilə təsvirlərin, mövzuların, dramatik hadisələrin simvolik ifadəsini təmin edir. Eyni zamanda, estetik funksiyasına görə vizual və eşitmə harmoniyası tamaşaçıya təqdim olunur. Musiqi məcazi mənalar daşıya bilir, tamaşanın ümumi estetik təsirini artırır. Leytmotiv funksiyası da böyük əhəmiyyət kəsb edir. Müəyyən musiqi motivinin konkret obrazla əlaqələndirilməsi onun daxili aləminin açılmasına kömək edir. Səsin tembri, intonasiyası, ritmik quruluşu personajın psixoloji vəziyyətini ifadə edə bilir. Təsvirin çevrilməsi çox vaxt musiqi materialının dəyişməsi ilə paralel həyata keçirilir. Bu üsul operada da daha aydın görünür, lakin dramatik teatrda isə incə formada istifadə olunur. Musiqi və səs semantik funksiya daşıyır, mətndə birbaşa ifadə olunmayan mənaları açır. Onlar istehza effekti yarada, vizual və mətn qatlarını əks etdirə, gizli ideyanı vurğulaya bilərlər. Məsələn, faciəvi hadisənin fonunda şən musiqinin səslənməsi tamaşaçıda təşviş və ikiqat məna yaradır. Bu zaman musiqi hadisəni izah etmir, onu şərh edir, bəzən tənqid edir.

Məkan və zamanın qurulmasında səs dizaynının rolu xüsusilə nəzərə çarpır. Tarixi dövrün musiqi xüsusiyyətləri, mühit səsləri, şəhər və ya təbii akustika səhnənin coğrafi və temporal çərçivəsini müəyyən edir. Minimalist səhnə həllində səs çox vaxt dekor funksiyasını yerinə yetirir. Bu halda səs sadəcə fon deyil, məkanın özüdür. Sükut ən güclü dramaturji vasitələrdən biridir - pauza yaradır, diqqəti cəmləşdirir və emosional boşluq effektini formalaşdırır.

Deməli, musiqi və səs dramaturgiyada dekorativ element deyil. Onlar struktur, məna, emosional enerji və ritm yaratmaq üçün əsas vasitələrdir. Düzgün qurulduqda dramaturji effekti artırır, düzgün istifadə olunmayanda isə tamaşanın ideoloji bütövlüyünü zəiflədir.

## Texnologiya və novator yanaşmalar

Texnologiya və innovativ yanaşmalar səhnədə səs və musiqi üçün yeni imkanlar açır. Səsin interaktiv və immersiv istifadəsi tamaşada məkan ilə tamaşaçı arasında sıx əlaqəni təmin edərək, tamaşaçıda özünü səhnə ilə əlaqədə hiss edir. Bu yanaşmada səs effektləri təkcə fon kimi deyil, dramaturji alət kimi istifadə olunur. Elektron musiqi və müasir səs texnologiyaları teatrda yeni imkanlar təklif edir.

Rejissor və səs tərtibatçısı arasında əməkdaşlıq bu prosesdə mərkəzi rol oynayır. Yaradıcı proses, dramaturji qərarlar və texnoloji tətbiqlər performansın, texniki cəhətdən uyğun, effektiv olmasını təmin etmək üçün birləşir. Səs və texnologiyanın vəhdəti teatrda estetik, dramaturji dəyəri artırır. Rəqəmsal audio proqramları və canlı səs emal sistemləri səhnədə real vaxt rejimində nəzarəti mümkün edir. Bu o deməkdir ki, səs artıq sabit, əvvəlcədən yazılmış material deyil, performansın bir hissəsinə çevrilir. Müasir tamaşalarda istifadə olunan proqram təminatı vasitəsilə səhnənin ritminə uyğun musiqi dəyişdirilir, elektron effektlərlə aktyorun intonasiyası və ya nəfəsi dəyişdirilir. Beləliklə, səs illüstrasiya deyil, hadisənin gedişatına mane olan dramaturji faktora çevrilir.

Misal olaraq, 2007-ci ildə Londonda ilk dəfə təqdim olunan “War Horse” (“Döyüş atı”) müasir teatrda musiqi və dramaturji imkanlarını nümayiş etdirən mühüm nümunələrdən biridir. Bəstəkar Adrian Sutton xatirələrində qeyd edir ki, “tamaşanın ilkin məşqi zamanı əsl at təəssüratı yaradan kukla konstruksiyası ilə qarşılaşma layihənin estetik istiqamətini müəyyən edən məqamlardan biri idi. Bu vizual realizm musiqi və səslə tamamlanmalı idi” [Sutton, A., 2007]. Dramaturgiya baxımından iki paralel musiqi gedişi formalaşdırır: İlk olaraq, xalq musiqisindən istifadədir və bu Birinci Dünya Müharibəsi illərində Devon bölgəsinin xalq mahnıları üzərində qurulmuşdur. Bu istiqamətdə tarixi folklor materialları səhnə kontekstinə uyğunlaşdırmışdır. İkinci isə, Simfonik musiqinin roludur – Maler, Ştraus, Elqar və 20-ci əsrin əvvəllərinin digər bəstəkarlarının estetikası ilə səsləşən epik və kino musiqi dilidir. Burada əsas dramaturji yenilik ondan ibarətdir ki, musiqi tamaşaçıların reaksiyasını artırmaq üçün deyil, çox vaxt personajların daxili qorxu, çaşqınlıq və ümidsizlik vəziyyətini akustik şəkildə açmaq üçün istifadə olunur. Məsələn, səhnələrin birində orkestrin qəhrəmanlıq pafosu əvəzinə yüksək registrli, dissonans simli gedişlər vasitəsilə qorxu atmosferinin yaradır. Tamaşada leytmotiv prinsipi mühüm struktur rolunu oynayır. Baş rolun xarakterini əks etdirən truba motivi müxtəlif kontekstlərə çevrilir. Bu üsul tamaşa boyu semantik əlaqələri gücləndirir. Beləliklə, “Döyüş atı” tamaşasında səs və musiqi: kukla teatrının realizmini artırır, dramaturji məna qatlarını genişləndirir. Bu tamaşa göstərir ki, texnologiya və musiqi teatrda məqsəd deyil, quruluş və məna yaradan alətdir. Burada səs dizaynı illüstrasiya funksiyasını aşır və hadisənin dramatik daşıyıcısına çevrilir.“Müharibə səhnələrində zərb alətlərinin sərt tembrləri, mexaniki səslər yeni texnologiyanın, xüsusən də pulemyot və tankların insan və at üzərində hökmranlığını simvollaşdırır” [Morpurgo, M., 2010, s. –]. Bu, Birinci Dünya Müharibəsinin texnoloji qəddarlığını dramaturji səviyyədə eşidilir edir. Ən mühüm dramaturji nailiyyət kukla ilə səs arasındakı əlaqədir. Kuklaların “canlı” görünüşü təkcə hərəkətlərin xoreoqrafiyası ilə bağlı deyil, nəfəs alma, uğultu, ayaq səsləri və ritmik hərəkətlərin akustik dəqiqliyi tamaşaçıların inamını artırır. Kukla üç aktyor tərəfindən idarə olunsa da, tamaşaçı mexanizm yox, varlıq görür. Bu effekt səssiz mümkün deyil. Nəticə olaraq, “Döyüş atı” müasir teatrda texnologiyanın məqsəd deyil, dramaturji vasitə olduğunun parlaq nümunəsidir. Səs dizaynı müharibənin texnoloji dəhşətini eşidilən edir. Kukla teatrına “canlılıq” verir. Emosional ritmi strukturlaşdırır.

Digər misal kimi "The Curious Incident of the Dog in the Night-Time" ("İtin gecə vaxtı maraqlı hadisəsi") tamaşasını göstərmək olar. "Burada elektron musiqi və ritmik təkrarlar personajın daxili aləmini əks etdirir, tamaşaçını onun emosional vəziyyəti ilə tanış edir. Virtual akustika və səs effektləri tamaşada atmosfer yaradır, tamaşaçı ilə məkan arasında əlaqə yaradır. Burada əsas yenilik texnologiyanın dramaturgiyaya inteqrasiyasıdır" [Wikipedia, 2026]. Səhnə versiyasında səs dizaynı obrazın - Kristoferin duyğu həssaslığını ifadə etmək üçün istifadə olunur. Qatar səhnələrində, metro keçidlərində və izdiham səhnələrində səs qəsdən gücləndirilir: ritmik təkrarlar, metal səsləri, işığın qəfil dəyişməsi və artan akustik gərginlik tamaşaçını onun zehni yükünə qərq edir. Tamaşaçı hadisəni "eşitmir", ancaq Kristofer kimi yaşayır. Əsərin əsas mövzusu "autizm haqqında hekayə" deyil, fərqlilik və sosial uyğunlaşmadır. Bu mənada səs dizaynı sosial xaosla fərdi məntiq arasında ziddiyyət yaradır. Xarici dünya xaotik və səs-küylüdür. Kristoferin daxili dünyası strukturlaşdırılmış və riyazidir. Dramaturji konflikt məhz bu iki akustik sistem arasında yaranır.

Bu nümunələrlə görürük ki, məkan səs texnologiyaları dramaturji düşüncəni də dəyişir. Çoxkanallı akustik sistemlər tamaşaçını səhnənin kənar müşahidəçisindən hadisənin içində olmağa aparır. Səsin müxtəlif istiqamətlərdən hərəkəti psixoloji gərginlik yaradır, təhlükə və ya xaos hissini gücləndirir. Son illərdə süni intellektə əsaslanan musiqi nəsil sistemləri də teatr mühitinə daxil olmağa başlayıb. Alqoritmik kompozisiya ifanın tempinə və emosional vəziyyətinə uyğun olaraq real vaxt rejimində musiqi yarada bilir. Ancaq burada ciddi bir risk var: yaradıcı nəzarət zəifləsə, nəticədə mexaniki və emosional dərinlik olmaya bilər. Süni intellekt dramaturji qərarların qəbulunu əvəz etməməli, əksinə onu dəstəkləməlidir. Digər tərəfdən, innovasiya heç də həmişə texnoloji həddindən artıqlıq demək deyil. Minimalist yanaşma və sükutdan dramaturji istifadə də müasir teatrın mühüm istiqamətlərindəndir. Beləliklə, müasir teatrda texnologiya musiqi və səs dizaynının imkanlarını genişləndirir, lakin onun dramaturji funksiyası təkcə texniki yeniliklərlə müəyyən edilmir. Əsas məsələ səsin tamaşanın strukturuna necə inteqrasiyası, ideyaya, konfliktə nə dərəcədə xidmət etməsidir. Texnologiya məqsəd deyil, bir vasitədir, dramaturji məntiq əsas meyardır.

**Nəticə**

Tədqiqat göstərir ki, müasir teatrda musiqi və səs tərtibatı təkcə dekorativ element kimi deyil, dramaturgiyanın tərkib hissəsi kimi qəbul edilməlidir. Təhlil olunan nümunələr – "Döyüş atı" və "İtin gecə vaxtı maraqlı hadisəsi" göstərir ki, musiqi və səs personajın daxili aləmini, məkan-zaman kontekstini, tamaşanın emosional ritmini ifadə etmək üçün istifadə olunur. Klassik teatrdan fərqli olaraq, müasir səhnədə səs və musiqi dramaturji mesaj ötürmək, leytmotivlər formalaşdırmaq, kulminasiya və gərginlik nöqtələrini vurğulamaq kimi funksiyaları yerinə yetirir. Müasir texnologiyalar – elektron musiqi, virtual akustika, səs sistemləri və süni intellektə əsaslanan kompozisiya proqramları səsin dramaturji imkanlarını genişləndirir.

Bununla belə, araşdırmalar göstərir ki, texnologiya təkcə dramaturji dəyər yaratmır, əsas rol səs və musiqinin tamaşanın ideya, quruluşuna inteqrasiyasına aiddir. Minimalist yanaşmalar və səssizliyin dramaturji istifadəsi də tamaşaçıların diqqətini və emosional cəlbini artıran yenilikçi yanaşmalar kimi seçilir. Elmi yenilik baxımından bu məqalədə müasir teatrda musiqi və səs tərtibatının dramaturji funksiyaları hərtərəfli təhlil edilir və bir çox nəticələr açıqlanır. Belə ki, musiqi və səs təkcə fon elementi deyil, tamaşanın emosional və struktur ritminin əsas amilidir. İnteraktiv və immersiv texnologiyalar, elektron musiqi, süni intellekt dramaturji qərarları dəstəkləyən alətlərdir, lakin onların tətbiqi yaradıcı nəzarətə və dramaturji məqsədə

əsaslanmalıdır. Səs dizaynı tamaşaçı ilə emosional və simvolik əlaqəni gücləndirir, personajın daxili aləmini və səhnənin məkan-zaman kontekstini vizual və akustik təcrübə ilə əlaqələndirir. Leytmotivlər, ritmik strukturlar, dissonanslıq və sükut dramaturji mesajın yaradılmasında, tamaşanın estetik bütövlüyünün qorunmasında mühüm rol oynayır.

Beləliklə, müasir teatrda musiqi və səs tərtibatının dramaturji funksiyası texnoloji yeniliklərlə zənginləşir, tamaşanın struktur, emosional və simvolik enerji mənbəyi olaraq qalır. Bu nəticələr səs tərtibatçıları, rejissorlar və dramaturqlar üçün metodiki bələdçi kimi istifadə oluna bilər və müasir teatrın inkişaf perspektivlərinə yeni elmi yanaşmalar təqdim edə bilər.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Əfəndiyev, T. (2014). Çağdaş teatr prosesləri: zaman müstəvisində baxış (Teatr və musiqi ). Mədəniyyət, 4 aprel, 6.
2. Haddon, M. (2003). The Curious Incident of the Dog in the Night-Time. URL: https://en.wikipedia.org/wiki/The_Curious_Incident_of_the_Dog_in_the_Night-Time (Müraciət tarixi: 25.02.2026).
3. Morpurgo, M. (2010). Adapt and survive. URL: https://www.theguardian.com/culture/2010/aug/21/michael-morpurgo-on-stage-adaptations (Müraciət tarixi: 25.02.2026).
4. Sutton, A. (2007). War Horse – The score for the National Theatre's production. URL: https://www.adriansutton.com/works/AS0008/ (Müraciət tarixi: 25.02.2026).

**Чораску Александрина**
*Академия Музыки, Театра и Изобразительных Искусств Молдовы,*
*Специальность Театроведение и театральный менеджмент, бакалавриат*

# Современный театр как интегрированная система языков: сценография, свет и звук в постановке «Ричард III»

**Резюме:** Театр эволюционировал от традиционных форм, ориентированных на текст и актерское исполнение, к современному театру, где каждый элемент спектакля — сценография, свет, музыка и звук — становится важной выразительной составляющей. Современные театральные технологии позволяют создавать мобильные декорации, интерактивные инсталляции и видеопроекции, предоставляя творческую свободу и возможность быстро изменять сценическое пространство. Свет и звук уже не играют исключительно функциональную роль, а активно способствуют формированию психологии персонажей и усилению драматического напряжения. Постановка пьесы Ричард III под режиссурой Петру Хадарки иллюстрирует такой подход: символическая сценография, игра света, звуковой мир и мультимедийные проекции создают интенсивную и выразительную атмосферу, превращая зрителя в эмоционального и интеллектуального участника. Спектакль отражает борьбу за власть, моральную уязвимость и коллективную ответственность, демонстрируя, как современный театр объединяет традицию и технологии для создания сложного и глубокого сценического опыта.
***Ключевые слова:*** *театр, современный, сценография, свет, звук*

## Contemporary Theatre as an Integrated System of Languages: Richard III

**Abstract.** Theatre has evolved from traditional forms, focused on text and actor performance, to contemporary theatre, where each element of the performance — scenography, lighting, music, and sound — becomes an essential expressive component. Modern theatrical technologies allow for the creation of movable sets, interactive installations, and video projections, providing creative freedom and the ability to rapidly modify the stage space. Light and sound no longer serve purely functional roles but actively contribute to shaping the characters' psychology and intensifying dramatic tension. The production of Richard III, directed by Petru Hadârcă, illustrates this approach: symbolic scenography, lighting design, soundscape, and multimedia projections create an intense and suggestive atmosphere, transforming the spectator into an emotional and intellectual participant. The performance reflects the struggle for power, moral fragility, and collective responsibility, demonstrating how contemporary theatre integrates tradition with technology to create complex and profound stage experiences.
***Keywords:*** *theatre, contemporary, scenography, light, sound*

## Müasir teatr inteqrə olunmuş dillər sistemi kimi: III Riçard

**Xülasə:** Teatr mətn və aktyor oyununun əsas yer tutduğu ənənəvi formalarından inkişaf edərək, tamaşanın hər bir elementinin səhnə tərtibatının (ssenoqrafiyanın), işığın, musiqinin və səsin mühüm ifadə vasitəsinə çevrildiyi müasir teatr mərhələsinə çatmışdır. Müasir teatr texnologiyaları hərəkətli dekorasiyaların, interaktiv instalyasiyaların və video proyeksiyaların yaradılmasına

imkan verir, bununla da yaradıcı azadlıq təmin edilir və səhnə məkanının sürətlə dəyişdirilməsi mümkün olur. İşıq və səs artıq yalnız funksional vasitələr kimi çıxış etmir, həm də personajların psixologiyasının formalaşdırılmasında və dramatik gərginliyin artırılmasında fəal rol oynayır. Rejissoru Petru Hadârcă olan "III Riçard" tamaşası bu yanaşmanın parlaq nümunəsidir: simvolik səhnə tərtibatı, işıq həlli, səs mühiti və multimedia proyeksiyaları tamaşaçını emosional və intellektual iştirakçıya çevirən təsirli və düşündürücü atmosfer yaradır. Tamaşa hakimiyyət uğrunda mübarizəni, mənəvi zəifliyi və kollektiv məsuliyyəti əks etdirərək, müasir teatrın ənənə ilə texnologiyanı birləşdirərək mürəkkəb və dərin səhnə təcrübələri yaratdığını nümayiş etdirir.
***Açar sözlər:*** *teatr, müasir, səhnə tərtibatı, işıq, səs*

**Введение**

С древних времен театр был и остаётся искусством живого присутствия, основанного на эмоциях, тексте, актёре и непосредственной связи со зрителем. От традиционного театра, который делал акцент на тексте и актёрской игре, театр претерпел многочисленные изменения как в эстетике, так и в технологическом развитии. Сегодня в современном театре каждая часть спектакля больше не функционирует отдельно. Если раньше сценография, музыка и свет играли второстепенные роли и адаптировались по ходу постановок без фиксированного плана, то теперь они становятся фундаментальными частями спектакля, без которых художественное сообщение не может быть передано полностью. Каждый элемент способствует построению атмосферы, раскрытию психологии персонажей и символическому значению действия.

**Переосмысленная сцена: современный театр глазами технологий**

По мнению Эрики Фишер-Лихте, «в перформативной эстетике современный театр создаёт особый опыт, в котором стираются границы между художником и зрителем, телом и разумом, искусством и жизнью — эта динамика становится пространством, через которое можно понять сценические искусства как трансформирующее событие» [Fischer-Lichte, E., 2008, p.11]. Раньше для ручного освещения, живого оркестрового сопровождения и организации сценического пространства требовалось много людей; теперь максимум четыре специалиста достаточно для координации каждого отдела, в зависимости от размеров театрального учреждения. Появление электрических технологий в начале XX века радикально изменило концепцию постановок. Современная сценография может включать подвижные декорации, интерактивные установки, подвесные элементы или видео-проекции, предоставляя режиссёрам и сценографам творческую свободу и возможность быстро изменять сценическое пространство. Свет получил больше возможностей моделировать сцену и влиять на эмоциональное восприятие зрителя, а звук стал активным драматургическим компонентом, напрямую участвуя в создании атмосферы и усилении сценического напряжения. Как отмечает Патрис Павис, «спектакль — это система знаков и кодов, в которой каждый элемент — актёр, пространство, свет, звук и декор — участвует в передаче смысла зрителю» [Pavis, P., 2003, p.12].

Таким образом, если в традиционном театре свет, музыка и декор выполняли в основном функциональные роли, в современном театре они становятся важными выразительными компонентами. В театрах Республики Молдова театральные технологии начали появляться лишь во второй половине XX века. Несмотря на медленную технологическую модернизацию, сценография превзошла чисто декоративную роль, став

активным, многофункциональным элементом, тесно связанным с актёрами. Свет и звук также способствуют формированию идей, эмоций и сценической атмосферы, придавая спектаклю большую выразительность и силу художественного послания. Взаимодействие этих компонентов, принадлежащих различным областям, формирует спектакль как единое целое, что можно наблюдать на постановке пьесы «Ричард III» Уильяма Шекспира в постановке Петру Хадарки, режиссёра и художественного руководителя Театра им. М. Эминеску в Кишинёве.

**Тиран вчерашний — зеркало сегодняшнего мира**

Уильям Шекспир написал множество драматических пьес, среди которых «Ричард III», относящаяся к историческим драмам. Пьеса состоит из пяти актов и прослеживает восхождение и падение Ричарда III, персонажа, движимого амбициями, манипуляциями и жаждой власти. Центральная тема текста — борьба за власть и её моральные последствия, что позволяет интерпретировать и ставить пьесу в современной ключе, где прошлое встречается с настоящим. 17 января 2026 года в Национальном театре им. М. Эминеску в Кишинёве, Республика Молдова, состоялась премьера спектакля «Ричард III» Уильяма Шекспира в постановке Петру Хадарки. Позднее постановка была показана и в Национальном театре им. Василе Алесандри в Яссах, укрепив культурные связи между Кишинёвом и Яссами. Оригинальный текст был сокращён с примерно 136 до 50 страниц, сохранив суть конфликта: борьбу за власть и её моральные последствия. Режиссёр подчёркивает актуальность пьесы, утверждая, что «мы формируем тиранов, мы их поощряем» [Ciobanu, V., 2026]. Таким образом, историческая драма становится отражением современности, манипуляций и социальной соучастности. Интерпретация Анатоля Дурбалы превращает персонажа в современного Ричарда, а не просто средневекового тирана. Он является «королём и безумцем на большой шахматной доске мира» [Maer, A. M., 2026], а сцена с троном становится моментом разоблачения притворной власти. «Ричард мчится галопом по бескрайним полям наших страхов, топча хрупкие уязвимости и мечты. Ричард так близок к нам, что иногда наши тени накладываются друг на друга. Мы — его жертвы, потому что не можем бороться с собой. Ричард заслуживает своего королевства, подданные заслуживают Ричарда» [Maer, A. M., 2026].

**Сценическое пространство в цифровой интерпретации**

Как отмечает Мэтью Коузи в Theatre and Performance in Digital Culture, представление, созданное с помощью новых медиа и цифровых технологий, ставит под вопрос фундаментальные убеждения о живом присутствии и непосредственности, интегрируя изменчивость времени и пространства в живое исполнение [Causey, 2003, p.397]. Сценография спектакля Ричард III Национального театра им. М. Эминеску, созданная Ириной Гурин, формирует символическое и нестабильное пространство. На сцене появляются элементы, такие как земля, могила, лопаты, розовый гроб, железный стол, букеты траурных цветов, верёвки и доска, создавая атмосферу кладбища и морального упадка. Чёрная плёнка на полу, по которой ползают актёры, создаёт ощущение выхода мёртвых из могил, символически возвращая жертв Ричарда для конфронтации с ним. Сценография выполнена преимущественно из ткани (занавески), на которую проецируются видео-элементы и идут прямые трансляции, а звуковой мир вместе со светом в синих и холодных белых тонах создаёт интенсивную драматическую атмосферу. Трон Ричарда, переосмысленный режиссёром Хадаркой, не является классическим массивным троном, а

представлен в виде металлического круга с разноцветной отделкой, на котором персонаж почти неустойчиво стоит. Власть представлена как порочный круг. Круглая форма символизирует бесконечный цикл насилия, предательства и амбиций. Ричард не владеет троном, а как бы заперт в нём, что указывает на то, что желаемая власть его поглотит. Трон не даёт настоящей поддержки, а положение актёра с подвешенными ногами передаёт хрупкость власти, достигнутой через убийство и манипуляции, показывая, что власть не может быть долговечной. Круг также можно воспринимать как символическую клетку, и Ричард становится пленником своих собственных желаний, неспособным выйти из логики зла, которое он сам создал. Белая занавесь, которая превращается в красную при подтягивании верёвки в сцене смерти леди Энн, символизирует переход от внешнего вида к крови и убийству. Шестигранная стеновая конструкция с красным фоном внутри символизирует как крепость власти, так и моральную тюрьму персонажа.

**Световые и технологические решения**

Свет, оформленный Андреем Фотеску, использует холодные и полугорячие тона, преимущественно белый и синий с ненавязчивыми жёлтыми акцентами. Дым обеспечивает видимость контуров объёмов, а контраст синий-белый создаёт пессимистическую атмосферу. Боковой свет формирует лица актёров, задний свет создаёт эффектные тени. Фонари и физические фонарики добавляют реализма и интимности, а падающий сверху свет, «как будто с небес», символизирует суд или неизбежную судьбу. Игра света и тени создаёт 3D-иллюзию, подчёркивая внутренние напряжения и терзания персонажей. Свет формирует атмосферу, акцентирует моменты конфликта и подчеркивает символическое значение сценографии, усиливая послание пьесы и ритм действия.

**Акустика между реальным и виртуальным**

Звуковое оформление Валентина Стришкова создаёт атмосферу тайны и напряжения, дополняя динамику спектакля и усиливая эмоции персонажей. Слышны скрипки, виолончели, басы, барабаны, звуки трубы, а также субоктавные эффекты и эхо в микрофон. Звуки выстрелов, речь через мегафон во время коронации, крики, гром, дождь и колокола усиливают драматизм. В контрасте появляются моменты королевского вальса или марша, подчёркивающие иронию власти. В определённые моменты звук передаёт то, что не произносится в диалогах, усиливая воздействие конфликтных сцен. Для чёткого слышания актёров используются петличные микрофоны и микрофоны для атмосферы, обеспечивающие точную акустику, и звук иногда выступает как внутренний голос, а иногда — как коллективная угроза. Ворона, ветер, дятел с тяжёлым звуком создают ощущение давления и фатальности. Саундтрек тщательно синхронизирован с видео-проекциями и актёрской игрой, так что каждый технический элемент способствует созданию цельного, живого и выразительного сценического мира.

**Виртуальный взгляд театра**

Проекции, оформленные Владом Адажюком, расширяют сценическое пространство и превращают его в кинематографическую вселенную. Появляются изображения внутреннего дворца, кладбища, ветра, молний и дождя, стая воронов, подвал, а также прямые трансляции со сцены, снятые на телефон, создавая ощущение немедленной реальности. Видео, где Ричард спускается по лестнице театра на церемонию, символизирует его вступление в игру власти. Символические образы — цветок гайярда, который превращается из синего в огонь и красно-черный дым при убийстве принцев, руки,

выходящие из земли с кровью, белая лошадь на синем фоне — создают разрушение виновного сознания. Сцена, выполненная с помощью искусственного интеллекта, где персонаж играет в шахматы с самим собой, говорит записанным голосом и как будто ведёт диалог со своей тёмной стороной, подчёркивает внутренний конфликт и изоляцию тирана, а игра в шахматы создаёт ощущение власти и устранения врагов. Помимо классических технологий современного театра — освещения, звука, сценографии, постановка Петру Хадарки Ричард III использует мультимедиа (проекции), демонстрируя интеграцию новых медиа как активного элемента спектакля. Прямые трансляции со сцены, видео-проекции, частично созданные с помощью ИИ изображения и звуковые эффекты, сопоставленные с видео, не являются простым визуальным контентом, а становятся сценическим языком, способствуя построению атмосферы, передаче символов и усилению психологии персонажей. Таким образом, спектакль не просто актуализирует классический текст, но и предлагает зрителю сложный опыт, в котором технологии и театр взаимодействуют для создания цельной и глубоко современной сценической вселенной. Подход Петру Хадарки демонстрирует, что современный театр выходит за рамки старой традиции, где актёр и текст были единственными важными элементами. Сегодня свет, музыка и сценография становятся активными выразительными компонентами, которые формируют сценический мир, подчёркивают смысл пьесы и превращают зрителя в эмоционального и интеллектуального участника спектакля. Спектакль становится зеркалом настоящего: «Ричард мчится галопом по бескрайним полям наших страхов, топча хрупкие уязвимости и мечты. Ричард так близок к нам, что иногда наши тени накладываются друг на друга. Мы — его жертвы, потому что не можем бороться с собой. Ричард заслуживает своего королевства, подданные заслуживают Ричарда» [Maer, A. M., 2026].

Каждый технический элемент способствует пониманию психологии персонажей и передаче символики, так что «За его порывами я всегда задаю себе вопрос, почему окружающий мир возносит таких «лягушек», как называет один из персонажей, и ставит их на вершину власти. И я процитирую известного нашего политического деятеля с кавычками: проблема не в том, что дьявол так черен, а в том, что ангелы не совсем белы», — сказал Анатоль Дурбала, актёр, привыкший к злодейским ролям, но понимающий ужасающий баланс между злом своего персонажа и злом мира, в котором он живёт» [Maer, A. M., 2026]. Отсюда можно утверждать, что спектакль становится размышлением о коллективной ответственности, власти и моральной хрупкости.

**Заключение**

Постановка Ричард III в постановке Петру Хадарки демонстрирует, что современный театр объединяет традицию и технологии, превращая каждый сценический элемент в активное выразительное средство. Сценография, свет, звук и мультимедиа-проекции способствуют актуализации шекспировского текста и подчёркиванию темы власти и коллективной ответственности. Таким образом, спектакль становится не просто переосмыслением исторической драмы, но и отражением современной реальности и моральной хрупкости общества.

## Список использованной литературы

1. Alina Mariana Maer, дата обращения 10.02.2026, https://uzpr.ro/20/01/2026/richard-al-iii-lea-premiera-la-teatrul-national-mihai-eminescudin-chisinau-de-alina-mariana-maer/
2. Causey, M. (2003). Theatre and Performance in Digital Culture: From Simulation to Embeddedness. Routledge
3. Fischer Lichte, E., 2008, The Transformative Power of Performance: A New Aesthetics, London, Routledge
4. Pavis, Patrice, Analyzing Performance: Theater, Dance, and Film, 2-е изд., University of Michigan Press, 2003
5. Petru Hadârcă, интервью Ciobanu M.V., дата обращения 09.02.2026, https://www.dw.com/ro/petru-had%C3%A2rc%C4%83-richard-al-iii-lea-este-tiranul-pe-care-l-cre%C4%83m-chiar-noi/a-75746764?fbclid=IwY2xjawPusH5leHRuA2FlbQIxMQBzcnRjBmFwcF9pZBAyMjIwMzkxNzg4MjAwODkyAAEeCTW1a4yi2yJC7Lsjz0ulBjxi6ewJBUdrEfYDyEZWWAdQq5zQvB7uborBGkk_aem_AYbD0DeskZARad8sWtR8dg

**Cəfər Rzayev**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,*
*Teatrşünaslıq ixtisası, Bakalavriat*

# Hibrid teatr: müasir səhnə sənətində transformasiya və yeni estetik model

**Xülasə:** Məqalədə hibrid teatr anlayışı, onun formalaşma mərhələləri, estetik və texnoloji əsasları, pandemiya sonrası inkişaf istiqamətləri, tamaşaçı–aktyor münasibətlərində yaratdığı dəyişikliklər və Azərbaycan teatr mühitində tətbiq imkanları elmi şəkildə təhlil olunur. Tədqiqatda klassik teatr nəzəriyyələri ilə rəqəmsal performans modelləri müqayisə edilir, hibrid teatrın dramaturji quruluş, səhnə dili baxımından xüsusiyyətləri sistemləşdirilir.
***Açar sözlər:*** *hibrid teatr, rəqəmsal performans, postdramatik teatr, interaktiv tamaşa, multimedia sənəti, səhnə texnologiyaları.*

## Hybrid Theatre: Transformation and a New Aesthetic Model in Contemporary Stage Art

**Abstract:** This article provides a scholarly analysis of the concept of hybrid theatre, its stages of formation, aesthetic and technological foundations, post-pandemic development trends, the changes it creates in actor–audience relationships, and the possibilities for its application in the Azerbaijani theatre environment. The study compares classical theatre theories with digital performance models and systematizes the characteristics of hybrid theatre in terms of dramaturgical structure and stage language.
***Keywords***: *Hybrid theatre, digital performance, postdramatic theatre, interactive performance, multimedia art, stage technologies.*

## Гибридный театр: трансформация и новая эстетическая модель в современном сценическом искусстве

**Резюме:** В статье научно анализируется понятие гибридного театра, этапы его формирования, эстетические и технологические основы, направления развития в постпандемийный период, изменения в отношениях актёра и зрителя, а также возможности его применения в театральной среде Азербайджана. В исследовании проводится сравнение классических театральных теорий с моделями цифрового перформанса, а также систематизируются особенности гибридного театра с точки зрения драматургической структуры и сценического языка.
***Ключевые слова:*** *Гибридный театр, цифровой перформанс, постдраматический театр, интерактивный спектакль, мультимедийное искусство, сценические технологии.*

### Giriş

XXI əsr teatr sənəti sürətli texnoloji inkişaf və qlobal kommunikasiya imkanlarının genişlənməsi nəticəsində yeni estetik transformasiya mərhələsinə qədəm qoymuşdur. Xüsusilə 2020-ci ildən etibarən pandemiya şəraiti ənənəvi teatr modelinin məkan və auditoriya baxımından məhdudiyyətlərini üzə çıxarmış, nəticədə "hibrid teatr" modeli daha geniş yayılmışdır.

Hibrid teatr ənənəvi səhnə sənəti ilə rəqəmsal texnologiyaların, canlı ifa ilə onlayn yayımın, fiziki məkanla virtual mühitin sintezini ifadə edir. Bu model həm canlı tamaşaçı qarşısında, həm də paralel olaraq rəqəmsal platformalarda təqdim edilən tamaşaları əhatə edir.

**Hibrid teatr anlayışının nəzəri əsasları**

Teatr nəzəriyyəsində "hibridlik" anlayışı müxtəlif estetik üslubların və ifadə vasitələrinin sintezi kimi qəbul edilir. Bu kontekstdə hibrid teatr anlayışı postmodern teatrın inkişaf xətti ilə sıx bağlıdır. Alman teatr nəzəriyyəçisi Hans-Thies Lehmann özünün "Postdramatic Theatre" əsərində dramatik strukturların zəifləməsi və səhnədə vizual, texnoloji, fiziki komponentlərin güclənməsi prosesini izah etmişdir. Hibrid teatr bu postdramatik modelin texnoloji davamı kimi qiymətləndirilə bilər. Digər tərəfdən, Erika Fischer-Lichte performansın transformativ gücünü və tamaşaçı ilə aktyor arasındakı qarşılıqlı təsiri vurğulamışdır. Onun fikrincə, teatr canlı ünsiyyət hadisəsidir; hibrid model isə bu ünsiyyəti həm fiziki, həm də virtual müstəvidə genişləndirir.

**Hibrid teatrın formalaşmasını üç mərhələdə izləmək mümkündür:**

*1. Multimedia teatr mərhələsi (XX əsrin sonu)*

Video-proyeksiya, səhnə ekranları və interaktiv işıq sistemlərinin tətbiqi ilə klassik teatr yeni vizual çalarlar qazandı.

*2. Rəqəmsal performans mərhələsi*

XXI əsrin əvvəllərində onlayn platformalar və canlı yayım imkanları teatrın məkan sərhədlərini aradan qaldırdı.

*3. Pandemiya sonrası hibrid model*

COVID-19 dövründə bir çox teatrlar paralel yayım sisteminə keçdi. Məsələn, National Theatre tərəfindən yaradılmış National Theatre Live layihəsi tamaşaların kinoteatrlarda və onlayn platformalarda nümayişini təmin etdi.

Eyni zamanda Royal Shakespeare Company rəqəmsal yayım və interaktiv texnologiyalardan geniş istifadə etmişdir.

**Hibrid teatrın əsas estetik xüsusiyyətləri aşağıdakılardır:**

- Məkanın çoxtəbəqəliliyi – fiziki səhnə ilə virtual mühitin paralel mövcudluğu.
- Zamanın elastikliyi – canlı və arxivləşdirilmiş materialın birləşməsi.
- Interaktivlik – tamaşaçıların onlayn platformalar vasitəsilə prosesə müdaxiləsi.
- Multimediallıq – video, animasiya, 3D qrafika və canlı ifanın sintezi.
- Bu xüsusiyyətlər teatrın klassik Aristotel dramaturgiyası modelindən uzaqlaşmasına və daha çox performativ struktura yönəlməsinə səbəb olur.

**Tamaşaçı–aktyor münasibətlərində dəyişiklik**

- Klassik teatr modelində tamaşaçı passiv müşahidəçi rolunda çıxış edirdi. Hibrid modeldə isə tamaşaçı:
- Canlı zalda iştirak edə bilər;
- Onlayn platformada rəy və reaksiya bildirə bilər;
- Səsvermə və interaktiv seçimlər vasitəsilə süjetə təsir göstərə bilər.
- Bu transformasiya teatrın kommunikativ funksiyasını genişləndirir və qlobal auditoriya anlayışını formalaşdırır.

**Hibrid teatr:**

- Coğrafi sərhədləri aradan qaldırır
- Fiziki məhdudiyyətləri olan şəxslər üçün əlçatanlığı artırır
- Gənc auditoriyanı cəlb edir

- Qlobal mədəni dialoqu gücləndirir.
- Bu model mədəniyyətin demokratikləşməsi prosesinə töhfə verir.

**Hibrid teatrın əsas texnoloji bazası aşağıdakılardır:**

- Canlı yayım sistemləri
- Virtual reallıq (VR) və artırılmış reallıq (AR)
- Motion capture texnologiyası
- LED ekran və proyeksiya sistemləri

**Süni intellekt əsaslı səhnə idarəetməsi**

Bu komponentlər teatrın texnoloji sənət növü kimi inkişafına şərait yaradır.

**Azərbaycan teatrında hibrid teatr anlayışı**

Azərbaycan teatrı zəngin tarixi ənənəyə malikdir. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı və Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı pandemiya dövründə tamaşaların onlayn yayımını həyata keçirmişdir.

**Gələcək perspektivdə:**

- Rəqəmsal arxiv sistemlərinin yaradılması
- Onlayn interaktiv tamaşaların hazırlanması
- Beynəlxalq platformalarla əməkdaşlıq

Milli teatrın qlobal məkana inteqrasiyasını gücləndirə bilər.

**Elmi nəticələr**

